RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 60 (10080) 10 aprel 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Litva Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin inkişafına həmişə dəstək verib



### Azərbaycan Prezidenti İlham Əliyev Litvanın Baş nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Litva Respublikasının Baş naziri İnqa Ruqinieneni qəbul edib.

2

## Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlər qardaşlıq və strateji müttəfiqlik prinsiplərinə əsaslanır



### Prezident İlham Əliyev Türkiyənin daxili işlər nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Türkiyə Respublikasının daxili işlər naziri Mustafa Çiftçini qəbul edib.

2

# Qlobal münaqişələr fonunda Azərbaycan reallığı



## Bu reallığın müəllifi İlham Əliyevdir

Dünyanın rənginin belə bir mürəkkəb çalarlarla qarışdığı zamanda Azərbaycanın 44 gün ərzində əldə etdiyi hərbi-siyasi Zəfər, sözün əsl mənasında, unikal presedent kimi özünü göstərir. İkinci Qarabağ müharibəsi təkcə ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmədi, eyni zamanda müasir müharibə konsepsiyalarının effektiv tətbiqinin parlaq nümunəsinə çevrildi. Bu qələbə təsadüfi deyildi, onun arxasında uzun illər ərzində formalaşan strateji yanaşma, siyasi iradə və hərbi hazırlıq dayanırdı.

Azərbaycanın qələbəsini şərtləndirən əsas amillərdən biri dövlət başçısının qətiyyətli və prinsipial siyasəti idi. Prezident İlham Əliyev tərəfindən yürüdülən məqsədyönlü siyasət nəticəsində ölkəmizin iqtisadi potensialı gücləndirildi, ordu quruculuğu prioritet istiqamətə çevrildi və beynəlxalq arenada Azərbaycanın mövqeləri möhkəmləndirildi. Prezidentin dəfələrlə vurğuladığı kimi, "Qarabağ Azərbaycandır!" tezisi, sadəcə, siyasi bəyanat deyildi, həm də milli iradənin ifadəsi və strateji hədəfin konkret formulası idi.

Bu qələbənin digər mühüm komponenti Azərbaycan Ordusunun peşəkarlığı və döyüş qabiliyyəti oldu. Müasir texnologiyaların tətbiqi, yüksək koordinasiya və taktiki çeviklik 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Azərbaycan əsgərinin göstərdiyi qəhrəmanlıq, fədakarlıq, vətənə bağlılıq isə bu qələbəni mənəvi baxımdan daha da ucaltdı. O səbəbdən bu, hərbi uğurla yanaşı, həmçinin milli ruhun təntənəsi idi.

Postmünaqişə reallıqlarını dəyərləndirərkən qeyd etməliyik ki, Azərbaycanın əldə etdiyi qələbə eyni zamanda beynəlxalq hüququn bərpası baxımından mühüm əhəmiyyət daşıyır. Məhz bu kontekstdə Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən səsləndirilən fikirlər qələbənin mahiyyətini dolğun şəkildə ifadə edir. Dövlətimizin başçısının vurğuladığı kimi, "Biz Qarabağı azad edərkən BMT-nin icra olunmamış 4 qətnaməsini təkbaşına icra etdik". Bu yanaşma Azərbaycanın öz gücünə əsaslanaraq beynəlxalq hüququn tələblərini təmin etməsi, illərlə kağız üzərində qalan qərarların real müstəviyə daşınması baxımından xüsusi əhəmiyyət kəsb edir və qələbəmizi həm hüquqi, həm də siyasi müstəvidə daha da legitimləşdirir.

5

## Prezident İlham Əliyev xristian icmasını təbrik edib

### Azərbaycanın pravoslav xristian icmasına

Hörmətli həmvətənlər!

Sizi - Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzularımı yetirirəm.

Azərbaycanda yüzillərdir hökm sürən tolerantlıq mühiti burada məskunlaşmış ayrı-ayrı xalqların, etiqad və inancların mənsubları arasında nümunəvi və harmonik ictimai münasibətlərin bərqərar olmasında müstəsna rol oynamışdır. Biz cəmiyyətimizdə tarixən formalaşmış etnik-mədəni müxtəlifliyi, milli-mənəvi dəyərləri və multikultural ənənələri müasir dövlətçiliyimizin unikal sərvəti kimi qiymətləndiririk.

Hazırda ölkəmizdə demokratik-hüquqi prinsiplərin təmin edilməsi, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsə, o cümlədən xristian icmasına özünəməxsus adət-ənənələrini, dil və mədəniyyətini yaşatmaq üçün geniş imkanlar yaradır. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, xristian həmvətənlərimiz ictimai-siyasi, sosial-mədəni həyatımızda fəal iştirak edir, müstəqil dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər.

Əziz dostlar!

Dirçəlişin, yeniliyin, mərhəmət və şəfqət duyğularının rəmzi olan Pasxa bayramı hər il Azərbaycanda təntənə ilə qeyd olunur. Bir daha hər birinizə səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2026-cı il*

## Sülh, humanizm və mehriban qonşuluq siyasəti



Prezident İlham Əliyev ilə İran Prezidenti Məsud Pezeşkian arasında baş tutan telefon danışığı ölkəmizin mehriban qonşuluq siyasətinə sadiqliyinin bariz nümunəsidir. Dövlətimizin başçısı İran İslam Respublikası və Amerika Birləşmiş Ştatları arasında elan edilmiş atəşkəslə bağlı təbriklərini çatdırıb. Məsud Pezeşkian bu təbriklərə və ölkəmizin İrana göstərdiyi humanitar yardıma görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Telefon söhbəti zamanı ikitərəfli əməkdaşlığa dair məsələlər barədə fikir mübadiləsi aparılıb.

ABŞ-İran arasında sülh gündəminin detalları eyni gündə xarici işlər nazirləri səviyyəsində də müzakirə olunub. Belə ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı baş tutub. Telefon danışığı zamanı tərəflər regionda mövcud təhlükəsizlik vəziyyəti və əldə olunmuş atəşkəs barədə fikir mübadiləsi aparıblar.

Ceyhun Bayramov elan olunmuş atəşkəsi alqışlayıb. Atəşkəsin təmin olunmasının gərginliyin azaldılması, danışıqların uğurla nəticələnməsi və sabitliyin bərqərar olunması baxımından əhəmiyyəti vurğulanıb. Atəşkəsin əldə olunmasında vasitəçi ölkələrin, xüsusilə də dost və qardaş Pakistanın rolu təqdir olunub.

4

## Yeni təlim mərkəzində mülki aviasiyamız üçün yüksəkixtisaslı kadrlar hazırlanacaq

Milli Aviasiya Akademiyası bu gün Azərbaycanın strateji əhəmiyyətə malik aerokosmik sahəsini, o cümlədən mülki aviasiyanı və bir sıra digər sahələri beynəlxalq tələblərə cavab verən yüksəkixtisaslı mütəxəssislərlə təmin edən ali təhsil müəssisəsidir. Akademiyada ali təhsil pillələri tələbələrə ixtisaslaşmış bilik, analitik düşüncə və tədqiqat bacarıqları qazandıraraq, onları əmək bazarının tələblərinə uyğun peşəkarlar kimi yetişdirməyi hədəfləyir.

Yeni mərkəz AZAL-ın təşəbbüsü ilə məhz akademiyanın ərazisində yaradılıb. Bu, uçuş heyətinin fövqəladə vəziyyətlər üzrə hazırlığı, həmçinin hava hərəkətini idarəetmə dispetçerlərinin nəzəri və praktiki təlimi üçün nəzərdə tutulan bir mərkəzdir. Burada Beynəlxalq Mülki Aviasiya Təşkilatının və Avropa İttifaqı Aviasiya Təhlükəsizliyi Agentliyinin (EASA) tələblərinə uyğun olaraq "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin dispetçerləri hazırlanacaq. Bunun üçün dünyanın qabaqcıl aeronaviqasiya təhsil mərkəzlərindən olan Alman Aeronaviqasiya Akademiyasının (DFS) təhsil proqramı əsasında Aeronaviqasiya Təlim Mərkəzi fəaliyyət göstərəcək.

5



## Azərbaycan tolerantlığın unikal ünvanıdır

BDAK-ın qərəzli hesabatı ilə əlaqədar Azərbaycandakı dini konfessiya rəhbərləri bəyanat yayıblar. Bəyanatda qeyd olunub ki, hesabatdakı iddialar ölkədəki reallıqlara uyğun gəlmir, əksinə, ölkəmizin daxildə və qlobal səviyyədə dini tolerantlığın təşviqi istiqamətində göstərdiyi əhəmiyyətli səyləri nəzərə alınmayıb. Bəyanatda bildirilib ki, ölkəmizdə guya dini azadlığın pozulması və dini icmalara təzyiq göstərilməsi kimi Azərbaycana qarşı əsassız iddialar müəyyən qrupların qərəzli lobbiçilik mövqeyini əks etdirir. "BDAK-ın bu yanaşması Prezident Donald Trampın hakimiyyətə qayıdışından sonra müxtəlif sahələr üzrə ikitərəfli münasibətlərin gücləndirilməsi və ötən ilin 8 avqustunda Vaşinqtonda onun tarixi rolu ilə Azərbaycan və Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsi fonunda xüsusilə məyusedicidir... Azərbaycan özünün əsrlərə dayanan müxtəliflik və multikulturalizm ənənəsi ilə fərqli mədəniyyətlər və dinlər arasında dialoqun, qarşılıqlı anlaşmanın və etimadın təşviqinə hər zaman sadiqdir. Azərbaycan Konstitusiyası ayrı-seçkiliyi açıq şəkildə qadağan edir və dinindən və etiqadından asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyini təmin edir. Bu hüquqi təminatlardan əlavə, Azərbaycan bütün vətəndaşlara dini, etnik və mədəni mənsubiyyətlərini qorumaq və daha da inkişaf etdirmək üçün şərait yaradır", - deyə bəyanatda qeyd olunub.

6

## *Dövlət idarəçiliyində süni intellektin tətbiqi:* üstünlüklər və strateji baxış



Dövlətimizin başçısı süni intellekt və rəqəmsallaşma sahəsində Azərbaycanın strateji üstünlüklərini qeyd etdikdən sonra bunların dövlət idarəçiliyində və sosial həyatda tətbiqi ilə bağlı konkret tövsiyələr və strateji baxış irəli sürmüş, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə digər dövlət qurumları arasında koordinasiya məsələsinin önəmini xüsusi qeyd etmişdir.

Süni intellekt əsaslı həllərin dövlət qurumları və özəl şirkətlərdə tətbiqi məsələsinin rəqəmsal transformasiya, innovativ ekosistemin qurulması və kibertəhlükəsizliklə əlaqəli bir şəkildə təqdim edilməsi Azərbaycan dövlətinin bu sahədəki strateji vizyonunun beynəlxalq təcrübəyə uyğun qurulduğunu deməyə əsas verir.

8

# Litva Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin inkişafına həmişə dəstək verib

## Azərbaycan Prezidenti İlham Əliyev Litvanın Baş nazirini qəbul edib



Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Litvanın Baş nazirinin ölkəmizə səfərinin səmərəli olacağına və ikitərəfli əlaqələrimizin inkişafına töhfə verəcəyinə ümidvarlığını bildirdi.

Qəbula görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edən İnqa Ruqiniene Azərbaycanla Litva arasında uzun illərdir yaxşı münasibətlərin olduğunu məmnunluqla vurğuladı.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi, enerji, investisiyalar, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıqla bağlı müzakirələr aparıldı, münasibətlərimizin genişləndirilməsi işində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkil olunmasının vacibliyi qeyd edildi.

Litvanın Baş naziri Azərbaycanla Ermənistan arasında sülhün bərqərar olması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa və quruculuq işlərinin aparıldığını deyən Litvanın Baş naziri keçmiş məcburi köçkünlərin geri qaytarılması istiqamətində Azərbaycan dövləti tərəfindən genişmiqyaslı işlərin həyata keçirildiyini qeyd etdi.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev regionda sülhün və Azərbaycanla Ermənistan arasında ticarət münasibətlərinin qurulmasının təşəbbüskarının məhz ölkəmiz olduğunu vurğuladı.

Dövlətimizin başçısı bildirdi ki, artıq 30 minə yaxın keçmiş məcburi köçkünün öz dədə-baba yurdlarına qaytarılması təmin olunub. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycan tərəfindən şəhərlərin, kəndlərin salındığını, nəqliyyat və digər sosial infrastruktur layihələrinin icra olunduğunu dedi. Ancaq bununla belə dövlətimizin başçısı qeyd etdi ki, həmin ərazilərdə minalar problemi mövcuddur ki, bu da bərpa və quruculuq işlərinin aparılmasını ləngidir. Prezident İlham Əliyev Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərimizdə indiyədək 400-dən çox insanın mina partlayışlarında həlak olduğunu və ya yaralandığını bildirdi.

Görüşdə Azərbaycan-Litva əlaqələrinin ikitərəfli gündəliyi ilə yanaşı, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu. Bu xüsusda Litvanın Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin inkişafına həmişə dəstək verdiyi vurğulandı.

Söhbət zamanı regional məsələlərə də dair fikir mübadiləsi aparıldı.

# Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlər qardaşlıq və strateji müttəfiqlik prinsiplərinə əsaslanır

## Prezident İlham Əliyev Türkiyənin daxili işlər nazirini qəbul edib



Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən Mustafa Çiftçi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Azərbaycan Prezidentinə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Prezident Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi. Söhbət zamanı Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərin qardaşlıq və strateji müttəfiqlik prinsiplərinə əsaslandığı vurğulandı, bütün istiqamətlər üzrə əlaqələrin genişləndiyi bildirildi. Ölkələrimizin müvafiq qurumları arasında səmərəli tərəfdaşlığın qurulduğu qeyd edildi, bu xüsusda Azərbaycanın və Türkiyənin Daxili İşlər nazirliklərinin də uğurlu əməkdaşlıq həyata keçirdikləri vurğulandı.

# "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14 (Cild I); 2024, № 1, maddə 19, № 2, maddə 137, № 7, maddə 755, № 12 (II kitab), maddələr 1328, 1350; 2025, № 1, maddələr 4, 7, № 4 (I kitab), maddə 324, № 6, maddələr 524, 525, 527, № 12 (I kitab), maddə 1124; Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 328-VIIQD nömrəli Qanunu) ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 12-ci maddənin birinci hissəsinin "b" bəndinin ikinci abzasının birinci cümləsində ", ehtiyatdan daxil olanlar və qadınlar - 3 il" sözləri "və ehtiyatdan daxil olanlar - 3 il, qadınlar - 6 ay" sözləri ilə əvəz edilsin;

1.2. Əsasnaməyə 7 saylı əlavə üzrə:

1.2.1. "Öhdəlik" hissəsinin "a" bəndində "ilə" sözü "ay/il" sözləri ilə, "qulluq" sözü "xidmət" sözü ilə əvəz edilsin;

1.2.2. hər dörd halda "Həqiqi hərbi xidmət müddətinin uzadılması" hissələrində "il," sözü "ay/il," sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56 (Cild I); 2024, № 2, maddə 137, № 4, maddə 363, № 12 (II kitab), maddələr 1328, 1350; 2025, № 1, maddə 4, № 4 (I kitab), maddələr 305, 311, № 6, maddələr 525, 527,№ 12 (I kitab), maddə 1124; Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 328-VIIQD nömrəli Qanunu) 38.1.2-ci maddəsinin birinci cümləsində "daxil olanlar, ehtiyatdan daxil olanlar və qadınlar - 3 il" sözləri "və ehtiyatdan daxil olanlar - 3 il, qadınlar - 6 ay" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2026-cı il*

# "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət icra məmurlarının qulluğa qəbulu ilə bağlı müsabiqənin və icbari təlimin keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 97** **Bakı şəhəri, 8 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İcra məmurları haqqında", "İcra haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 223-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 iyul tarixli 445 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət icra məmurlarının qulluğa qəbulu ilə bağlı müsabiqənin və icbari təlimin keçirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# MSK nümayəndə heyəti Macarıstanda parlament seçkilərini müşahidə edəcək

Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun rəhbərlik etdiyi nümayəndə heyəti Macarıstana səfərə yola düşüb.

MSK-dan bildirilib ki, səfər Macarıstan Milli Seçki Bürosunun prezidenti Nagy Attilanın dəvəti əsasında həyata keçirilir. Nümayəndə heyətinin səfərinin məqsədi aprelin 12-də Macarıstanda keçiriləcək parlament seçkilərini müşahidə etməkdir.

Səfər proqramına əsasən, MSK sədri M.Pənahovun həmkarı A.Nagy və digər rəsmi şəxslərlə, habelə seçkilərin müşahidəsinə qatılan müxtəlif ölkələrin ali seçki



qurumlarının rəhbərləri ilə görüşlər keçirməsi planlaşdırılır. Görüşlər zamanı seçki idarəçiliyi sahəsində təcrübə mübadiləsi, əməkdaşlıq əlaqələrinin genişləndirilməsi perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı müzakirələr aparılması nəzərdə tutulur.

MSK nümayəndələri paytaxt Budapeştdə seçkiqabağı hazırlıq prosesi ilə tanış olacaq, həmçinin seçki günü məntəqələrdə səsvermənin gedişini müşahidə edəcək.

Qeyd etmək lazımdır ki, Mərkəzi Seçki Komissiyası Macarıstanda parlament seçkilərinin müşahidəsində ATƏT/DTİHB-nin müşahidə missiyasının tərkibində də təmsil olunur.

# *Türk ekspert:* "Azərbaycan nə tərəf seçir, nə də geri çəkilir, balanslı siyasətlə bölgədə oyunu dəyişir"

"Fevralın 28-də başlayan ABŞ-İran qarşıdurması fonunda Türkiyə və Azərbaycan Yaxın Şərq böhranında ən etibarlı ölkələr kimi ön plana çıxıblar".

Bunu AZƏRTAC-a açıqlamasında türk siyasi şərhçi Emre Diner deyib. Azərbaycanın münaqişə tərəfləri ilə münasibətlərinə diqqət çəkən E.Diner əlavə edib: "Azərbaycan hər üç dövlətlə - İran, İsrail və ABŞ ilə yaxşı münasibətlərə malikdir. İranla uzun sərhədi bölüşür, eyni zamanda İsrail və ABŞ ilə strateji tərəfdaşlıq münasibətləri mövcuddur. Prezident İlham Əliyev rəhbərliyində Azərbaycanın bu dövlətlərlə eyni vaxtda yaxın münasibətlər saxlaması ölkənin müstəqillikdən bəri yürütdüyü balanslı xarici siyasətin nəticəsidir. Bu siyasət sayəsində Azərbaycan həm regional, həm də qlobal miqyasda etibarlı tərəfdaş kimi tanınıb və eyni zamanda öz təhlükəsizliyini diplomatik yollarla təmin etməyi bacarıb".

Siyasi şərhçi vurğulayıb ki, Azərbaycan Cənubi Qafqaz geosiyasətində xarici siyasətinin mərkəzinə yalnız sülhü qoyub. Bu baxımdan Azərbaycan, Türkiyə kimi, bölgədə sülhü və sabitliyi prioritet hesab edir.

"Azərbaycan son dövrdə Ermənistanla yekun sülhün əldə olunması istiqamətində mühüm diplomatik addımlar atıb. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə qeyd edib ki, Cənubi Qafqaz artıq silah səsləri ilə deyil, sülhün sədaları ilə yadda qalmalıdır. Azərbaycanın balanslı siyasəti İranla bağlı məsələlərdə də açıq şəkildə özünü göstərir. Bakı 2025-ci ilin iyununda İranın 12 gün ərzində İsrail tərəfindən vurulmasına reaksiya verdi, bunu beynəlxalq hüquqa zidd adlandırdı və problemlərin yalnız diplomatik yollarla həll edilməsinin vacibliyini vurğu-



ladı. Azərbaycan öz ərazisinin və hava məkanının hər hansı dövlət tərəfindən İrana qarşı hərbi məqsədlərlə istifadə olunmasına heç vaxt icazə verməyəcəyini də açıq şəkildə bəyan edib. Azərbaycan bu mövqeyi hazırkı vəziyyətdə də qoruyur. ABŞ və İsrailin İranla fevralın 28-də başlayan müharibəsinə münasibətdə Azərbaycan yenə də balanslı mövqe sərgilədi. Hərbi eskalasiyanı region və dünya üçün ciddi təhlükə kimi qiymətləndirərək tərəfləri təmkinli olmağa, gərginliyi artıracaq addımlardan çəkinməyə və danışıqlara qayıtmağa çağırdı", - deyə E.Diner vurğulayıb.

Ekspert bildirib ki, Azərbaycan münaqişənin əvvəlindən bəri öz ərazisinin İrana qarşı hər hansı təhdid üçün istifadə olunmasına imkan verməyəcəyini açıq şəkildə bəyan edir. "Naxçıvan istiqamətində baş verən və "saxta bayraq əməliyyatı" kimi qiymətləndirilən hadisə fonunda Azərbaycanın İranla əlaqələri balanslı şəkildə idarə etməsi iki ölkə münasibətləri üçün mühüm sınaq olub. Prezident İlham Əliyev bu balans siyasəti ilə İranla gələcək münasibətlər üçün həm iqtisadi, həm də strateji baxımdan yeni imkanlar formalaşdırıb. İran Prezidenti Məsud Pezeşkian ilə Prezident İlham Əliyev arasında telefon danışığı da münasibətlərdə açıq və davamlı dialoqun göstəricisidir", - deyə Emre Diner bildirib.

Onun sözlərinə görə, bu proses eyni zamanda İranın da Azərbaycan ilə Türkiyənin regionda etibarlı tərəfdaş və sabitlik amili olduğunu daha aydın şəkildə dərk etməsinə səbəb olub. Prezident İlham Əliyevin balans siyasəti ilə yanaşı, azərbaycanəsilli və Bakı-Tehran münasibətlərinə önəm verən Məsud Pezeşkianın prezident seçilməsi iki ölkə münasibətlərini yeni və müsbət mərhələyə çıxarıb. Münasibətlərin qorunması və inkişafı onların daha da dayanıqlı ola biləcəyini göstərir.

Sonda E.Diner qeyd edib ki, Türkiyənin regionda artan balanslaşdırıcı və dəstəkləyici rolu Azərbaycan-Türkiyə-İran əməkdaşlığını daha da inkişaf etdirə bilər. Azərbaycanın İrana humanitar yardımları, tərəflərə davamlı təmkin çağırışları və Tehranla fasiləsiz təmasları göstərir ki, Bakı ilə Tehran arasında məhdud da olsa uğurlu əməkdaşlıq davam edə bilər.

# Qazaxıstan Senatı Azərbaycan və Özbəkistanla "yaşıl enerji" tərəfdaşlığı sənədini təsdiq edib

Qazaxıstan parlamenti Azərbaycan və Özbəkistanla "yaşıl enerji" tərəfdaşlığı sənədini təsdiq edib.



Astana, Bakı və Daşkənd 2024-cü il noyabrın 13-də Bakıda keçirilən COP29 iqlim konfransı çərçivəsində "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i imzalamışdı.

AZƏRTAC Qazaxıstan mediasına istinadla xəbər verir ki, bu ölkənin parlamentinin yuxarı palatası cümə axşamı 2024-cü ilin sonlarında Azərbaycan və Özbəkistanla imzalanmış "yaşıl enerji" tərəfdaşlığı sazişini təsdiqləyib.

Qazaxıstan Senatının verdiyi açıqlamada bildirilir ki, saziş Senatın iclasında təsdiqlənib və qanunvericilərin fikrincə, bu, enerji təhlükəsizliyinin gücləndirilməsinə, tranzit marşrutlarının şaxələndirilməsinə və ölkədə davamlı iqtisadi artımın təşviqinə töhfə verəcək.

Bəyanata görə, Senatın sədri Maulen Aşimbayev sazişin təsdiqlənməsinə dair qanun layihəsi ilə bağlı çıxışında bildirib ki, bu sənəd Astana, Bakı və Daşkənd arasında "yaşıl enerji"nin inkişafı üçün birgə fəaliyyəti müəyyən edir və üç tərəfin səmərəliliyi artırmaq üçün xüsusi işçi qrupu yaratmasını nəzərdə tutur. "Ümumiyyətlə, ümidvarıq ki, qanunun təsdiqlənməsi Qazaxıstanda bərpaolunan enerjinin inkişafına kömək edəcək və bu sahədə regional əməkdaşlığı gücləndirəcək", - deyə Aşimbayev əlavə edib.

Bəyanatda qeyd edilib ki, saziş həmçinin yeni enerji səmərəliliyi texnologiyalarının tətbiqini, Avropaya və digər bazarlara enerji ixracı üçün infrastrukturun inkişafını nəzərdə tutur.

Qazaxıstan parlamentinin aşağı palatası da ötən ay keçirilən səsvermə zamanı bu sazişi təsdiqləyib.

# Azərbaycanın və Litvanın Baş nazirləri Bakıda görüşüblər

Aprelin 9-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə rəsmi səfərdə olan Litva Respublikasının Baş naziri İnqa Ruqiniene ilə görüşüb.



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan ilə Litva arasında siyasi, iqtisadi, nəqliyyat, enerji və digər sahələrdə əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər iki ölkə arasında münasibətlərin uğurla inkişaf etdiyini məmnunluqla qeyd edərək, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün əlverişli imkanların mövcud olduğunu vurğulayıblar. İqtisadi sahədə əməkdaşlığın dərinləşdirilməsi, ticarət dövriyyəsinin artırılması və investisiya imkanlarının təşviqi məsələlərinə xüsusi diqqət yetirilib. Bu kontekstdə hökumətlərarası komissiyanın fəaliyyətinin əhəmiyyəti qeyd olunub. Nəqliyyat və logistika sahəsində əməkdaşlıq perspektivləri müzakirə edilərək, Orta dəhliz və digər beynəlxalq nəqliyyat marşrutları üzrə qarşılıqlı fəaliyyətin genişləndirilməsi imkanları nəzərdən keçirilib. Enerji sahəsində əməkdaşlıq imkanları da diqqət mərkəzində olub.

Tərəflər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə edərək, Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin inkişafının önəmini diqqətə çatdırıblar.

# Litva Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verir





Milli Məclisin Sədri Sahibə Qafarova aprelin 9-da ölkəmizdə rəsmi səfərdə olan Litva Respublikasının Baş naziri İnqa Ruqiniene ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə Litva arasında mövcud dostluq münasibətlərinin və qarşılıqlı əməkdaşlığın inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb. Bildirilib ki, Litva Baş nazirinin ölkəmizə rəsmi səfəri iki dövlət arasında mövcud olan münasibətlərin və əməkdaşlığın daha da genişləndirilməsi niyyətinin göstəricisidir.

Milli Məclisin Sədri qonağı parlamentdə salamlamaqdan məmnunluğunu ifadə edərək dedi ki, Azərbaycan və Litva arasında tarixən formalaşmış əlaqələr və xalqlar arasında dostluq münasibətləri ikitərəfli əməkdaşlığın inkişafı üçün möhkəm zəmin yaradır.

Söhbət zamanı ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin və siyasi dialoqun əməkdaşlığın genişləndirilməsində mühüm rol oynadığı qeyd edilib.

Spiker Sahibə Qafarova ölkələr arasında imzalanmış sənədlərin əməkdaşlıq üçün möhkəm hüquqi baza yaratdığını bildirərək, müqavilə-hüquq bazasının daha da genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb. Söhbətdə iqtisadi və ticarət əlaqələrinin mövcud potensiala uyğun inkişaf etdirilməsinin vacibliyi qeyd olunub, bu istiqamətdə əlavə imkanların mövcud olduğu vurğulanıb.

Humanitar sahədə əməkdaşlıqdan danışan Milli Məclisin Sədri təhsil və mədəniyyət sahəsində əlaqələrin xalqlar arasında münasibətlərin dərinləşməsində mühüm rol oynadığını bildirib. Hazırda Litva ali təhsil müəssisələrində çoxlu sayda azərbaycanlı tələbələrin təhsil aldığı və qarşılıqlı mədəni tədbirlərin keçirildiyi məmnuniyyətlə qeyd olunub.

Görüşdə iki ölkə arasında parlamentlərarası əməkdaşlığın əhəmiyyətinə toxunulub. Qarşılıqlı səfərlərin və parlamentlərarası əlaqələr üzrə işçi qruplarının fəaliyyətinin qanunverici orqanlar arasında dialoqun inkişafına töhfə verdiyi vurğulanıb. Parlamentlərin profil komitələri arasında əməkdaşlığın dərinləşdirilməsinin vacibliyi haqqında danışılıb.

Litva Respublikasının Baş naziri İnqa Ruqiniene səmimi qəbula görə təşəkkürünü bildirib. Ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini deyən qonaq mövcud geniş imkanları qeyd edərək iqtisadiyyat, humanitar, müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlığın vacibliyini diqqətə çatdırıb.

Litva parlamentində Azərbaycanla dostluq qrupunun üzvü olduğunu bildirən qonaq ikitərəfli münasibətlərin inkişafında parlamentlərin roluna toxunaraq, işçi qruplarının fəaliyyətinin genişləndirilməsinin və qarşılıqlı səfərlərin təşviq olunmasının əhəmiyyətini vurğulayıb.

Görüşdən sonra qonaqlar Milli Məclisin plenar iclas zalı və parlamentin foyesində yaradılmış Zəfər Guşəsi ilə tanış olublar.

Sonda qonaqlar xatirə şəkli çəkdiriblər.

*"Azərbaycan"*

# Azərbaycan, Türkiyə, Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərinin dostluq qruplarının 3-cü iclasında

Aprelin 9-da Milli Məclisdə Azərbaycan Respublikası Milli Məclisi, Türkiyə Respublikası Böyük Millət Məclisi və Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin dostluq qrupları üzvlərinin 3-cü iclası keçirilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Milli Məclisin komitə sədri Əhliman Əmiraslanov tədbir iştirakçılarını Milli Məclisin Sədri Sahibə Qafarovanın adından salamlayaraq bildirib ki, ölkələrimiz arasında əlaqələr günbəgün genişlənir, inkişaf edir və bu gün özünün ən qürurverici anlarını yaşayır. Dövlətlərimiz, xalqlarımız arasında bütün sahələrdə sıx əməkdaşlıq və dostluq münasibətləri mövcuddur. O, bu əlaqələrin möhkəmlənməsində Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın müstəsna rolu olduğunu vurğulayıb.

Xalqlarımızın həm çətin günlərdə, həm xoş zamanlarda bir-birinin yanında olduğunu deyən dostluq qrupunun rəhbəri Qarabağ Zəfərində Türkiyənin Azərbaycanın yanında olduğunu söyləyib, Şuşa Bəyannaməsinin qardaşlığımızı müttəfiqlik səviyyəsinə yüksəltdiyini qeyd edib. Azərbaycanın da Türkiyədə baş vermiş dağıdıcı zəlzələ zamanı əlindən gələn yardımı əsirgəmədiyini bildirib. O, bu yaxınlarda Qəhrəmanmaraş şəhərində zəlzələdən əziyyət çəkmiş insanlar üçün Azərbaycan məhəlləsinin istifadəyə verilməsini dostluğumuzun simvolu kimi qiymətləndirib.

Əhliman Əmiraslanov Şimali Kipr Türk Cümhuriyyəti ilə də əlaqələrimizin genişləndiyini bildirərək, Milli Məclisdə Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradıldığını diqqətə çatdırıb. Dövlət başçımızın Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatının toplantılarında yerinin daimi olduğunu dəfələrlə qeyd etdiyini vurğulayıb.

Parlamentlərarası münasibətlərin yüksək səviyyədə olduğunu deyən Əhliman Əmiraslanov hər iki ölkənin qanunverici orqanlarında fəaliyyət göstərən dostluq qrupları çərçivəsində, habelə parlamentlərin müvafiq komitə və komissiyaları arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdiyini, bununla yanaşı deputatlarımızın TÜRKPA tərkibində səmərəli fəaliyyət göstərdiyini söyləyib. O, parlament sədrləri arasında olan yaxın dostluq əlaqələrinin parlamentlərarası əməkdaşlığın inkişafında önəmli rol oynadığını bildirib.

Görüşdə Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri, Şimali Kipr Türk Cümhuriyyəti-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Ziya Öztürklər çıxış edərək Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin təməlini qoyduğu, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da güclənən müasir Azərbaycan dövlətinin inkişafından məmnunluğunu ifadə edib. O, ölkələrimizin ortaq tarixə, mədəniyyətə və ənənələrə malik olduğunu söyləyib. Dövlətlərarası münasibətlərin möhkəmlənməsində parlamentlərin əhəmiyyətli rolunu qeyd edib. Dost, müttəfiq və qardaş dövlətlərimizin həmrəliyinin vacibliyindən danışıb. Türk dünyasında həmrəyliyin möhkəmləndirilməsinin əhəmiyyətindən söhbət açan Ziya Öztürklər Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatında, habelə TÜRKPA-da təmsil olunmasının qurum ölkələri ilə daha səmərəli əlaqələrin qurulmasına imkan verəcəyini deyib. O, Şimali Kipr Türk Cümhuriyyətinin Türkiyə və Azərbaycan parlamentləri ilə mövcud olan uğurlu əməkdaşlığının bütün türk dövlətləri parlamentləri ilə də inkişaf etdirilməsinin vacibliyinə diqqət çəkib. Beynəlxalq əlaqələr çərçivəsində türk dövlətləri arasında ortaq xarici siyasət mexanizmlərinin gücləndirilməsindən söhbət açıb.

Üçtərəfli görüşdə çıxış edən Milli Məclisin Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev qrupun 2024-cü ildə yaradıldığını, ötən dövr ərzində parlamentlərimiz arasında sıx əlaqələrin olduğunu, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin baş tutduğunu bildirib. O, məqsədin ölkələrimiz arasında müxtəlif səviyyələrdə olan münasibətlərin intensivləşməsinə töhfə vermək olduğunu söyləyib. İki ölkə arasında təhsil və turizm sahələrində əməkdaşlığın genişləndirilməsi, humanitar sahədə əlaqələrin gücləndirilməsi istiqamətində mühüm addımların atıldığını, ayrı-ayrı qurumların nümayəndələrinin görüşlərinin keçirildiyini, deputatlarımız arasında yaxşı münasibətlərin mövcud olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, bu əlaqələrin genişləndirilməsi Şimali Kipr Türk Cümhuriyyətinin türk dünyası çərçivəsində tanıdılmasına dəstək olmaqdan ibarətdir. Cavanşir Feyziyev bildirib ki, Azərbaycanda keçirilən bütün tədbirlərdə Şimali Kipr Türk Cümhuriyyəti təmsilçilərinin iştirakı təmin olunur.

Daha sonra tədbirdə Türkiyə Böyük Millət Məclisinin Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım çıxış edib. O, belə toplantıların önəmli olduğunu deyib. Türk dövlətləri arasında təhsil, enerji, təhlükəsizlik, mədəni sahələrdə əlaqələrin genişləndirilməsindən söz açıb. Milli Məclisdə Azərbaycan-Şimali Kipr Türk Cümhüriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradılmasının əhəmiyyətindən danışıb.

Şamil Ayrım regional məsələlərin bölgə ölkələrinin iradəsi ilə həll olunduğunu söyləyib. O, Azərbaycanla Ermənistan arasında sülh müzakirələrini yaxından izlədiklərini deyərək, Türkiyənin Azərbaycanın istəmədiyi heç bir münasibətlərdə olmayacağını, bu ölkə ilə sərhədlərin açılmasının məsələnin tamamilə həllindən sonra mümkün olacağını bildirib.

Türkiyəli millət vəkili öz çıxışında Azərbaycan və Türkiyə parlamentləri arasında səmərəli əməkdaşlığın həm regional, həm də türk dünyasında strateji əhəmiyyət daşıdığını qeyd edib. O, Prezident İlham Əliyevin "Bizim ailəmiz türk dünyasıdır, başqa ailəmiz yoxdur" fikrinin önəmini vurğulayaraq, türk dünyası ölkələri arasında bütün sahələrdə əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində birgə səylərin vacibliyindən danışıb.

Tədbirdə Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Türkiyə ilə parlamentlərarası dostluq qrupunun rəhbəri Resmiye Eroğlu Canaltay, Türkiyə Böyük Millət Məclisinin Şimali Kipr Türk Cümhuriyyəti ilə parlamentlərarası dostluq qrupunun rəhbəri Orhan Erdem, hər üç ölkənin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri, Milli Məclisin komitə sədri Polad Bülbüloğlu , deputatlar Jalə Əliyeva, İsmayıl Özdemir, Cantürk Alagöz, Semra Dinçer, Kemal Çelik, Uğur Bayraktutan, Vüqar İsgəndərov, Fırtına Karanfil çıxış edərək bu kimi üçtərəfli görüşlərin parlamentlərarası münasibətlərin inkişafına verdiyi mühüm töhfələrdən bəhs ediblər.

Çıxışlarda vurğulanıb ki, bu formatda keçirilən iclaslar qarşılıqlı anlaşmanın dərinləşdirilməsinə, ortaq dəyərlər əsasında əməkdaşlığın genişləndirilməsinə və üç qardaş dövlət arasında siyasi dialoqun daha da gücləndirilməsinə xidmət edir. Bununla belə, deputatlar üç dövlət arasında əlaqələrin perspektivləri, birgə təşəbbüslər və gələcək əməkdaşlıq imkanları barədə fikirlərini bölüşüblər.

İclasa yekun vuran Əhliman Əmiraslanov görüşün konstruktiv və səmərəli şəraitdə keçdiyini vurğulayıb, bu kimi tədbirlərin parlamentlərarası əlaqələrin möhkəmləndirilməsində, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsində və əməkdaşlığın daha da dərinləşdirilməsində mühüm rol oynadığını bildirib.

Tədbirdə Milli Məclisin komitə sədrləri Arzu Nağıyev, Musa Quliyev, komissiya sədrləri Eldar İbrahimov, Eldar Quliyev, deputatlar Fatma Yıldırım, Razi Nurullayev, Ağalar Vəliyev, Cavanşir Paşazadə, Hikmət Məmmədov, Səttar Möhbalıyev, Anar Məmmədov, Türkiyə Böyük Millət Məclisinin deputatları Ahmet Erbaş, Türker Yener və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Üçtərəfli formatda əməkdaşlıq ortaq maraqların müdafiəsinə xidmət edir

Aprelin 9 -da Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti və Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərinin dostluq qruplarının 3-cü iclasının iştirakçıları ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Sədri, Şimali Kipr Türk Cümhuriyyəti-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Ziya Öztürklər və Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın rəhbərlik etdikləri nümayəndə heyətlərini salamlayan spiker Sahibə Qafarova Prezident İlham Əliyevin "Bizim ailəmiz türk dünyasıdır" fikrini xatırladaraq deyib ki, ölkələrimiz və xalqlarımız arasında olan münasibətlərin daha da gücləndirilməsinə yönəlmiş addımlar dövlət başçımızın bu fikrini əks etdirir.

Söhbət zamanı vurğulanıb ki, bu münasibətlər xalqlarımızın təmsilçiləri olaraq, parlamentlər səviyyəsində də uğurla davam etdirilir və qanunvericilik orqanlarımızın həm ikitərəfli əsasda, həm də üçtərəfli formatda əməkdaşlıq etdikləri qeyd olunub. Bu mənada Azərbaycan-Türkiyə-Şimali Kipr parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üçtərəfli formatının əhəmiyyəti vurğulanaraq, bu əməkdaşlıq formatı çərçivəsində keçirilən mütəmadi görüşlərin parlamentlərarası əməkdaşlığın inkişafına, ortaq maraqların müdafiəsinə və həmrəyliyin gücləndirilməsinə xidmət etdiyi diqqətə çatdırılıb. Spiker Sahibə Qafarova qeyd edib ki, üçtərəfli format çərçivəsində iki gün ərzində Bakıda aparılacaq müzakirələr parlamentlərimiz arasında əməkdaşlığın daha da dərinləşməsinə töhfə verəcək.

Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Sədri Ziya Öztürklər Azərbaycanın Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi həmrəyliyə, dostluğa, qardaşlığa və dəstəyə görə təşəkkürlərini bildirərək, Azərbaycan Respublikasının Milli Məclisində Şimali Kipr ilə dostluq qrupunun yaradılmasını vacib addım kimi dəyərləndirib.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım dost və qardaş ölkələrimiz arasında münasibətlərin parlament müstəvisində də davam etdirilməsinin vacibliyini bildirərək, üçtərəfli formatda əlaqələrin daha da gənşləndirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# TDT çərçivəsində əməkdaşlıq alternativ beynəlxalq marşrutların formalaşmasını sürətləndirir

"Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr arasında son illərdə müşahidə olunan siyasi və iqtisadi yaxınlaşma yeni beynəlxalq nəqliyyat və ticarət marşrutlarının formalaşmasına mühüm zəmin yaradır".

Bu fikirləri AZƏRTAC-a açıqlaması zamanı türkiyəli siyasi ekspert Cafer Dal bildirib. Ekspert qeyd edib ki, qlobal geosiyasi proseslər, xüsusilə beynəlxalq ticarət marşrutlarında yaranan qeyri-müəyyənliklər və regional risklər alternativ nəqliyyat dəhlizlərinə marağı əhəmiyyətli dərəcədə artırıb. Onun sözlərinə görə, TDT-yə üzv ölkələr - Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan və Qırğızıstan - bu baxımdan yalnız coğrafi üstünlüklərə deyil, həm də artan siyasi koordinasiyaya malikdirlər.

"Bu gün dünyada təchizat zəncirlərinin şaxələndirilməsi prioritet məsələdir. TDT məkanında yerləşən ölkələr isə Avrasiya xəritəsində Şərq ilə Qərbi birləşdirən ən optimal körpü rolunu oynayır. Bu isə alternativ marşrutların inkişafını qaçılmaz edir. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) yalnız regional layihə deyil, qlobal logistika sisteminin ayrılmaz hissəsinə çevrilməkdədir. Çinlə Avropa arasında yük daşımalarında vaxtın əhəmiyyətli dərəcədə azalması, təhlükəsizlik və sabitlik baxımından üstünlüklər Orta dəhlizi digər marşrutlarla müqayisədə daha cəlbedici edir. Alternativ marşrutların inkişafı təkcə məsafənin qısaldılması ilə məhdudlaşmır. Burada əsas amillərdən biri də siyasi sabitlik, tranzit ölkələr arasında etibarlı tərəfdaşlıq və vahid logistika siyasətinin formalaşdırılmasıdır. TDT bu baxımdan mühüm platforma rolunu oynayır", - deyə ekspert əlavə edib.

Cafer Dalın fikrincə, son dövrlərdə həyata keçirilən iri infrastruktur layihələri bu prosesə ciddi təkan verib. Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, həmçinin Qazaxıstan və Türkmənistan limanlarının modernləşdirilməsi Orta dəhlizin ötürücülük qabiliyyətini artırır: "Bununla yanaşı, rəqəmsal gömrük sistemlərinin tətbiqi və "vahid pəncərə" mexanizmlərinin genişləndirilməsi tranzit müddətlərinin azalmasına xidmət edir. TDT ölkələri arasında iqtisadi əməkdaşlığın dərinləşməsi yalnız nəqliyyat sahəsi ilə məhdudlaşmır. Enerji, rəqəmsal iqtisadiyyat, "yaşıl texnologiya"lar və logistika xidmətləri kimi sahələrdə inteqrasiyanın güclənməsi alternativ marşrutların dayanıqlığını daha da artırır. Xüsusilə "yaşıl nəqliyyat" konsepsiyasının tətbiqi və karbon emissiyalarının azaldılması istiqamətində birgə təşəbbüslər gələcək perspektivlər üçün mühüm əhəmiyyət kəsb edir. Avropa İttifaqı, Çin və digər böyük iqtisadi mərkəzlərin Orta dəhlizə artan marağı TDT ölkələrinin strateji əhəmiyyətini daha da yüksəldir. Bu isə üzv dövlətlər qarşısında həm yeni imkanlar, həm də əlavə məsuliyyətlər yaradır", - deyə ekspert bildirib.

Cafer Dalın sözlərinə görə, qarşıdakı dövrdə əsas prioritetlərdən biri nəqliyyat infrastrukturunun daha da modernləşdirilməsi, logistika xərclərinin azaldılması və tranzit prosedurlarının harmonizasiyası olacaq. Eyni zamanda region ölkələri arasında siyasi dialoqun gücləndirilməsi və hüquqi bazanın təkmilləşdirilməsi alternativ marşrutların səmərəliliyini artıracaq.



# Sülh, humanizm və mehriban qonşuluq siyasəti

**Regional gərginliklərin azaldılmasına hədəflənən addımlar ölkəmizin xarici siyasət kursunda başlıca yerlərdən birini tutur. O da danılmaz faktdır ki, dünyada sabitliyin ən mühüm şərti münaqişələrin dialoq yolu ilə həllidir. Bu baxımdan Amerika Birləşmiş Ştatları və qonşu İran İslam Respublikası arasında elan olunmuş atəşkəs razılaşması Azərbaycan tərəfindən yüksək qiymətləndirilir və alqışlanır. Ölkəmiz əldə olunmuş bu atəşkəsi gərginliyin azalması ilə yanaşı, regionun hərtərəfli inkişafı üçün yeni mərhələ kimi dəyərləndirir.**

### Atəşkəs alqışlanıb

Aprelin 8-də Prezident İlham Əliyev ilə İran Prezidenti Məsud Pezeşkian arasında baş tutan telefon danışığı ölkəmizin mehriban qonşuluq siyasətinə sadiqliyinin bariz nümunəsidir. Dövlətimizin başçısı İran İslam Respublikası və Amerika Birləşmiş Ştatları arasında elan edilmiş atəşkəslə bağlı təbriklərini çatdırıb. Məsud Pezeşkian bu təbriklərə və ölkəmizin İrana göstərdiyi humanitar yardıma görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Telefon söhbəti zamanı ikitərəfli əməkdaşlığa dair məsələlər barədə fikir mübadiləsi aparılıb.

ABŞ-İran arasında sülh gündəminin detalları eyni gündə xarici işlər nazirləri səviyyəsində də müzakirə olunub. Belə ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı baş tutub. Telefon danışığı zamanı tərəflər regionda mövcud təhlükəsizlik vəziyyəti və əldə olunmuş atəşkəs barədə fikir mübadiləsi aparıblar.

Ceyhun Bayramov elan olunmuş atəşkəsi alqışlayıb. Atəşkəsin təmin olunmasının gərginliyin azaldılması, danışıqların uğurla nəticələnməsi və sabitliyin bərqərar olunması baxımından əhəmiyyəti vurğulanıb. Atəşkəsin əldə olunmasında vasitəçi ölkələrin, xüsusilə də dost və qardaş Pakistanın rolu təqdir olunub.

C.Bayramov atəşkəs rejiminə riayət olunmasının vacibliyini qeyd edərək, vəziyyətin diplomatik yollarla həllinin önəmini diqqətə çatdırıb, İslamabadda aparılacaq danışıqların nəticəyönümlü və məhsuldar olacağına ümidini bildirib.

Azərbaycanın hər zaman regionda davamlı sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş təşəbbüsləri dəstəkləməyə hazır olduğu Ceyhun Bayramov tərəfindən vurğulanıb.

Ərazilərinin işğalına son qoyulmasından sonra ölkəmizin regionda yaratdığı yeni reallıq qarşılıqlı hörmət və dinc yanaşı yaşama prinsipləri üzərində qurulub. Azərbaycanın irəli sürdüyü sülh gündəmi Cənubi Qafqazla yanaşı, geniş coğrafiyada sabitliyin bərqərar olmasına xidmət edir. Beynəlxalq münasibətlər sistemində hər zaman sülhün və ədalətin tərəfdarı kimi çıxış edən ölkəmiz yürütdüyü müstəqil və balanslaşdırılmış siyasəti ilə diqqət çəkir. Təsadüfi deyil ki, Azərbaycan Donald Trampın təsis etdiyi Sülh Şurasının təsisçi üzvlərindən biridir. Bu isə onun qlobal barışa xidmət etməsinə ən bariz nümunələrdəndir. Qonşu İranda cərəyan edən hadisələrin sülh yolu ilə həllinə tərəfdar olduğunu bəyan etməsi, tərəfləri daim dialoqa səsləməsi də buna nümunədir.

### Rifah və dialoqun tərəfdarı

Ümumiyyyətlə, rəsmi Bakı hər zaman gərginliyin, qarşıdurmanın deyil, dialoqun, rifahın tərəfdarı olaraq çıxış edir. Qonşuları ilə münasibətlərdə suverenliyə hörmət və daxili işlərə qarışmama prinsiplərinə sadiqlik göstərir.

Onu da vurğulayaq ki, İranla mehriban qonşuluq əlaqələrinə malik Azərbaycan ABŞ ilə səmimi dostluğa dayanan strateji tərəfdaşlıq qurub. Buna görə də adıçəkilən ölkələr arasında hərbi qarşıdurma Bakı üçün arzuolunan deyil və tərəflərin ortaq məxrəcə gəlmələri istiqamətində daim səylər nümayiş etdirilib. Hətta bu prosesdə Azərbaycanın uğurlu vasitəçiliyi də təklif olunub.

Cari il yanvarın 31-də Prezident İlham Əliyev İran Prezidenti Məsud Pezeşkiana zəng edən zaman dövlətimizin başçısı bölgədə yaranmış vəziyyətin narahatlıq doğurduğunu ifadə edərək Azərbaycanın gərginliyin aradan qaldırılmasına töhfə verməyə hazır olduğunu bildirib və ölkəmizin bu kimi məsələlərin danışıqlar və qarşılıqlı anlaşma yolu ilə həllinin tərəfdarı olduğunu vurğulayıb.

Həmçinin bu il martın 1-də Prezident İlham Əliyevin İran Prezidenti Məsud Pezeşkiana ünvanladığı məktubda dost İran xalqının üzüntüsü dərindən paylaşılıb. Ölkəmizin rəhbəri vurğulayıb ki, bu çətin gündə dost və qardaş İran xalqına sülh, sabitlik və əmin-amanlıq arzulayırıq. Bu məktub ölkəmizin gərginliyin deyil, rifahın tərəfdarı olduğunun növbəti təsdiqidir.

Bu gün Azərbaycan regionda əsl "təhlükəsizlik adası"na çevrilib. İranda yaranmış mürəkkəb vəziyyətlə əlaqədar xarici ölkə vətəndaşlarının təxliyə üçün məhz Azərbaycanı seçməsi təsadüfi deyildi. Çünki həmin əcnəbi vətəndaşlar əmin idilər ki, humanizm dəyərlərinin yüksək şəkildə təşəkkül tapdığı Azərbaycan təxliyə üçün ən təhlükəsiz ölkədir. Azərbaycan dövləti humanitar prinsipləri rəhbər tutaraq həmin şəxslərin təxliyəsi üçün lazımi şərait yaratdı. Əksər dövlətlər vətəndaşlarının rahat təxliyəsi üçün şərait yaradıldığına, ölkəmizdə onlara göstərilən həssas diqqət və qayğıya görə Azərbaycana səmimi minnətdarlıqlarını çatdırdılar.

Azərbaycanın xarici siyasət kursu həm də dərin humanizm prinsiplərinə əsaslanır. Ölkəmiz çətin günlərdə dost və qonşu xalqlara yardım etməyi, humanitar dəstək göstərməyi özünün mənəvi borcu sayır.

Ölkəmiz İrana da çətin gündə yardım əlini uzadan ilk dövlətlərdən biri oldu. Təkcə bu ayın 4-də qonşu və dost İran xalqının hazırkı ehtiyaclarının təmin edilməsi məqsədilə bu ölkəyə növbəti humanitar yardım yola salınıb. Göndərilən yardıma ümumi həcmi 200 ton olan müxtəlif adda ərzaq məhsulları, dərman vasitələri və tibbi ləvazimatlar daxildir. Bu addım Azərbaycanın regionda sülh, mehriban qonşuluq və humanitar həmrəylik tərəfdarı olduğunu bir daha nümayiş etdirir.

Azərbaycan bütün dövlətlərlə normal və bərabərhüquqlu əlaqələrin qurulmasının tərəfdarıdır. Bu istiqamətdə də xarici siyasətimiz uğurla davam etdirilir. Hər zaman bu prinsipə sadiqlik göstərən ölkəmiz məhz bunun sayəsində dünyada etibarlı tərəfdaş kimi tanınır. İranla da mehriban qonşuluq siyasətinin qarşılıqlı olaraq davam etdirilməsi hər iki dövlətin maraqlarına cavab verir. Bu həm də bütövlükdə regionun hərtərəfli inkişafı üçün faydalıdır.

Göründüyü kimi, Azərbaycan sabitliyin və təhlükəsizliyin qarantını qarşıdurmada deyil, sabitlik və sülhdə görür.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Daxili işlər naziri Vilayət Eyvazov türkiyəli həmkarı ilə görüşüb

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Türkiyə Respublikasının daxili işlər naziri Mustafa Çiftçi və onun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.



Aprelin 9-da nazir Mustafa Çiftçi və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar. Sonra qardaş ölkənin təmsilçiləri Şəhidlər xiyabanındakı "Əbədi məşəl" kompleksini və Türk Şəhidliyini ziyarət ediblər.

Həmin gün Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov türkiyəli həmkarı və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Qonaqları salamlayan V.Eyvazov daxili işlər naziri vəzifəsinə təyin olunması münasibətilə cənab M.Çiftçini təbrik edib, dəvətini qəbul edərək rəsmi səfərə gəldiyinə görə təşəkkürünü bildirib.

O, iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu məmnunluqla vurğulayaraq rəhbərlik etdiyi Daxili İşlər Nazirliyinin qardaş ölkənin hüquq-mühafizə orqanları ilə əlaqələrin, o cümlədən beynəlxalq əməkdaşlığın intensiv inkişafına daim önəm verdiyini qeyd edib. Bu əlaqələrin ilk növbədə qarşılıqlı hüquqi yardım, təcrübə mübadiləsi, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə dövlətlərarası müqavilələr əsasında reallaşdığı nəzərə çatdırılıb.

Nazir V.Eyvazov Azərbaycan polisinin və DİN-in Daxili Qoşunlarının respublikada ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə əldə etdiyi müsbət nəticələri də diqqətə çatdıraraq fəaliyyətin təkmilləşdirilməsində Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin xüsusi rolunu və xidmətlərini məmnunluqla vurğulayıb, Mustafa Çiftçinin şəxsində Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin rəhbərliyinə təşəkkür edib.

V.Eyvazov Mustafa Çiftçinin Azərbaycana ilk rəsmi səfərinin əlaqələrimizin inkişafına və dərinləşməsinə müsbət təsir göstərəcəyinə əmin olduğunu bildirib.

Səmimi qəbula, ətraflı məlumata və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Türkiyənin daxili işlər naziri respublikamıza səfərindən, dost və qardaş ölkələrimizin bölgədə əmin-amanlığa və sabitliyin yaradılmasına ciddi əngəl olan qlobal problemlərə, o cümlədən mütəşəkkil cinayətkarlığın bütün təzahürlərinə qarşı hər zaman vahid mövqedən və birgə səylərlə çıxış etmələrindən, Azərbaycanın sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlikdən, Bakının dünyanın ən gözəl paytaxtlarından və təhlükəsiz şəhərlərindən biri olmasından məmnunluğunu ifadə edib.

O, iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, əlaqələrin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, belə əməkdaşlığın, təcrübə mübadiləsinin xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

Görüşdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Birol Akgün iştirak edib.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Litva Respublikasının Baş naziri Bakıda şəhidlərin xatirəsini anıb



Azərbaycanda rəsmi səfərdə olan Litva Respublikasının Baş naziri İnqa Ruqiniene aprelin 9-da Şəhidlər xiyabanını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçərək şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramını bildirib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Daha sonra Azərbaycan paytaxtının mənzərəsini seyr edən Baş nazirə Şəhidlər xiyabanının tarixi, bu məkanın xalqımızın yaddaşında tutduğu xüsusi yer və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Pakistanın ABŞ ilə İran arasında atəşkəsin əldə olunması istiqamətində oynadığı rol təqdir olunub





Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Pakistan İslam Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar arasında telefon danışığı aparılıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı tərəflər regionda mövcud təhlükəsizlik vəziyyətini müzakirə ediblər.

Ceyhun Bayramov ABŞ ilə İran arasında əldə olunmuş atəşkəsi alqışlayaraq, bunun gərginliyin azaldılması, sabitliyin möhkəmləndirilməsi və humanitar vəziyyətin yaxşılaşdırılması baxımından mühüm addım olduğunu vurğulayıb.

Dost və qardaş Pakistan tərəfinin atəşkəsin əldə olunması istiqamətində oynadığı mühüm rol xüsusilə təqdir olunub. Pakistana bölgədə sülhün və sabitliyin təşviqi, tərəflər arasında dialoqun qurulması və etimadın möhkəmləndirilməsi istiqamətində göstərdiyi səylərdə, habelə qarşıdan gələn İslamabad danışıqlarında uğurlar arzulanıb. İslamabad danışıqlarının müsbət nəticələnəcəyinə ümid ifadə olunub.

Ceyhun Bayramov Pakistanın ardıcıl və prinsipial mövqeyini, habelə konstruktiv təşəbbüslərini yüksək qiymətləndirib.

Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıb və Azərbaycan-Pakistan tərəfdaşlığının inkişaf perspektivlərini müzakirə ediblər.

# Litvanın Baş naziri Milli Xalça Muzeyini ziyarət edib





Litvanın Baş naziri İnqa Ruqiniene aprelin 9-da Azərbaycan Milli Xalça Muzeyi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, qonağa Azərbaycan xalçaçılıq sənəti haqqında məlumat verilib. Bildirilib ki, Azərbaycan bu sahədə dünyanın aparıcı ölkələrindən biridir. 2010-cu ildə Azərbaycanın ənənəvi xalçaçılıq sənəti UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.

Qeyd olunub ki, Azərbaycan xalçaçılıq sənətinin əsas bədii istiqamətlərini əks etdirən muzeyin kolleksiyası nadir gözəlliyin, istifadə olunan materialların, toxuma texnikasının, xalçalara məxsus zərif və dərin bədii xüsusiyyətlərin harmoniyasını nümayiş etdirir.

Diqqətə çatdırılıb ki, tətbiqi sənətin nadir nümunələrinin toplandığı Azərbaycan Xalça Muzeyi ayrı-ayrı dövrlərdə müxtəlif ünvanlarda yerləşib. Ölkəmizin nadir incilərindən olan xalçaların daha geniş və səmərəli nümayişi məqsədilə Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən muzey üçün xüsusi bina tikilməsi qərara alınıb və 2008-ci il mayın 15-də Dənizkənarı Milli Parkın ərazisində binanın təməlqoyma mərasimi keçirilib.

Vurğulanıb ki, orijinal üslubda inşa olunan bina bükülmüş xalçanı xatırladır. Burada xalça və xalça məmulatları, metal, parça, geyim və tikmə, keramika, şüşə, ağac, kağız, zərgərlik əşyaları, kitablar, fotoşəkillərdən ibarət nadir kolleksiya mühafizə olunur və



bu kolleksiyanın tamaşaçılara təqdimatı üçün ideal şərait yaradılıb.

Muzeyin "qızıl fondu"nu xovlu xalçalar təşkil edir. Onlar bütün kompozisiyaları ilə Azərbaycanın 7 əsas məktəbini - Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbriz xalça məktəblərini təmsil edir.

Qeyd olunub ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük zəhməti sayəsində milli xalçaçılıq sənəti 2010-cu il noyabrın 16-da UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib.

Qonaq həmçinin muzeydə xalçatoxuma prosesi ilə yaxından tanış olub. Litvanın Baş naziri İnqa Ruqinieneyə həmçinin Azərbaycanın milli geyimləri və qədim kəlağayı sənəti haqqında məlumat verilib. Litvalı Baş nazir kəlağayının hazırlanma üsulu, onun üzərindəki ənənəvi naxışların daşıdığı mənalar barədə ətraflı məlumatlandırılıb.

Qonağa burada nümayiş olunan "Zəfər" xalçası haqqında ətraflı məlumat verilib. Bildirilib ki, bu xalça Azərbaycan Milli Xalça Muzeyində 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Qələbəyə həsr olunub.

Daha sonra qonaq muzeyin Qarabağ interyeri ilə tanış olub.

Sonda Litvanın Baş naziri muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

**Son onilliklər milli aviasiyamız da böyük uğurlar qazanıb. Beynəlxalq standartlara uyğunlaşma, modern hava limanları şəbəkəsi və təhlükəsizlik sahəsində böyük nailiyyətlər əldə edilib. "Azərbaycan Hava Yolları" (AZAL) yüksək təhlükəsizlik standartları ilə beynəlxalq reyslər həyata keçirir. Yeni hava limanlarının inşası mühüm əhəmiyyət kəsb edir.**

Bakı, Naxçıvan, Gəncə, Lənkəran, Zaqatala, Qəbələ, Füzuli, Laçın, Zəngilan müasir hava limanlarının inşası və ya yenidən qurulması, beynəlxalq standartlara cavab verən uçuş-enmə zolaqlarının yaradılması son illərin bu sahədəki önəmli hadisələridir.



# Yeni təlim mərkəzində mülki aviasiyamız üçün yüksəkixtisaslı kadrlar hazırlanacaq

Sahə üçün kadrların hazırlanması isə Milli Aviasiya Akademiyasının üzərinə düşür. Akademiya Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) və aparıcı xarici aviasiya təhsil müəssisələri ilə sıx əməkdaşlıq edərək təhsilin beynəlxalq səviyyəyə çatdırılmasını təmin edir. Milli Aviasiya Akademiyasında açılan yeni Beynəlxalq Təlim Mərkəzi bu istiqamətdə atılan növbəti mühüm addımdır. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mərkəzin açılışında iştirak etməsi hadisənin önəminə bir daha diqqət çəkir.

Əvvəla xatırladaq ki, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Milli Aviasiya Akademiyası 1992-ci ildə "Milli Aviasiya Mərkəzi" kimi yaradılıb. 1994-cü ildə "Milli Aviasiya Mərkəzi" Milli Aviasiya Akademiyası adlandırılıb. 1996-cı ildən etibarən Milli Aviasiya Akademiyasına Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü Arif Paşayev rəhbərlik edir.

Milli Aviasiya Akademiyası bu gün Azərbaycanın strateji əhəmiyyətə malik aerokosmik sahəsini, o cümlədən mülki aviasiyanı və bir sıra digər sahələri beynəlxalq tələblərə cavab verən yüksəkixtisaslı mütəxəssislərlə təmin edən ali təhsil müəssisəsidir. Akademiyada ali təhsil pillələri tələbələrə ixtisaslaşmış bilik, analitik düşüncə və tədqiqat bacarıqları qazandıraraq, onları əmək bazarının tələblərinə uyğun peşəkarlar kimi yetişdirməyi hədəfləyir.

Yeni mərkəz AZAL-ın təşəbbüsü ilə məhz akademiyanın ərazisində yaradılıb. Bu, uçuş heyətinin fövqəladə vəziyyətlər üzrə hazırlığı, həmçinin hava hərəkətini idarəetmə dispetçerlərinin nəzəri və praktiki təlimi üçün nəzərdə tutulan bir mərkəzdir. Burada Beynəlxalq Mülki Aviasiya Təşkilatının və Avropa İttifaqı Aviasiya Təhlükəsizliyi Agentliyinin (EASA) tələblərinə uyğun olaraq "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin dispetçerləri hazırlanacaq. Bunun üçün dünyanın qabaqcıl aeronaviqasiya təhsil mərkəzlərindən olan Alman Aeronaviqasiya Akademiyasının (DFS) təhsil proqramı əsasında Aeronaviqasiya Təlim Mərkəzi fəaliyyət göstərəcək.

Yeni təlim infrastrukturu regionda aviasiya sahəsində kadr hazırlığının, həmçinin beynəlxalq standartlara uyğun tədris imkanlarının gücləndirilməsinə, bu sahədə rəqabətqabiliyyətli milli kadr potensialının formalaşmasına mühüm töhfə verəcək. Beynəlxalq Təlim Mərkəzində hər il hava hərəkətini idarəetmə üzrə təxminən 30 dispetçerin və 3 min hava gəmisi heyətinin hazırlanması planlaşdırılır.

Mərkəzdə quraşdırılmış sistemlər dispetçerlərin real əməliyyat şəraitində hazırlanması üçün şərait yaradır. Belə ki, burada Heydər Əliyev Beynəlxalq Hava Limanının 360 dərəcə panoramını əks etdirən TWR qüllə simulyatoru, həmçinin hava məkanının idarə edilməsi üzrə radar simulyator kompleksi quraşdırılıb. Bu sistemlər dispetçerlərin real əməliyyat şəraitində hazırlanmasına imkan verir.

Mərkəzdə eləcə də hava limanlarında real iş şəraitinə uyğun müxtəlif xüsusi avtonəqliyyat vasitələri sürücülərinin bacarıqlarının təkmilləşdirilməsi məqsədilə müasir təlim trenajoru kompleksi quraşdırılıb.

Bundan əlavə, mərkəz fövqəladə vəziyyətlərdə və müxtəlif qəza hallarında hava gəmisi kabininin daxilində təhlükəsizlik tədbirlərinin səmərəli icrası üçün Türkiyənin bu sahədə ixtisaslaşmış və beynəlxalq səviyyədə tanınmış şirkəti olan "SkyArt" tərəfindən yeni nəsil hava gəmisi simulyatoru ilə təchiz edilib. Simulyatora "Boeing 787" təyyarəsi üzrə Qapı Təlim Qurğuları (Door Trainers), həmçinin real yanğın şəraitini simulyasiya edən yeni nəsil Yanğınsöndürmə Təlim Qurğuları (RFFT) daxildir.

Beləliklə, mərkəz müasir aviasiya sahəsinin tələblərinə uyğun olaraq, kadr hazırlığını həyata keçirən ixtisaslaşmış tədris strukturu kimi aviasiya mütəxəssislərinin nəzəri biliklərlə yanaşı, praktiki bacarıqlarının formalaşdırılmasında mühüm rol oynayacaq. Mərkəzin müasir texnologiyalarla təchiz olunması, burada son model uçuş simulyatorlarının quraşdırılması real uçuş şəraitinə yaxın mühitdə təcrübə qazanmağa imkan yaradır ki, bu da ümumilikdə uçuşların təhlükəsizliyinin təmin edilməsində müstəsna əhəmiyyət daşıyır.

Bütün bunlar Azərbaycanın mülki aviasiyasının həm regional, həm də beynəlxalq miqyasda nüfuzunu artırmaq, ölkəmizin logistika və turizm potensialını daim gücləndirmək məqsədi daşıyır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# TDT ölkələri arasında iqtisadi və siyasi əməkdaşlığın gücləndirilməsi strateji zərurətdir

"Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində üzv ölkələr arasında əməkdaşlığın dərinləşdirilməsi müasir geosiyasi reallıqlar fonunda xüsusi aktuallıq kəsb edir".

Bunu AZƏRTAC-a açıqlamasında türkiyəli siyasi ekspert və jurnalist Mustafa Söğüt bildirib.

Onun sözlərinə görə, son illər ərzində TDT platformasında iqtisadi inteqrasiyanın genişləndirilməsi istiqamətində mühüm addımlar atılıb. "Üzv dövlətlər arasında qarşılıqlı ticarətin artırılması üçün tarif və qeyri-tarif maneələrinin aradan qaldırılması, rəqəmsal gömrük sistemlərinin tətbiqi və logistika infrastrukturunun təkmilləşdirilməsi prioritet istiqamətlər kimi müəyyən olunub. Bu prosesdə xüsusilə Azərbaycan, Türkiyə, Qazaxıstan və Özbəkistan kimi ölkələrin fəallığı diqqət çəkir. Orta dəhlizin inkişafı TDT çərçivəsində iqtisadi əməkdaşlığın əsas sütunlarından birinə çevrilib. Bu dəhliz vasitəsilə Çin və Mərkəzi Asiyadan Avropaya uzanan yük axınlarının həcmi artmaqda davam edir. Xəzər dənizi üzərindən həyata keçirilən daşımalar, dəmir yolu və liman infrastrukturuna yatırılan investisiyalar regionun tranzit potensialını əhəmiyyətli dərəcədə yüksəldir. Bu isə TDT məkanını qlobal ticarət zəncirində mühüm halqaya çevirir. Enerji sahəsində əməkdaşlıq da xüsusi əhəmiyyət daşıyır. Zəngin enerji resurslarına malik olan üzv dövlətlər arasında koordinasiyalı siyasət həm enerji təhlükəsizliyinin təmin olunmasına, həm də ixrac imkanlarının genişləndirilməsinə xidmət edir. Xüsusilə Xəzər hövzəsi enerji layihələri və alternativ enerji sahəsində əməkdaşlıq gələcək dövr üçün yeni perspektivlər açır", - deyə o vurğulayıb.



Mustafa Söğüt bildirib ki, müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsi də diqqət mərkəzindədir: "Birgə hərbi təlimlər, təhlükəsizlik üzrə təcrübə mübadiləsi və terrorizm, transmilli cinayətkarlıq kimi təhdidlərə qarşı koordinasiyalı mübarizə regionda sabitliyin təmin olunmasına mühüm töhfə verir. Humanitar sahədə əməkdaşlıq isə uzunmüddətli inteqrasiyanın əsas dayaqlarından biridir. Təhsil, elm və mədəniyyət sahələrində ortaq layihələrin həyata keçirilməsi, tələbə mübadilə proqramlarının genişləndirilməsi və ortaq media platformalarının yaradılması türk dünyasında ortaq kimliyin daha da güclənməsinə xidmət edir. Bu baxımdan ortaq əlifba təşəbbüsləri və mədəni irsin qorunması istiqamətində atılan addımlar xüsusi qeyd olunmalıdır".

Siyasi ekspert bildirib ki, rəqəmsallaşma və innovasiya sahəsində əməkdaşlıq da yeni dövrün əsas çağırışlarından biridir. Süni intellekt, "ağıllı şəhər" konsepsiyaları, elektron hökumət sistemləri və startap ekosistemlərinin inkişafı üzrə təcrübə mübadiləsi TDT ölkələrinin qlobal rəqabət qabiliyyətini artırır.

"Eyni zamanda təşkilat daxilində maliyyə institutlarının yaradılması və ya mövcud mexanizmlərin gücləndirilməsi investisiya layihələrinin daha effektiv maliyyələşdirilməsinə imkan yaradır. Ortaq investisiya fondları və inkişaf banklarının fəaliyyəti regionda iri infrastruktur layihələrinin həyata keçirilməsini sürətləndirə bilər. TDT-yə üzv ölkələr arasında iqtisadi və siyasi əməkdaşlığın inkişaf etdirilməsi strateji xarakter daşıyır və bu prosesin davamlı şəkildə dərinləşdirilməsi böyük əhəmiyyət kəsb edir. Mövcud potensialın tam reallaşdırılması, qarşılıqlı etimadın gücləndirilməsi və ortaq maraqlar əsasında koordinasiyalı siyasətin həyata keçirilməsi türk dünyasını beynəlxalq münasibətlər sistemində daha güclü və təsirli aktora çevirəcəkdir", - deyə türkiyəli ekspert vurğulayıb.

# *Gürcü ekspert:* "Orta dəhliz həm Qərb, həm də Çin üçün mühüm əhəmiyyət kəsb edir"

"Orta dəhlizin inkişafı həm Gürcüstan, həm də Azərbaycan üçün böyük geosiyasi və geoiqtisadi əhəmiyyət kəsb edir. Yaxın Şərqdə mövcud olan münaqişə fonunda dəhlizin inkişafı bütün dünya üçün olduqca aktual xarakter alır. Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana səfəri də məhz bu baxımdan strateji əhəmiyyət daşıyır".



Bu sözləri AZƏRTAC-a açıqlamasında Gürcüstan Texniki Universitetinin professoru Valeri Modebadze söyləyib.

O bildirib ki, səfər çərçivəsində Orta dəhlizin inkişafı ilə bağlı mühüm bəyanatlar verilib: hər iki tərəf marşrutu Azərbaycan və Gürcüstandan keçən ən mühüm transkontinental arteriyalardan biri kimi qəbul edir. Bu da dəhlizin Avropa və Asiyanı birləşdirən əsas arteriyaya çevrilməsi üçün ötürücülük qabiliyyətinin artırılmasını zəruri edir. Dəhlizin inkişafı regional səviyyədə sıx əməkdaşlıq tələb edir. Heç bir ölkə infrastruktur problemlərini təkbaşına həll edə bilməz və kollektiv səylərə ehtiyac var. Yeni infrastruktur layihələri gələcəkdə dəhlizi daha səmərəli hala gətirəcək.

"Dünya Bankının proqnozuna görə, 2030-cu ilə qədər dəhlizin yük həcmi üç dəfə artırıla bilər ki, bu da birbaşa Gürcüstan və Azərbaycanın fiskal gəlirlərində əks olunacaq. Orta dəhliz "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə müqayisədə daha qısa marşrutdur və müvafiq infrastrukturun inkişafı halında iki qitəni - Avropa və Asiyanı bir-biri ilə daha sürətli birləşdirə bilər. O, "Şimal-Cənub" dəhlizindən 3000 kilometr daha qısadır və daşımaların tranzit müddətini əhəmiyyətli dərəcədə azalda bilər. Onun digər marşrutlarla müqayisədə müəyyən nisbi üstünlükləri də var. Orta dəhliz hələ inkişaf prosesindədir və Avropa ilə Asiya arasında əsas ticarət arteriyasına çevrilmək potensialına malikdir", - deyə V.Modebadze deyib.

Ekspertin sözlərinə görə, Qərb siyasi elitası, eləcə də Cənubi Qafqaz və Mərkəzi Asiya dövlətlərinin liderləri Trans-Xəzər dəhlizinin inkişafında olduqca maraqlıdırlar. Yaxın Şərqdə yaranmış mürəkkəb vəziyyət və Rusiya-Ukrayna müharibəsi fonunda Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun fəaliyyəti həm Qərb, həm də Çin üçün də mühüm əhəmiyyət kəsb edir. Bu dəhlizin infrastrukturu əsasən artıq mövcuddur, lakin Trans-Xəzər dəhlizinin ötürücülük qabiliyyətini yüksəltmək üçün gələcəkdə bir sıra tədbirlərin həyata keçirilməsi lazım olacaq: ilk növbədə yüklərin daha sürətli və səmərəli daşınması, sərhəddə maneələrin yaranmaması üçün Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri arasında koordinasiya və əməkdaşlığın gücləndirilməsi zəruridir. Bundan əlavə, qeyd olunan ölkələrin tarif sazişinə nail olmaları və vahid tariflər üzərində razılaşmaları vacibdir.

# Qlobal münaqişələr fonunda Azərbaycan reallığı

## Bu reallığın müəllifi İlham Əliyevdir

Bugünkü dünya tarixin ən dərin sarsıntılar dövrünü yaşayır. Geosiyasi qarşıdurmaların intensivləşməsi, regional münaqişələrin qlobal təhlükəsizlik sisteminə təsirinin artması və beynəlxalq hüququn selektiv tətbiqi XXI əsrin ciddi çağırışlarından birinə çevrilib. Planetin müxtəlif nöqtələrində baş verən müharibələr təkcə tərəfləri deyil, bütövlükdə dünya iqtisadiyyatını, enerji təhlükəsizliyini və humanitar mühiti sarsıdır. Belə mürəkkəb və qeyri-müəyyən şəraitdə hər hansı münaqişənin qısa müddətdə, qəti və siyasi nəticə ilə başa çatması nadir hadisə kimi qiymətləndirilir. Məhz bu baxımdan Azərbaycanın əldə etdiyi Zəfər təkcə regional deyil, həm də qlobal miqyasda xüsusi diqqətəlayiq nümunədir.

Son illərin geosiyasi mənzərəsi göstərir ki, müasir münaqişələr həm sürətli və qəti nəticələri, həm də uzunmüddətli və tükəndirici xarakteri ilə seçilir. Gözümüz önündə dağıdıcı və dəhşətli xarakteri və nəticələri ilə davam edən Rusiya-Ukrayna müharibəsi minlərlə insan itkisi, şəhərlərin viran qalması, iqtisadiyyatın zəifləməsi və infrastrukturun geniş miqyasda məhv edilməsi ilə müşayiət olunur. Savaşın ilk mərhələlərində qısa müddətdə yekunlaşacağına dair verilən proqnozlar özünü doğrultmadı və bu gün də onun nə vaxt hansı şərtlərlə başa çatacağı ilə bağlı perspektiv görünmür. Bu isə müasir müharibələrin qeyri-müəyyənlik və davamlı risk amili ilə xarakterizə olunduğunu bir daha təsdiqləyir.

Oxşar vəziyyət Yaxın Şərqdə də müşahidə olunur. Başlanğıcda lokal və qısamüddətli toqquşma kimi qiymətləndirilən İran-İsrail gərginliyi sonradan ABŞ faktorunun iştirakı ilə daha mürəkkəb və çoxşaxəli bir münaqişəyə çevrildi. 40 gün davam edən bu qarşıdurma yalnız hərbi müstəvidə deyil, həm də siyasi və iqtisadi müstəvidə ciddi təsirlər doğurdu. Atəşkəs elan olunsa da, onun hansı müddətə davam edəcəyinin qeyri-müəyyən qalması, tərəflər arasında etimadsızlığın davam etməsi və münaqişənin yenidən alovlanma ehtimalı qlobal sabitlik üçün ciddi risklər yaradır. Enerji bazarlarında dalğalanmalar, ticarət əlaqələrinin pozulması və investor etimadının azalması kimi amillər bu qarşıdurmanın təsir dairəsinin regional çərçivəni aşaraq dünya iqtisadiyyatına sirayət etdiyini açıq şəkildə nümayiş etdirir.

Dünyanın rənginin belə bir mürəkkəb çalarlarla qarışdığı zamanda Azərbaycanın 44 gün ərzində əldə etdiyi hərbi-siyasi Zəfər, sözün əsl mənasında, unikal presedent kimi özünü göstərir. İkinci Qarabağ müharibəsi təkcə ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmədi, eyni zamanda müasir müharibə konsepsiyalarının effektiv tətbiqinin parlaq nümunəsinə çevrildi. Bu qələbə təsadüfi deyildi, onun arxasında uzun illər ərzində formalaşan strateji yanaşma, siyasi iradə və hərbi hazırlıq dayanırdı.

Azərbaycanın qələbəsini şərtləndirən əsas amillərdən biri dövlət başçısının qətiyyətli və prinsipial siyasəti idi. Prezident İlham Əliyev tərəfindən yürüdülən məqsədyönlü siyasət nəticəsində ölkəmizin iqtisadi potensialı gücləndirildi, ordu quruculuğu prioritet istiqamətə çevrildi və beynəlxalq arenada Azərbaycanın mövqeləri möhkəmləndirildi. Prezidentin dəfələrlə vurğuladığı kimi, "Qarabağ Azərbaycandır!" tezisi, sadəcə, siyasi bəyanat deyildi, həm də milli iradənin ifadəsi və strateji hədəfin konkret formulası idi.

Bu qələbənin digər mühüm komponenti Azərbaycan Ordusunun peşəkarlığı və döyüş qabiliyyəti oldu. Müasir texnologiyaların tətbiqi, yüksək koordinasiya və taktiki çeviklik 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Azərbaycan əsgərinin göstərdiyi qəhrəmanlıq, fədakarlıq, vətənə bağlılıq isə bu qələbəni mənəvi baxımdan daha da ucaltdı. O səbəbdən bu, hərbi uğurla yanaşı, həmçinin milli ruhun təntənəsi idi.

Postmünaqişə reallıqlarını dəyərləndirərkən qeyd etməliyik ki, Azərbaycanın əldə etdiyi qələbə eyni zamanda beynəlxalq hüququn bərpası baxımından mühüm əhəmiyyət daşıyır. Məhz bu kontekstdə Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən səsləndirilən fikirlər qələbənin mahiyyətini dolğun şəkildə ifadə edir. Dövlətimizin başçısının vurğuladığı kimi, "Biz Qarabağı azad edərkən BMT-nin icra olunmamış 4 qətnaməsini təkbaşına icra etdik". Bu yanaşma Azərbaycanın öz gücünə əsaslanaraq beynəlxalq hüququn tələblərini təmin etməsi, illərlə kağız üzərində qalan qərarların real müstəviyə daşınması baxımından xüsusi əhəmiyyət kəsb edir və qələbəmizi həm hüquqi, həm də siyasi müstəvidə daha da legitimləşdirir.

2023-cü ildə həyata keçirilən antiterror əməliyyatı isə Azərbaycanın öz suverenliyini tam şəkildə təmin etmək istiqamətində növbəti qəti addımı oldu. Bu əməliyyatın qısa müddətdə və minimal itkilərlə nəticələnməsi bir daha göstərdi ki, Azərbaycan regionda yeni reallıqları diktə edən gücə malikdir.

Bütün bu reallıqların fonunda Azərbaycan modeli müasir münaqişələrin həlli üçün alternativ yanaşma kimi diqqət çəkir. Bu modelin əsas xüsusiyyətləri - güclü siyasi iradə, strateji səbir, müasir ordu quruculuğu, milli birlik və beynəlxalq hüquqa əsaslanan mövqedir. Elə onu digər münaqişələrdən fərqləndirən də bu xüsusiyyətlərdir. Ən vacib məqam isə odur ki, Azərbaycan öz məqsədinə çatmaq üçün həm diplomatik, həm də hərbi alətləri balanslı şəkildə istifadə etməyi bacardı.

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Azərbaycanın nümayiş etdirdiyi siyasi davranış modeli də müasir beynəlxalq münasibətlər sistemində nadir rast gəlinən praqmatik və uzaqgörən yanaşma kimi diqqəti cəlb edir. Müharibədən qalib çıxmasına baxmayaraq, Prezident İlham Əliyev Azərbaycanı klassik "qalib ölkə diktəsi" mövqeyində təqdim etmədi. Əksinə, dəfələrlə vurğuladı ki, ən böyük qələbə regionda davamlı sülhün və sabitliyin təmin olunmasıdır. Bu yanaşma Azərbaycanın strateji baxışında güc nümayişindən daha çox uzunmüddətli təhlükəsizlik və əməkdaşlıq mühitinin qurulmasına üstünlük verildiyini göstərdi.

Məhz bu kontekstdə Azərbaycanın Ermənistana ünvanladığı sülh təklifləri və normallaşma çağırışları xüsusi əhəmiyyət daşıyır. Rəsmi Bakı açıq bəyan etdi ki, münaqişə mərhələsi artıq arxada qalıb, regionun gələcəyi yalnız qarşılıqlı etimad və əməkdaşlıqdan asılıdır. Bu siyasətin praktik təzahürü kimi kommunikasiya xətlərinin açılması, o cümlədən nəqliyyat və dəmir yolu bağlantılarının bərpası istiqamətində atılan addımlar diqqət çəkir. Azərbaycanın bu istiqamətdə göstərdiyi təşəbbüslər, hətta Ermənistanla iqtisadi və ticarət əlaqələrinin bərpasına hazır olduğunu bildirməsi regionda yeni iqtisadi inteqrasiya mühitinin formalaşdırılmasına hesablanmış mühüm siyasi gediş kimi nəzərə alınmalıdır.

Nəticə etibarilə bu gün dünyanın müxtəlif bölgələrində uzanan və qeyri-müəyyən sonluğa malik münaqişələr fonunda Azərbaycanın əldə etdiyi qələbə yalnız regional uğur deyil, həm də qlobal dərs kimi qiymətləndirilməlidir. Bu dərs ondan ibarətdir ki, əgər dövlət güclü siyasi iradəyə, milli birliyə və düzgün strateji yanaşmaya sahibdirsə, ən mürəkkəb problemlərin belə qısa müddətdə və qəti həlli mümkündür.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# *Ziya ÖZTÜRKLƏR:* "Ortaq tariximiz, mədəniyyətimiz və köklü ənənələrimiz ən möhkəm dayağımızdır"

"Biz eyni millətin övladlarıyıq. Ortaq tariximiz, mədəniyyətimiz və köklü ənənələrimiz ən möhkəm dayağımızdır. Dostluq qruplarımız vasitəsilə parlamentlərimiz və ölkələrimiz arasındakı münasibətlərin daha institusional və səmərəli səviyyəyə yüksəldilməsi yalnız ikitərəfli əlaqələrimizi gücləndirməyəcək, eyni zamanda Ana Vətən Türkiyə və Can Azərbaycanın öncüllük etdiyi türk dünyasındakı həmrəyliyə mühüm töhfə verəcək".



AZƏRTAC xəbər verir ki, bu sözləri Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Sədri, Şimali Kipr Türk Cümhuriyyəti-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Ziya Öztürklər Azərbaycan, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının birgə görüşündəki çıxışı zamanı deyib. O bildirib ki, Şimali Kipr Türk Cümhuriyyəti bütün türk dünyası üçün Şərqi Aralıq dənizinə açılan bir qapı, eyni zamanda sülh və tarazlıq amilidir. Bu gün Yaxın Şərqdə baş verən hadisələr bu qiymətləndirmələrimizin nə qədər doğru olduğunu və dost, müttəfiq, qardaş dövlətlərin həmrəyliyinin nə qədər mühüm əhəmiyyət daşıdığını bir daha açıq şəkildə göstərib.

"Bu günə qədər hər zaman yanımızda olan Ana Vətənimiz Türkiyə və qardaş Azərbaycan parlamentləri ilə həyata keçirdiyimiz uğurlu əməkdaşlıqların və yaxın münasibətlərin bütün türk dövlətlərinin parlamentləri ilə də inkişaf etdirilməsinin vacib olduğuna inanırıq", - deyə Ziya Öztürklər qeyd edib.

# Azərbaycan tolerantlığın unikal ünvanıdır

ABŞ-nin Beynəlxalq Dini Azadlıq Komissiyasının (BDAK) "2026-cı il İllik Hesabatı"nda 2025-ci ildə Azərbaycanda dini vəziyyətə dair əsassız iddialar yer alıb. Hesabatda Azərbaycanda dini azadlığın pozulması və dini icmalara təzyiq göstərilməsi kimi halların olduğu ilə bağlı həqiqəti əks etdirməyən məlumatlar verilib.



BDAK-ın qərəzli hesabatı ilə əlaqədar Azərbaycandakı dini konfessiya rəhbərləri bəyanat yayıblar. Bəyanatda qeyd olunub ki, hesabatdakı iddialar ölkədəki reallıqlara uyğun gəlmir, əksinə, ölkəmizin daxildə və qlobal səviyyədə dini tolerantlığın təşviqi istiqamətində göstərdiyi əhəmiyyətli səyləri nəzərə alınmayıb. Bəyanatda bildirilib ki, ölkəmizdə guya dini azadlığın pozulması və dini icmalara təzyiq göstərilməsi kimi Azərbaycana qarşı əsassız iddialar müəyyən qrupların qərəzli lobbiçilik mövqeyini əks etdirir. "BDAK-ın bu yanaşması Prezident Donald Trampın hakimiyyətə qayıdışından sonra müxtəlif sahələr üzrə ikitərəfli münasibətlərin gücləndirilməsi və ötən ilin 8 avqustunda Vaşinqtonda onun tarixi rolu ilə Azərbaycan və Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsi fonunda xüsusilə məyusedicidir... Azərbaycan özünün əsrlərə dayanan müxtəliflik və multikulturalizm ənənəsi ilə fərqli mədəniyyətlər və dinlər arasında dialoqun, qarşılıqlı anlaşmanın və etimadın təşviqinə hər zaman sadiqdir. Azərbaycan Konstitusiyası ayrı-seçkiliyi açıq şəkildə qadağan edir və dinindən və etiqadından asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyini təmin edir. Bu hüquqi təminatlardan əlavə, Azərbaycan bütün vətəndaşlara dini, etnik və mədəni mənsubiyyətlərini qorumaq və daha da inkişaf etdirmək üçün şərait yaradır", - deyə bəyanatda qeyd olunub.

Milli Məclisin deputatı Ceyhun Məmmədov mövzu ilə bağlı qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycana qarşı qərəzli hesabatların hazırlanmasına son qoyulmalıdır: "Uzun illərdir Azərbaycanın daxili işinə qarışaraq, ölkəmizlə bağlı ədalətsiz hesabatlar hazırlanır və Azərbaycan bir sıra məsələlərdə ittiham olunur. Azərbaycan dünyanın ən tolerant və multikultural ölkələrindən biridir. Böyük dini mərkəzlərin rəhbərləri Azərbaycanla bağlı dəfələrlə müsbət fikirlərini bildiriblər. Eyni zamanda Azərbaycanda mövcud olan tolerantlığın, multikulturalizmin xaricə ixrac olunmasının mümkünlüyündən, önəmindən bəhs ediblər. Azərbaycanda müxtəlif dinlərdən olan xalqların birgəyaşayışı dünyanın, demək olar ki, heç bir yerində yoxdur. Azərbaycan sözün həqiqi mənasında tolerantlıq nümunəsidir".

Deputat diqqətə çatdırıb ki, Azərbaycanda istər müsəlmanlar, istər xristianlar, istərsə də yəhudilər və digərləri bir-birləri ilə sülh, əmin-amanlıq şəraitində yaşayırlar. Ölkəmizdə dini azadlığın pozulması, dini icmalara təzyiqlərin olması ilə bağlı yayılan məlumatların heç bir əsası yoxdur. Bu cür yanaşmalar bəzi lobbi qruplarının qərəzli mövqeyini əks etdirir. Azərbaycanda heç bir münaqişə, qarşıdurma yoxdur. Müxtəlif dinlərin nümayəndələri də ölkəmiz haqqında ən yüksək fikirlərini söyləyirlər.

Beynəlxalq Dini Azadlıq Komissiyası tərəfindən yayılan hesabatın qərəzli sənəd olduğunu deyən C.Məmmədov bu cür hesabatlara son qoymağın vacib olduğunu bildirib: "Əgər onlara dəqiq informasiya lazımdırsa, bu məlumatı biz də təqdim edə bilərik. Həmçinin gəlib müşahidə də edə bilərlər. Bu gün Azərbaycanla ABŞ arasında münasibətlər ən yüksək səviyyədədir. Ölkəmizə qarşı bu cür iddialar, ittihamlar ikitərəfli münasibətlərə də xələl gətirir. Eyni zamanda Azərbaycan həqiqətlərini də təhrif edir. Ona görə tövsiyə edirik ki, gəlsinlər, görsünlər və belə qərəzli münasibətə son qoysunlar".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# BEYNƏLXALQ HƏYAT

## Böyük güclərin "qarın davası"

### Müharibə insanları öldürməklə bitmir, onları aclıqla da sınağa çəkir



Hesablayıblar ki, keçmişdə dağıdıcı müharibələrdə döyüşlərdə ölənlərin sayı savaşların ucbatından yaranan aclıqdan ölənlərin sayından az olub. Xüsusilə müharibə edən tərəflərin "viran edilmiş torpaq" taktikası daha dəhşətli hallarla müşahidə edilib. Sonralar imperiyalar, dövlətlər, xalqlar problemlərini çox vaxt dinc yolla həll etməyə çalışsalar da, silahlarını da yerə qoymayıblar.

Müasir dövrdə Rusiya-Ukrayna müharibəsi də göstərdi ki, ərzaqla təminat dünyanın ən həssas problemidir. Dünyanın iri buğda ixracatçıları olan bu iki ölkənin aralarında olan ziddiyyət üzündən başladıqları savaş az qala böyük bir region üçün ərzaq qıtlığı ilə nəticələnəcəkdi. Məsələ o qədər ciddiləşmişdi ki, işə BMT qoşuldu, təhlükənin qarşısını almaq üçün hər iki tərəflə danışıqlar apardı.

BMT-nin Dünya Ərzaq Proqramı Təşkilatı həyəcan təbili çalaraq bildirir ki, dünyada ərzaq çatışmazlığı böhranı dərinləşə bilər. Aclıqla mübarizə aparan beynəlxalq humanitar təşkilatların hesablamalarına görə, ABŞ və İsrail-İran müharibəsi ilin ortalarına qədər davam etsəydi, 45 milyona yaxın insan kəskin ərzaq çatışmazlığı, 363 milyon nəfər normal qida təminatı ilə üzləşə bilərdi. Səbəbi sadədir: məlumdur ki, ərzaq (kənd təsərrüfatı) məhsullarını yetişdirməkdə yanacaq və gübrə önəmli rol oynayır. Həmin məhsulları ixrac edənlərin çoxu isə körfəz ölkələridir. Sözügedən müharibə başlayandan dünyada ərzaq qiymətləri bahalaşmağa başlamışdı. Qiymət bahalaşanda isə ilk növbədə alıcılıq qabiliyyəti aşağı olan insanlar əziyyət çəkirlər. Dünya Ərzaq Proqramı mütəxəssislərinin hesablamalarına görə, Afrika qitəsində belə insanlar, o cümlədən uşaqlar daha çoxdur. O üzdən əgər ABŞ və İsrail-İran savaşı yenidən alovlanarsa, Afrikada aclıqla üzləşən insanların sayının əlavə olaraq 20 faiz artacağı qaçılmaz olacaq.

Bu günlər BMT Kənd Təsərrüfatı və Ərzaq Təşkilatı (FAO) mart ayı üzrə qlobal ərzaq qiymətləri indeksindəki dəyişiklikləri açıqlayıb. Açıqlamaya görə, Qlobal Ərzaq Qiymətləri İndeksi mart ayında orta hesabla 128,5 bənd təşkil edib ki, bu da yenidən işlənmiş fevral səviyyəsindən 3 bənd (2,4 faiz) yüksəkdir. Bu artımlar ardıcıl ikinci aydır ət, süd məhsulları, bitki yağları və şəkərdə özünü göstərir. Qeyd olunur ki, bunun əsas səbəbi ABŞ və İsrail-İran müharibəsidir. Müharibə dünyada enerji daşıyıcılarının kəskin şəkildə bahalaşmasına səbəb olmuşdu. Bu qiymət artımı kənd təsərrüfatı bazarlarına multiplikator təsir göstərmiş, nəticədə nəqliyyat, gübrə istehsalı və bioyanacaq istehsalı xərclərini artırmışdır ki, bu da qida məhsullarının qiymətinə təsir göstərmişdir.

Taxıl dünya bazarında FAO Qiymət İndeksinə görə, fevral ayı ilə müqayisədə 1,5 faiz artaraq 110,4 bəndə çatıb. Əsas amil buğda olub: ABŞ-də məhsul proqnozlarının pisləşməsi və Avstraliyada əkin sahələrinin mümkün azalması səbəbindən qlobal qiymətlər 4,3 faiz bahalaşıb. Dünyada taxıl satışından fərqli olaraq, düyü qiymətləri aşağı düşüb: yeni məhsulun gəlməsi və idxal tələbatının zəifləməsi səbəbindən onun qiymət indeksi 3 faiz azalıb.

Ötən ay bitki yağı sektoru da əhəmiyyətli miqyasda artım nümayiş etdirib. Müvafiq indeks bir ayda 5,1 faiz artaraq 183,1 bəndə çatıb. Əsas amil palma yağı qiymətlərinin kəskin artması olub və bu, 2022-ci ilin ortalarından bəri ən yüksək həddə çatıb. Qiymətlərin artması neft qiymətlərinin və bioyanacaqlara tələbatın yüksəlməsi gözləntiləri, eləcə də Malayziyada istehsal proqnozlarının azalması ilə bağlıdır. Qara dəniz bölgəsindən günəbaxan yağı tədarükünün azalması və yanacaq xammalına tələbatın artması da bazara əlavə təzyiq göstərir.

Ət qiymətləri də ötən ay artmaqda davam edib və FAO indeksi 127,7 bala yüksəlib. Artımın əsas hərəkətverici amili donuz ətidir. Onun qiymətləri əsasən mövsümi tələbatın artacağı gözlənilən Avropa İttifaqında yüksəlib. Mal əti qiymətləri isə Braziliyada mal-qara sürüsünün azalması ilə bağlıdır. Eyni zamanda Yaxın Şərq və Qırmızı dəniz nəqliyyat marşrutundakı logistik çətinliklər region ölkələrinə quş əti tədarükünə, bu da öz növbəsində qlobal ticarətə mənfi təsir göstərir.

FAO-nun məlumatına görə, uzun müddət davam edən azalmadan sonra süd bazarı bərpa olunmağa başlayıb. Mart ayında FAO Qiymət İndeksi 120,9 bəndə çatıb ki, bu da fevral ayı ilə müqayisədə 1,2 faiz yüksəkdir. Artım güclü idxal tələbi və Okeaniyada mövsümi tədarükün azalması fonunda süd tozu və kərə yağı üçün kotirovkalarla əlaqədardır.

Qlobal bazarda şəkər qiymətləri yüksək aylıq sıçrayış nümayiş etdirir. Belə ki, onun indeksi 7,2 faiz artaraq 92,4 bəndə çatıb. Burada artan neft qiymətləri də rol oynayır. Yüksək enerji qiymətləri dünyanın ən böyük şəkər ixracatçısı olan Braziliyanın daha çox şəkər qamışını etanol istehsalına yönəldəcəyi gözlənilir ki, bu da süfrə şəkəri tədarükünün azalmasına səbəb ola bilər. Əlavə bir amil isə Yaxın Şərqdə münaqişənin kəskinləşməsinin beynəlxalq ticarət və logistikanı çətinləşdirə biləcəyi ilə bağlı yaranan narahatlıqla bağlı olmuşdu.

Heç kəs hazırda 2 həftəlik fasilə verilmiş sözügedən müharibənin gələcək taleyini bilmir. Hazırda iki ölkə arasında danışıqların aparılması barədə razılıq əldə olunub, bunun sülhlə nəticələnib-nəticələnməməsinə qarşıdakı günlərdə aydınlıq gələcək, yalnız bundan sonra dünya bazarında ərzağın qiymətlərinin sabitləşəcəyi barədə proqnoz vermək mümkün olacaq.

***Rüstəm KAMAL, "Azərbaycan"***

## Tramp NATO-nu İranla savaş zamanı ABŞ-yə dəstək verməməkdə ittiham edib

Amerika lideri Şimali Atlantika Alyansının (NATO) İranla müharibədə ABŞ-ni dəstəkləmədiyini bildirib və yenidən Qrenlandiya məsələsini qaldırıb. NATO-nun baş katibi Rutte Trampın avropalı müttəfiqlərindən "açıq-aşkar məyus" olduğunu etiraf edib.



ABŞ Prezidenti Donald Tramp aprelin 8-də NATO-nun baş katibi Mark Rutte ilə görüşdən sonra sosial media hesabı "Truth-Social"da böyük hərflərlə yazıb: "NATO ehtiyac duyduğumuz zaman yanımızda deyildi və yenidən ehtiyac duyduğumuz zaman da bizimlə olmayacaq". O bildirib ki, müttəfiqlər Qrenlandiyanı xatırlamalıdırlar. ABŞ lideri adanı "böyük və pis idarə olunan buz parçası" adlandırıb.

Amerika lideri həmçinin NATO müttəfiqlərini Hörmüz boğazının təhlükəsizliyini təmin etməkdə ABŞ-ni dəstəkləməyə çağırıb, lakin onlar davam edən hərbi əməliyyatlar fonunda hər hansı bir öhdəlik götürməkdən çəkiniblər.

İran martın əvvəlində ABŞ və İsrailin hava hücumlarına cavab olaraq boğazı bağlayıb. Fars körfəzindən Hörmüz boğazından neft və mayeləşdirilmiş təbii qazın daşınması faktiki olaraq mümkünsüz hala gəlib və qlobal qiymətlər kəskin yüksəlib. Atəşkəsdən sonra Tehran boğazı müvəqqəti olaraq açmağa razı olub.

Tramp dəfələrlə İrana qarşı müharibədə NATO tərəfdaşlarını kifayət qədər dəstək vermədiklərinə görə tənqid edib. Onun bir neçə açıqlaması ABŞ-nin Şimali Atlantika Alyansından çıxma ehtimalı ilə bağlı narahatlıqlar doğurub. Lakin ABŞ-nin NATO-dan çıxması üçün Senatın üçdəiki səs çoxluğu tələb olunacaq ki, bu da ehtimalsız hesab edilir.

ABŞ Prezidenti Ağ Evdə Mark Rutte ilə danışıqlardan sonra NATO-nun baş katibi CNN-ə bildirib ki, Tramp alyansdan və bir sıra üzv dövlətlərdən "açıq-aşkar məyus olub". Eyni zamanda o, görüşü "iki dost arasında çox açıq müzakirə" adlandırıb. Trampın ABŞ-nin NATO-dan çıxması barədə danışıb-danışmadığı soruşulduqda, Rutte dəfələrlə sualdan yayınıb.

ABŞ-nin bəzi NATO ölkələrinin öhdəliklərini yerinə yetirməməsi ilə bağlı ittihamlarına gəldikdə, Rutte belə cavab verib: "Bəziləri, bəli, öhdəliklərini yerinə yetirmədilər, lakin əksər Avropa ölkələri vəd verdiklərini etdilər". O, əlavə edib ki, Trampın alyansdakı bir çox müttəfiqlərindən məyusluğunu başa düşür.

Bu ilin əvvəlində Tramp strateji əhəmiyyətli Arktika adasını lazım gələrsə, güc yolu ilə ilhaq etmək niyyətini açıq bəyan etmişdi. Avropalı NATO tərəfdaşları arasında qəzəb dalğasından sonra o, bu planlardan vaz keçsə də, məsələ ilə bağlı danışıqlar aparılmasında israr edib.

Geniş muxtariyyətə malik Danimarka və ada hökuməti Qrenlandiyanın ABŞ tərəfindən ilhaqını qəti şəkildə rədd edir. Kopenhagen xəbərdarlıq edib ki, ABŞ-nin Qrenlandiyanı ilhaq etməsi Qərb müdafiə alyansının sonu demək olacaq. Tramp isə planlarını bununla əsaslandırır ki, əks halda Qrenlandiya Rusiya və Çinə qarşı müdafiəsiz qalacaq.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Dünyanı tərsinə görənlər

### Azərbaycandakı dini mühitlə bağlı əsassız və absurd iddialar irəli sürənləri başqa cür adlandırmaq mümkün deyil

Azərbaycan dünyada müxtəlif mədəniyyətlərin və inancların qovuşduğu nadir tolerantlıq məkanlarından biri kimi qəbul olunur. Əfsuslar olsun ki, sülhün və qarşılıqlı hörmətin təbliğatçısı kimi tanınan ölkəmizin birgəyaşayış modelinə və dinlərarası dialoq sahəsində əldə etdiyi tarixi nailiyyətlərə kölgə salmaq cəhdləri hələ də bəzi beynəlxalq dairələrin siyasi gündəmindən düşmür.

Milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsi olan multikulturalizm və dini dözümlülük ənənələri növbəti dəfə qeyri-obyektiv yanaşmanın hədəfinə çevrilib. Belə ki, ABŞ-nin Beynəlxalq Dini Azadlıq Komissiyasının (BDAK) 2025-ci il hesabatında Azərbaycanın dini mühitinə dair kifayət qədər əsassız və absurd ittihamlar yer alıb. Reallıqların tamamilə təhrif edildiyi hesabatda ölkəmizdə "dini azadlıqların pozulduğu" iddia olunub.

Şübhəsiz, Azərbaycanın dini mühitinə dair irəli sürülən iddialar qərəzli yanaşmanın məhsuludur. Hesabatda yer alan "dini azadlıqların boğulması", "inanclı şəxslərin əsassız təqib edilməsi" və "məzhəb fərqi"nin qabardılması ölkəmizdəki mövcud ictimai-siyasi sabitliyi və mənəvi həmrəyliyi hədəf alan manipulyasiya cəhdidir.

Ölkəmizdə fəaliyyət göstərən dini konfessiya rəhbərləri sənəddə yer alan iddiaları kəskin şəkildə rədd ediblər. Din xadimlərinin yaydığı birgə bəyanatda vurğulanıb ki, hesabat müəyyən anti-Azərbaycan qrupların və lobbi dairələrinin qərəzli diktəsini özündə əks etdirir. Bəyanat müəllifləri qeyd ediblər ki, daim multikulturalizm və tolerantlıq ideyalarını təşviq edən rəsmi Bakıya yönəlik bu cür ittihamlarla çıxış etmək beynəlxalq ictimaiyyəti çaşdırmaq və ölkəmizdəki mövcud dini həmrəylik mühitinə kölgə salmaq məqsədi güdür. Konfessiya rəhbərlərinin xüsusi narahatlıqla qeyd etdiyi digər məqam Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq işlərinin təhrif olunmasıdır. Hesabatda tarixi-mədəni abidələrin bərpası prosesinin fərqli yozulması qətiyyətlə pislənilib. Bildirilib ki, Azərbaycan tərəfi dini mənsubiyyətindən asılı olmayaraq, bütün mədəni irsi eyni həssaslıqla qoruyur və bərpa edir.

Həqiqətən də, yüksək tolerantlıq və multikultural dəyərlərə sahib olan və məhz bu ənənəsinə görə dünyaya nümunə göstərilən Azərbaycanı "dini azadlıqlar" məsələsində suçlamaq çox gülüncdür. Əsrlərə söykənən birgəyaşayış mədəniyyəti Azərbaycanın dövlət siyasətinin nüvəsini təşkil edir. Konstitusiyamız hər bir vətəndaşın etiqad azadlığını tam təmin edir və dini zəmində ayrı-seçkiliyə əsla imkan vermir. Müasir dünyada dini faktorlardan sui-istifadə halları və təhlükəsizlik təhdidləri artdığı bir şəraitdə Azərbaycan hökuməti daim dini icmaların ehtiyaclarını diqqət mərkəzində saxlayır, dövlət rəhbərliyi səviyyəsində icmalarla mütəmadi təmaslar qurulur.

Azərbaycan məscid, kilsə və sinaqoqların eyni məkanda inşa edildiyi, fərqli konfessiyaların qarşılıqlı hörmət şəraitində fəaliyyət göstərdiyi nadir ölkələrdəndir. Bu harmoniya təkcə mövcud qanunlarla yox, cəmiyyətin gündəlik həyat tərzi ilə də qorunur. Bölgənin ən böyük sinaqoqunun ölkəmizdə yerləşməsi də Azərbaycanın dini plüralizmə verdiyi dəyərin növbəti sübutudur. Buna baxmayaraq, hesabat müəllifləri işğaldan azad edilmiş torpaqlarımızda həyata keçirilən bərpa işlərini təhrif etməyə çalışırlar. Halbuki Qarabağ və Şərqi Zəngəzurda aparılan bütün quruculuq işləri beynəlxalq mütəxəssislərin iştirakı ilə tarixi-mədəni irsin orijinal simasının qorunması prinsipinə əsaslanır.



Azərbaycanın bənzərsiz tolerantlıq modeli dünya dini liderləri tərəfindən də daim yüksək qiymətləndirilib. Roma papaları II İoann Pavel və Fransisk Azərbaycanı parçalanmış dünya üçün əsl nümunə kimi təqdim edib, ölkəmizi sülh adası adlandırıblar. Eyni zamanda islam dünyasının mötəbər siması, Əl-Əzhər Şeyxi Əhməd Əl-Tayyib də ölkəmizin məzhəblərarası və dinlərarası həmrəylik modelini təqdir edib. Azərbaycanın humanitar missiyası sərhədləri aşaraq qlobal xarakter alıb. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Vatikandakı xristian abidələrinin bərpasındakı rolu beynəlxalq miqyasda böyük rəğbətlə qarşılanıb. 2008-ci ildən start götürən "Bakı Prosesi" və "Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu" bu sahədə Azərbaycanı əsas qlobal mərkəzə çevirib. Nəhayət, COP29 çərçivəsində Bakıda 55 ölkədən 300-dən çox dini liderin toplaşması Azərbaycanın multikulturalizm sahəsindəki liderliyini bir daha təsdiqləyib.

Bir məqamı da vurğulayaq ki, ABŞ-də Donald Tramp administrasiyasının fəaliyyətə başlaması ilə ölkələrimiz arasında ikitərəfli əlaqələrin canlandığı, Vaşinqtonun vasitəçiliyi ilə Azərbaycan-Ermənistan arasında sülh prosesində mühüm irəliləyişlərin əldə olunduğu bir vaxtda BDAK-ın nümayiş etdirdiyi qərəzli mövqe təəssüf doğurur. Azərbaycanın regional sülhün təminatındakı strateji rolu və dinlərarası dialoqa sadiqliyi beynəlxalq səviyyədə qəbul edilmiş danılmaz faktdır. Bu sadiqliyin bariz nümunəsi kimi ölkəmizin ABŞ rəhbərliyinin təşəbbüsü ilə qurulan Sülh Şurasına təsisçi üzv qismində dəvət edilməsini göstərmək olar.

Heç bir qərəzli sənəd və ya siyasi manipulyasiya Azərbaycanda əsrlər boyu formalaşmış mənəvi həmrəylik mühitini sarsıda bilməz. Dövlətimiz bu sahədə sözünü deyərək həm dini liderlərin, həm də beynəlxalq birliyin rəğbətini qazanıb. Sifarişli hesabatların tirajlanmasına baxmayaraq, Bakının multikulturalizm paytaxtı kimi qlobal liderliyi, birgəyaşayışa sadiqliyi heç zaman sarsılmayacaq. Azərbaycan sülh quruculuğu missiyasına sadiq qalaraq, dünyaya fərqli mədəniyyətləri və birgəyaşayış nümunəsini bundan sonra da təqdim edəcək.

***İsmayıl QOCAYEV, "Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Almaniya şirkəti ilə peşə təhsilinin inkişaf yolları barədə müzakirələr aparılıb

**İqtisadiyyat Nazirliyində keçirilmiş görüşdə insan resurslarının inkişafı üzrə əməkdaşlıq məsələləri müzakirə olunub.**



İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli Almaniyanın BiWE təşkilatının (Baden-Württemberg International Education) İdarə Heyətinin sədri və "Südwestmetall" Sənaye İşəgötürənləri Təşkilatının siyasət, təhsil və əmək bazarı üzrə icraçı direktoru Stefan Küpper ilə görüşüb.

Görüşdə Almaniya ilə iqtisadi əməkdaşlığın uğurla inkişaf etdiyi, bu istiqamətdə Alman-Azərbaycan Xarici Ticarət Palatası və Almaniyanın Şərq Biznes Assosiasiyası ilə imzalanmış yol xəritəsinin əhəmiyyəti vurğulanıb.

Görüş zamanı ölkəmizin iqtisadi prioritetləri, insan resurslarının inkişafı istiqamətində həyata keçirilən layihə və proqramlar barədə məlumat verilib, əməkdaşlıq imkanları müzakirə olunub. Həmçinin İqtisadi Zonaların İnkişafı Agentliyinin tabeliyində Peşə Təhsili Mərkəzinin fəaliyyəti barədə məlumat verilib və sənaye sahəsində ixtisaslı kadr hazırlığı üzrə birgə fəaliyyət imkanları qeyd olunub.

Tərəflər Azərbaycanda insan kapitalı, müxtəlif iqtisadi sahələr üzrə kadr potensialına olan tələbatın qarşılanması üçün peşə təhsilinin inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər haqqında fikir mübadiləsi aparıblar.

## İşğaldan azad edilmiş ərazilərdə 800-dək sakin üçün özünüməşğulluq proqramı üzrə kiçik biznes qurulub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi aktiv məşğulluq proqramlarından biri də özünüməşğulluq proqramıdır.**



Ötən dövrdə qeyd edilən ərazilərə köçürülmüş 800-dək sakinə bu proqram çərçivəsində mal və materiallar formasında aktivlər verilib.

Verilmiş aktivlər hesabına onlar kənd təsərrüfatı, istehsal və xidmət sahələri üzrə kiçik ailə bizneslərini yaradıblar.

Özünüməşğulluq proqramına cəlb olunanlar üçün ilkin mərhələdə təlimlər təşkil olunaraq, onlara kiçik biznesin təşkili və idarə olunması ilə bağlı bacarıqlar öyrədilir. Təlimləri bitirdikdən sonra isə onlara biznes planlarına uyğun aktivlər verilir.

## Ötən il Sumqayıt Sənaye Parkında 2,2 milyard manatlıq məhsul satılıb

**2025-ci ildə Sumqayıt Sənaye Parkında 2,2 milyard manatlıq məhsul satışı həyata keçirilib.**

İqtisadi Zonaların İnkişafı Agentliyindən AZƏRTAC-a bildirilib ki, satışın 1,1 milyard manatı ixracın payına düşür. Sənaye parkının ərazisində neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir. Parkda ümumi investisiyaların həcmi təqribən 6,6 milyard manatdan artıq olan 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 5,6 milyard manatdan çox investisiya yatırılıb. Cənubi Qafqazın ən böyük sənaye parkında 6097 daimi iş yeri yaradılıb.

## *Azərbaycan İnvestisiya Holdinqi:* strateji sərmayələr mərkəzi

### Portfel şirkətlər AİH-in fəaliyyətinin təminatçısıdır

**Azərbaycanın iqtisadi inkişafını daha da gücləndirmək məqsədilə yaradılan Azərbaycan İnvestisiya Holdinqi (AİH) ölkənin maliyyə və sənaye sahələrini mərkəzləşdirilmiş şəkildə idarə edən unikal qurumdur. Prezident İlham Əliyev tərəfindən 2020-ci ildə imzalanan fərmanla təsis olunan bu struktur iqtisadi resursları səmərəli yönəltmək, investisiyaları koordinasiya etmək və ölkənin strateji inkişafını təmin etmək missiyasını daşıyır.**




AİH adından da göründüyü kimi, Azərbaycanda yaradılmış investisiya holdinqidir. Sadə dildə desək, holdinq "ana şirkət" kimidir, müxtəlif sahələrdə fəaliyyət göstərən digər şirkətləri alır, necə deyərlər, bir çətir altında birləşdirərək, investisiya qoyur və onları idarə edir. Bu baxımdan AİH də müxtəlif sahələrdə gəlir əldə etmək üçün şirkətlərə investisiya qoyaraq, gəlirlərin artması, həmçinin şirkətlərin daha dayanıqlı və innovativ olmasına yol açır. Holdinq strateji sahələrə sərmayə yönəldərək, ölkənin iqtisadiyyatını şaxələndirir və dövlətin uzunmüddətli inkişaf planlarını gücləndirir, energetika, maliyyə və sənaye kimi sahələrdə layihələrə dəstək verir, yeni texnologiyaların tətbiqini təşviq edərək startap ekosistemini və innovasiyanı inkişaf etdirir, həmçinin portfel şirkətlərin maliyyə dayanıqlılığını təmin edərək ölkənin investisiya mühitini gücləndirir. Holdinqin portfelinə enerji, maliyyə, kənd təsərrüfatı, sənaye və digər sahələrdə fəaliyyət göstərən şirkətlər daxildir. O, şirkətlərin strateji qərarlarını müəyyənləşdirə bilər, lakin hər bir şirkət gündəlik əməliyyatlarını müstəqil idarə edir.

Qeyd edək ki, portfelindəki şirkətlərin effektiv şəkildə inkişafını təmin etməklə Azərbaycanda rifah halının köklü və dayanıqlı artımını təmin etmək AİH-in əsas baxışıdır. AİH-in mədəni dəyərlərini bölüşən peşəkar və məqsədyönlü komanda tərəfindən həyata keçirilən şəffaf investisiya prosesləri vasitəsilə Azərbaycanın uzunmüddətli inkişafına və firavanlığının artımına xidmət etmək qurumun missiyasıdır. AİH ən yüksək peşəkarlıq standartlarının tətbiqini təşviq edir və meritokratiya (bir şirkətdə rəhbər vəzifəyə kimsə ailəsi və ya tanışları vasitəsilə yox, işdəki uğurları və bacarıqlarına görə gətirilirsə, bu yanaşma meritokratiyadır) prinsipi əsasında fəaliyyət göstərir. Effektiv komanda işinin davamlı inkişaf və müvəffəqiyyət üçün həlledici olduğunu qəbul edərək əməkdaşlığı və birliyi təşviq edir. Portfel aktivlərində ən qabaqcıl təcrübələri tətbiq etməklə və mənimsəməklə əzmlə onların inkişafına çalışır. Güclü və faydalı əlaqələrin qurulmasına şərait yaradan qarşılıqlı dəstək və etimad mühiti yaratmaq strukturun prioritetidir. Öz fəaliyyətini ən yüksək şəffaflıq və dürüstlük standartlarına uyğun olaraq həyata keçirir. Və bütün bu sadalananlar AİH-in dəyərləridir.

Gəlin portfel şirkətlərinin nə olduğunu və necə fəaliyyət göstərdiyini nəzərdən keçirək. Onlar holdinqin sahib olduğu və ya maliyyə dəstəyi verdiyi şirkətlərdir, "sənə investisiya qoymuşam, gəlirləri birlikdə böyüdək" prinsipi ilə fəaliyyət göstərir. Məsələn, AİH enerji sektoruna investisiya qoyubsa, həmin sahədə fəaliyyət göstərən bir elektrik stansiyası şirkəti onun portfel şirkəti ola bilər. Eyni qayda ilə holdinq kənd təsərrüfatı, maliyyə, sənaye və digər sahələrdə də şirkətlərə investisiya qoyaraq onları portfelinə daxil edir. Portfel şirkətləri holdinqin strateji investisiya məqsədlərinə xidmət edir, onun maliyyə, idarəetmə və inkişaf imkanlarını artırmaq üçün dəstək alır.

AİH-i gələcək uğurlara aparan portfel şirkətləri bunlardır: Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR), "AzerGold" QSC, "Azəralüminium" MMC, "Azərbaycan alüminiumu" ASC, "Təmiz Şəhər" ASC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Beynəlxalq Bankı" ASC, "Azər Türk Bank" ASC. Bu şirkətlər holdinqin strateji hədəflərinə xidmət edir, ölkənin iqtisadiyyatını şaxələndirir və gələcəyə dayanıqlı inkişaf üçün zəmin yaradır. Onlar yalnız mövcud iqtisadi fəaliyyəti gücləndirmir, eyni zamanda yeni texnologiyaların tətbiqi, ixrac potensialının artırılması və investisiya mühitinin inkişafı üçün platforma yaradır. Məsələn, SOCAR və "Azəralüminium" MMC kimi sənaye nəhəngləri strateji enerji və metallurgiya sektorunda ölkənin mövqeyini möhkəmləndirir, "AzerGold" QSC isə qiymətli metallar sahəsində rəqabət qabiliyyətini yüksəldir.

Bank sektoru üzrə Azərbaycan Beynəlxalq Bankı ASC (ABB) və "Azər Türk Bank" ASC maliyyə dayanıqlığını təmin edir, həm dövlət, həm də özəl investisiyaların səmərəli idarə olunmasına dəstək verir. Aqrar sahədə fəaliyyət göstərən "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC isə kənd təsərrüfatının modernləşdirilməsi və ərzaq təhlükəsizliyinin gücləndirilməsi istiqamətində mühüm rol oynayır. Nəticə olaraq, AİH-in portfel şirkətləri ölkənin iqtisadiyyatının hərtərəfli inkişafına töhfə verərək strateji sektorlarda dayanıqlı və rəqabətqabiliyyətli bir bazanın formalaşmasına xidmət edirlər. Bu, gələcək investisiyaların cəlb edilməsi, yeni iş yerlərinin yaradılması və Azərbaycanın qlobal iqtisadi arenada daha möhkəm mövqe tutması üçün vacib bir əsasdır.

Sadalanan strateji əhəmiyyətli şirkətlərin fəaliyyəti yalnız gündəlik iqtisadi əməliyyatlarla məhdudlaşmır, eyni zamanda dövlət səviyyəsində qəbul olunan uzunmüddətli inkişaf planları və iclas qərarları ilə birbaşa əlaqəlidir. Bu günlər Baş nazir Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın və AİH-in Müşahidə Şurasının keçirdiyi birgə iclasda neft-qaz və neft-kimya sənayesinin strateji inkişafı geniş müzakirə olunub. İclasın gündəliyində neft emalı və neft-kimya sahələrində strateji məqsədlər, gələcək inkişaf perspektivləri, uzunmüddətli dövr üçün neft məhsullarına ölkədaxili tələbatın dayanıqlı təmin olunması və digər aktual məsələlər yer alıb. Gündəlikdəki mövzu ilə bağlı SOCAR-ın prezidenti Rövşən Nəcəf təqdimatla çıxış edib. İclasda həmçinin İqtisadi Şuranın və AİH-in Müşahidə Şurasının üzvləri, eləcə də AİH-in İdarə Heyətinin sədri və Baş icraçı direktoru iştirak ediblər.

Göründüyü kimi, AİH ölkənin iqtisadi inkişafında mühüm rol oynayan strateji institutdur. AİH-in portfel şirkətləri vasitəsilə müxtəlif sektorların inkişafı təmin olunur, iqtisadi şaxələnmə və innovasiya təşviq edilir, həmçinin maliyyə dayanıqlığı gücləndirilir. Holdinqin fəaliyyəti Azərbaycan iqtisadiyyatının gələcək perspektivləri, həm dövlət, həm də özəl sektor üçün mühüm əhəmiyyət kəsb edir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Halallıq turizm sektoruna nə vəd edir

**Dövlətlər gəlirlərini müxtəlif sahələrdən əldə edirlər. Bəziləri olan təbii resurslarını satır, digərləri qazanclarını sənaye və kənd təsərrüfatından əldə edir, bir çox ölkə də var ki, onların əsas gəlir mənbəyi turizmdir. Artıq xeyli zamandır dünyada turizm, o cümlədən xidmət sektoru gəlirli sahələrdən birinə çevrilib.**



Bu gün Tailandın dövlət gəlirlərində birinci yerdə turizm gəlirləri dayanır. Türkiyə iqtisadiyyatında da turizm gəlirləri önəmli rol oynayır. Qardaş ölkə ildə həmin sektordan orta hesabla 22 milyard dollardan çox gəlir əldə edir. Parisi ziyarət edənlərin sayı hər il milyonları ötür. Yəni bu şəhər XX əsrin ortalarından təkcə ölkənin paytaxtı deyil, həm də gəlir mənbəyidir.

Dünya Turizm Barometrinə görə, ötən il turistlərin ən çox səyahət etdikləri ölkələr arasında İslandiya, Braziliya və Misir öndə olub. Keçən il dünyada 1,52 milyard beynəlxalq turist səyahət edib. Avropa qitəsi isə 793 milyon ziyarətçi ilə birinci yerdə olub.

Azərbaycanın da turizm potensialı böyükdür. Gözəl təbiətimiz, qədim tarixi abidələrimiz, müalicəvi Naftalan nefti və çoxsaylı mineral sularımız turizmin inkişafı üçün unikal imkanlar yaradır. Dövlətimiz də turizmin inkişafına xüsusi dəstək verir, bu sahədə fəaliyyət göstərən sahibkarları güzəştli kreditlərlə təmin edir. Bütün bunlara baxmayaraq, məsələn, qonşu Gürcüstanla müqayisədə daha çox turist cəlb edə bilmirik. Səbəb sadədir - xidmət səviyyəsi aşağı, qiymətlər yuxarıdır. Təəssüf ki, bu gün Azərbaycanın turizm sektorunda fürsətçilik geniş yayılıb. Xüsusən rayonlara səfər edən turistlər belə hallarla daha çox rastlaşırlar. Məsələn, 4-5 nəfərlik bir ailə yol kənarında və ya təbiətin qoynunda adi bir yeməkxanada nahar, yaxud şam edərsə, ondan elə bir məbləğ tələb olunur ki, yeyib-içdikləri burunlarından gəlir. Səbəbi mövsümi fürsətçilikdir. Təəssüf ki, "nə qədər bahardır, yaydır - qazanaq, payızda, qışda Allah kərimdir" psixologiyasından yaxa qurtara bilməyən iş(baz) adamlarımız hələ çoxdur.

Buna baxmayaraq, Dövlət Turizm Agentliyindən verilən məlumata görə, qarşıya qoyulan hədəf 2026-cı ildə Azərbaycana səfər edən xaricilərin sayını 4 milyon, ölkə daxilində turizm səfəri edən yerli vətəndaşların sayını 6 milyon nəfərə çatdırmaqdır. Məlumatda qeyd olunur ki, cari ildə cəmi turizm xərcləmələri 2021-ci illə müqayisədə 4 dəfə artaraq 11,2 milyard manata çatacaq. Bunun 49 faizi, yaxud 5,5 milyard manatı əcnəbi turistlərin xərcləmələrinin payına düşəcək. Ümumilikdə isə 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda ÜDM istehsalının 2019-cu illə müqayisədə 1,5 dəfə artacağı, orta hesabla hər il turizm sektorunda 20 faiz artım qeydə alınması proqnozlaşdırılır. Baxmayaraq ki, hazırda turizm sektorunda olan nöqsanlarla bu artıma nail olmaq real görünmür. Belə olan halda "xidmətlə qiymət arasında olan uyğunsuzluq buna imkan verəcəkmi?" sualına cavab tapmaq lazım gəlir.

Bunun üçün, daha doğrusu, ölkəmizə daha çox turistin gəlməsi istiqamətində müəyyən işlər görülür. Onlardan biri də halal turizmin inkişafına dair yeni dövlət standartlarının qəbul edilməsidir. Bu sənədin qəbulunu şərtləndirən Azərbaycana gələn turistlərin sayında müsəlman ölkələrin payının yüksək olmasıdır. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin məlumatına görə, yeni standart yerləşmə vasitələri, tur paketləri, turist bələdçiləri və halal turizmə dair digər turizm xidmətlərini əhatə edərək səyahətçilər üçün nəzərdə tutulmuş halal turizm obyektlərində təqdim olunan məhsul, həmçinin xidmətlərin idarə olunmasına dair əsas prinsipləri və tələbləri müəyyən edir. Halal turizm standartının tətbiq edilməsində məqsəd turizm sahəsində fəaliyyət göstərən müəssisə və təşkilatların halal xidmətlərin effektiv idarə olunması bacarığının gücləndirilməsi, islam qaydalarına uyğun turizm məhsul və xidmətlərinin təqdim edilməsi, həmçinin müştəri tələblərinin qarşılanması və bununla da müştəri məmnuniyyətinin artırılmasıdır.

Məlumdur ki, koronavirus pandemiyası dünya turizminə mənfi təsir göstərmişdi. Dünya Turizm Təşkilatının ekspertləri bildirirlər ki, qlobal turizm bazarı sabit şərtlə davam edərsə, öz durumunu pandemiyadan öncəki dövrün 80-90 faizi qədərilə bərpa edə bilər. Qarşıdan turizm mövsümü gəlir. Azərbaycanda da bu imkandan istifadə olunaraq daha çox turistin cəlb edilməsi üçün lazımi tədbirlər görülməlidir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Magistrantların növbəti elmi konfransı keçirilib

Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "Təhsildə menecment və yeni təlim texnologiyaları" mövzusunda magistrantların IX respublika elmi konfransı keçirilib.





2 gün davam edən konfransda universitetin rəhbərliyi, professor-müəllim heyəti, eləcə də ölkənin digər ali təhsil və tədqiqat müəssisələrinin - Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Naxçıvan Dövlət Universiteti, ADA, Azərbaycan Turizm və Menecment Universiteti, Mingəçevir Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan, Xəzər və Odlar Yurdu universitetlərinin magistrantları, elmi ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Plenar iclasda giriş sözü ilə çıxış edən ADPU-nun rektoru, konfransın təşkilat komitəsinin sədri professor Cəfər Cəfərov qeyd edib ki, builki konfrans rəhbərlik etdiyi universitetin 105 illik yubileyi ilə əlamətdardır. Rektor universitetdə son illər həyata keçirilən islahatlardan danışıb, yeni layihələrlə bağlı məlumat verib. Qeyd edib ki, bu ali təhsil ocağı inkişafın yeni mərhələsinə qədəm qoyur. 2026-cı ilin əvvəlində ADPU ilk dəfə olaraq "QS Dünya Universitetləri Reytinqi Avropa 2026" siyahısında 601-650-ci yerlər sırasında qərarlaşıb. Reytinqdə universitet Avropa üzrə fakültə-tələbə nisbətinə görə 57-ci, akademik nüfuz və işəgötürən nüfuzu üzrə 301+, məşğulluq nəticələrinə görə 380-ci olub. Həmçinin ADPU "QS Avropa 2026" reytinqinin Qərbi Asiya regionu üzrə reytinq sıralamasında 140 ali təhsil qurumu arasında 54-cü sırada yer alıb.

Cəfər Cəfərov universitetdə rəqəmsal inkişaf üzrə fəaliyyət planının hazırlandığını, yeni ixtisaslaşmaların yaradıldığını, beynəlxalq təcrübənin tətbiq olunduğunu və müasir təhsil proqramlarının icrasına başlanıldığını diqqətə çatdırıb. Universitetin elmi uğurlarının artmasında magistrantların üzərinə böyük məsuliyyət düşdüyünü bildirən rektor əlavə edib ki, onlar daim öz üzərlərində çalışmalı, müasir bilik və bacarıqlara yiyələnməlidirlər: "Müasir dövrdə təhsildə sürətli dəyişikliklər baş verir və bu dəyişikliklər təhsilin idarə olunmasına yeni yanaşmaların tətbiqini zəruri edir".

ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, konfransın təşkilat komitəsinin sədr müavini professor Asəf Zamanov müasir təhsilin yalnız biliklərin ötürülməsi prosesi deyil, həmçinin innovasiyaların, idarəetmə bacarıqlarının və texnoloji yeniliklərin inteqrasiyasını tələb edən mürəkkəb bir sistem olduğunu vurğulayıb: "Danılmaz həqiqətdir ki, sürətlə qloballaşan dünyada rəqabətədavamlı insan kapitalının formalaşdırılması təhsildə səmərəli menecment və müasir təlim texnologiyalarının tətbiqindən birbaşa asılıdır. Bu baxımdan konfransın mövzusu kifayət qədər aktualdır və strateji əhəmiyyət daşıyır". Prorektor bildirib ki, uğurlu təhsil sistemi çevik qərarların qəbul edildiyi, yeniliyə açıq və tələbəyönümlü idarəetmə modelinə əsaslanmalıdır: "Yeni təlim texnologiyaları - rəqəmsal platformalar, distant və hibrid təhsil modelləri, süni intellekt əsaslı öyrənmə alətləri tədris prosesində mühüm əhəmiyyətə malikdir ki, bu texnologiyalar da tələbələrin fərdi xüsusiyyətlərini nəzərə almağa, onların tənqidi düşünmə və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə geniş imkanlar yaradır. Eyni zamanda müəllimləri bilik ötürücüsündən daha çox mentor və fasilitator mövqeyinə yüksəldir". O, həmçinin diqqətə çatdırıb ki, ADPU-da innovativ düşüncəyə malik, peşəkar və məsuliyyətli mütəxəssislər yetişdirmək üçün tədris prosesində müasir texnologiyaların tətbiqi genişləndirilir, beynəlxalq təcrübə öyrənilir. Professor 2018-ci ildən təşkil edilən sayca 9-cu konfransın ilbəil həm coğrafiyasının genişlənildiyini, həm də faydalılığının yüksəldiyini bildirib.

İsveçin Höteburq Universitetinin dosenti, İsveç "Azərbaycan Aydınlar Ocağı"nın sədri Səadət Kərimi ölkəmizdə elm və ali təhsilin inkişafı istiqamətində atılan addımların çox diqqətəlayiq olduğunu vurğulayıb, gənc tədqiqatçıların praktik tədqiqatlara cəlb olunmasının önəmindən bəhs edib. Bu istiqamətdə ADPU nümunəsində görülən işlərin uzunmüddətli perspektivdə ölkə elminə verəcəyi töhfələri qeyd edib.

Konfransda çıxış edən ADPU-nun Ümumi fizika kafedrasının müdiri, professor Cahangir Hüseynov və Təhsil menecmenti kafedrasının professoru Müseyib İlyasov təəssüratlarını, magistrantlara öz tövsiyələrini çatdırıblar.

Plenar iclasda ADPU-nun magistrantı Aytac Abbasovanın "Pedaqoji kadr hazırlığının strateji idarə olunmasında beynəlxalq təhsil layihələrinin rolu", BDU-nun magistrantı Ləman Tağıyevanın "PİSA 2029 çərçivəsində media və süni intellekt savadlılığının qiymətləndirilməsi" mövzularında məruzələri dinlənilib.

Universitetin Magistratura və doktorantura şöbəsinin müdiri siyasi elmlər üzrə fəlsəfə doktoru Rəşad Sadıqov bildirib ki, konfransa təqdim olunan 500-ə qədər məruzənin "Təhsildə strateji idarəetmə", "İnnovasiyalar və təhsilin keyfiyyəti", "Təhsildə sosial-psixoloji xidmət", "Tədrisin müasir problemləri" elmi istiqamətləri üzrə 10 bölmədə müzakirəsi təşkil ediləcək.

Qeyd edək ki, Təşkilat Komitəsinin yekun rəyinə əsasən, çapa tövsiyə olunan elmi məruzələrin tezisləri konfrans materiallarında nəşr olunacaq.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Azərbaycan nümayəndələri Qazaxıstanda "AI Leaders 2026" layihəsində iştirak edirlər

Qazaxıstanda Stenford Universiteti, "OpenAI Academy" və "Silkroad Innovation Hub" ilə tərəfdaşlıq çərçivəsində həyata keçirilən "AI Leaders 2026" təhsil proqramı fəaliyyətə başlayıb.




AZƏRTAC Qazaxıstan mediasına istinadla xəbər verir ki, proqramda Qırğızıstan, Özbəkistan, Monqolustan, Tacikistan, Türkiyə və Qətərdən olan nümayəndələrlə yanaşı, Azərbaycan təmsilçiləri də iştirak edirlər.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin sistemli rəqəmsallaşdırma və iqtisadiyyatın bütün sahələrində süni intellektin tətbiqi ilə bağlı tapşırıqlarının icrası çərçivəsində Süni İntellekt və Rəqəmsal İnkişaf Nazirliyi Stenford Universitetinin İnsan Mərkəzli Süni İntellekt (HAI) tədqiqat mərkəzi, ChatGPT tərəfindən hazırlanmış təhsil platforması olan "OpenAI Academy" və Silikon Vadisində beynəlxalq mərkəz olan və "Silkroad Innovation Hub" ilə tərəfdaşlıq çərçivəsində bu flaqman təhsil proqramını reallaşdırır.

Qeyd olunub ki, "AI Leaders 2026" layihəsi Mərkəzi Avrasiyada süni intellekt sahəsində ən böyük korporativ təhsil təşəbbüslərindən biridir. Proqramın məqsədi idarəetmə kadrları yetişdirmək, biznes və dövlət idarəçiliyində süni intellekt həllərinin tətbiqi üçün praktik bacarıqları inkişaf etdirməkdir.

Qazaxıstan Baş nazirinin müavini və süni intellekt və rəqəmsal inkişaf naziri Jaslan Madiyev qeyd edib: "Dövlət başçısının iqtisadiyyatın bütün sahələrində süni intellekt tətbiq etmək barədə göstərişini həyata keçirməklə, biz praktik dəyişikliklər mərhələsinə keçirik. Stenford Universiteti, "OpenAI Academy" və "Silkroad Innovation Hub" qurumlarının texnologiya təcrübəsinə əsaslanaraq, hər bir iştirakçı öz təşkilatı üçün tətbiq olunan süni intellekt strategiyası hazırlayacaq. Bu, hər bir şirkətin rəqəmsal transformasiyasının texnoloji liderlik və bütün ölkənin uğuru üçün təməl olduğu yeni idarəetmə modelinin əsasını qoyur".

Proqramın son mərhələsi süni intellekt agentlərinə və tətbiqi həllərə yönəlib: CAYU və "Lovable" ilə birlikdə komandalar biznes və əsas sənaye sahələrində süni intellekt sistemlərini inkişaf etdirməyi və onların tətbiqi yollarını öyrənir. "Məqsədimiz regionda qabaqcıl süni intellekt biliklərinə və qlobal texnologiya ekosistemlərinə birbaşa çıxışı təmin etməkdir. İştirakçılara bu gün sənayeni formalaşdıran və onun gələcəyini müəyyən edən texnologiyalar üzrə birbaşa bilik əldə etməyə imkan verən proqramlar yaradırıq. Bu, Mərkəzi Asiyanın qlobal texnologiya və süni intellekt ekosistemində görünən və aktiv iştirakçı olmasına şərait yaradır", - deyə "Silkroad Innovation Hub" mərkəzinin təsisçisi və baş direktoru Asset Abdualiyev qeyd edib.

Təlimin sonunda iştirakçılar "Stenford HAI" təcrübəsindən və "OpenAI Academy" alətlərindən istifadə edərək öz təşkilatları üçün tətbiqi süni intellekt strategiyaları hazırlayacaqlar.

Proqramda regiondakı təxminən 150 əsas təşkilatın rəhbərləri, o cümlədən dövlət və kvazi-dövlət sektorlarının nümayəndələri, eləcə də aparıcı şirkətlər iştirak edirlər.

Təlim intensiv sessiyalarda keçirilir və süni intellekt əsaslarının öyrənilməsini, müasir alətlərlə praktik işin aparılmasını və müxtəlif sənaye sahələri üçün tətbiqi həllərin hazırlanmasını əhatə edir.

Kursu bitirdikdən sonra iştirakçılar Stenford Universitetinin HAI sertifikatlarını alacaq və inkişaf etməkdə olan regional süni intellekt mütəxəssisləri icmasına qoşulacaqlar.

# *Dövlət idarəçiliyində süni intellektin tətbiqi:* üstünlüklər və strateji baxış

**Bu il fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" üzrə vahid fəaliyyət planı ilə bağlı keçirilən müşavirədə ölkə başçısı dövlət idarəçiliyində və cəmiyyət həyatında rəqəmsallaşma və süni intellektin tətbiqi və respublikada data mərkəzlərinin yaradılması üzrə müqayisəli üstünlükləri, strateji hədəfləri və islahat ehtiyaclarını dəqiq ifadə etmiş, rəqəmsallaşma, süni intellekt və data mərkəzlərinin yaradılması prioritetlərini ölkənin uzunmüddətli və davamlı iqtisadi inkişafı ilə əlaqələndirmişdir.**



Bu gün ənənəvi neft-qaz layihələri regional bağlantılar üçün bir örnək və xarici investorlarla əməkdaşlıq təcrübəsi kimi önə çıxır. Eyni zamanda müasir telekommunikasiya, data mərkəzləri və internet infrastrukturu üçün vacib olan fiber optik kabellərin çəkilişi ilə bağlı Azərbycanın regional təşəbbüslərdə fəal iştirakı təmin olunur. Rəqəmsallaşma, süni intellekt və data mərkəzləri üçün ehtiyac duyulan enerji gücünün ənənəvi və bərpaolunan enerji mənbələri hesabına təmin edilməsi ölkəmizin daha bir müqayisəli üstünlüyüdür. Bu məqamda qeyd edək ki, Prezident İlham Əliyevin strateji baxışı əsasında Azərbaycanın süni intellekt və rəqəmsallaşma sahəsində ABŞ, Çin və Avropa İttifaqı ölkələri üzrə fərqli şirkətlərlə eyni vaxtda əməkdaşlıq etmək istəyi və iradəsi diversifikasiya strategiyası baxımından olduqca önəmlidir.

Dövlətimizin başçısı süni intellekt və rəqəmsallaşma sahəsində Azərbaycanın strateji üstünlüklərini qeyd etdikdən sonra bunların dövlət idarəçiliyində və sosial həyatda tətbiqi ilə bağlı konkret tövsiyələr və strateji baxış irəli sürmüş, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə digər dövlət qurumları arasında koordinasiya məsələsinin önəmini xüsusi qeyd etmişdir.

Süni intellekt əsaslı həllərin dövlət qurumları və özəl şirkətlərdə tətbiqi məsələsinin rəqəmsal transformasiya, innovativ ekosistemin qurulması və kibertəhlükəsizliklə əlaqəli bir şəkildə təqdim edilməsi Azərbaycan dövlətinin bu sahədəki strateji vizyonunun beynəlxalq təcrübəyə uyğun qurulduğunu deməyə əsas verir. İnnovasiya ekosistemi süni intellekt həlləri və rəqəmsallaşma əsasında iqtisadi aktorların əlavə dəyər yaratmasının beynəlxalq təcrübəyə tam uyğun olaraq ilkin şərtlərindən biri kimi qarşımıza çıxır.

Dövlət idarəçiliyini təkmilləşdirmək üçün süni intellekti tətbiq etmək istiqamətində beynəlxalq təcrübədə və bu sahədə mövcud olan mütərəqqi ədəbiyyatda 3 səviyyəli analitik çərçivə təklif edilir:

a) Süni intellektin bütövlükdə dövlət idarəetmə sisteminə və tənzimləyici çərçivələrə təsirinə fokuslanan makro səviyyə;

b) Süni intellektin dövlət xidmətlərinin təşkili modellərinə və həmçinin dövlətin təşkilati strukturlarına təsirinə fokuslanan mezo səviyyə;

c) Süni intellektin dövlət qulluqçularına və vətəndaşlara, yəni birbaşa insan faktoruna təsirinə fokuslanan mikro səviyyə.

Azərbaycanın dövlət idarəçiliyində süni intellektin tətbiqi ilə bağlı strateji hədəflərə və strateji planlara baxdıqda hər 3 səviyyədə bir-biri ilə sinxron fəaliyyətlərin həyata keçirildiyini müşahidə edirik. Dövlət idarəçiliyində süni intellektin tətbiqinin makro səviyyəsi süni intellekti əhatə edən idarəetmə rejimləri, yeni institusional strategiyalar və tənzimləyici çərçivələrin dizaynını əhatə edir. Süni intellektin dövlət idarəçilyi sistemi üzrə kompleks tətbiqi və təsiri ilə bağlı makro səviyyədə mövcud tənzimləyici normaların təkmilləşdirilməsi, yeni tənzimləyici normaların yaradılması və strategiyaların həyata keçirilməsi öncəliklərdən biridir.

Makro səviyyədə atılan ən strateji addımlardan biri də Prezidentin 2025-ci il 19 mart tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"dır. Bu sənəd sözügedən sahədə dövlətin strateji baxışını ortaya qoymuşdur. Strategiyanın əsas məqsədlərindən biri "dəqiq qərar qəbulu ilə səmərəliliyi və şəffaflığı artırmaq, vətəndaşlara daha keyfiyyətli xidmətlər göstərmək və daxili idarəetmə proseslərini optimallaşdırmaq üçün süni intellektin dövlət idarəetməsində tətbiq edilməsi"dir (5.1.3.-cü maddə). Burada Azərbaycan dövlətinin strateji baxışı süni intellektin dövlət idarəetməsində tətbiqi vasitəsilə qərar qəbuletmə prosesinin, vətəndaşlara birbaşa göstərilən xidmətlərin və dövlət qurumlarının daxilindəki proseslərin təkmilləşməsidir. Prezident İlham Əliyevin 27 fevral 2026-cı il tarixli "Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" fərmanı ilə Rəqəmsal İnkişaf Şurasının yaradılması və Birinci vitse-prezident Mehriban Əliyevanın şuraya sədr təyin edilməsi bu sahəyə verilən önəmin və dövlət iradəsinin nümayişidir. Rəqəmsal İnkişaf Şurası süni intellekt və digər əlaqəli sahələrdə koordinasiya, nəzarət, normativ bazanın təkmilləşməsi və strateji məqsədlərə uyğunluq kimi funksiyaları həyata keçirəcəkdir.

Dövlət başçısının "Azərbaycanın yeni rəqəmsal arxitekturası" ilə bağlı müşavirədə qeyd etdiyi kimi, dövlət qurumlarında rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik üzrə bir müavinin ayrılması və bununla bağlı yeni ştat vahidinin yaradılması təklifi süni intellektin dövlət idarəçiliyində təşkilati strukturlara təsirinin və ya mezo çərçivənin bir örnəyidir. Azərbaycan Respublikasının Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN xidmət" mərkəzlərində süni intellektin tətbiqi ilə göstərilən xidmətlərin təkmilləşdirilməsi süni intellektin dövlət xidmətlərinin təşkili modellərinə təsirinə müsbət bir örnəkdir. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "İnnovasiyalar Mərkəzi" tərəfindən 2 dekabr 2025-ci il tarixdə təqdim edilən ASAN Süni İntellekt Mərkəzi (ASAN AI Hub) dövlət qurumlarının süni intellekt əsaslı həllərin adaptasiyası üzrə çevikliyinə daha bir nümunədir. Burada əsas məqsədlər süni intellekt sahəsində fərqli aktorları (tədqiqatçılar, dövlət qurumları, özəl sektor və fərdi istifadəçilər kimi) inteqrasiya edilmiş rəqəmsal platformada birləşdirmək, texnoloji problemlərin və təşkilatların qarşılaşdıqları çağırışların süni intellekt əsaslı həllini təmin etmək və ölkədə innovasiyaları dəstəkləməkdir. Bütün bu fəaliyyətlərin son benefisiarları isə təbii ki, inklüziv əsaslarla ölkənin bütün vətəndaşları olacaqdır. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON) şirkətlərindən olan Milli Süni İntellekt Mərkəzi (MSİM) ölkəmizdə süni intellekt sahəsində tədqiqat və inkişafı təşviq edir. Mərkəz süni intellekt texnologiyalarının tətbiqi ilə rəqəmsal transformasiyanı sürətləndirməyi hədəfləyir.

Dövlət idarəçiliyində süni intellekt tətbiqi çərçivəsinin mikro səviyyəsi dövlət qurumlarında çalışan və onlarla qarşılıqlı əlaqədə olan vətəndaşların fərdi davranışlarına təsiri ilə bağlıdır. Azərbaycan dövləti dövlət məmurlarının gündəlik fəaliyyətində daha optimal qərarların qəbulu üçün süni intellektin tətbiqini strateji hədəf olaraq müəyyən etmişdir. Eyni zamanda süni intellektin vətəndaşlar və dövlət qulluqçularına təsiri ilə bağlı mütəmadi olaraq tədqiqatlar aparılır, təsirlərlə yanaşı, yeni bilik və bacarıq ehtiyacları müəyyən edilir, mütəmadi təlimlərlə bu biliklərin və bacarıqların transferi həyata keçirilir. Nümunə olaraq Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "İnnovasiyalar Mərkəzi"nin ASAN AI Hub platforması tərəfindən dövlət qurumlarında çalışan mütəxəssislər üçün təşkil edilmiş süni intellekt üzrə ixtisaslaşmış təlimləri göstərmək mümkündür. Bu cür təlimlərdə süni intellektin dövlət qurumlarına təsirinin müxtəlif aspektləri əhatə olunmuşdur. Onu da qeyd edək ki, süni intellektin dövlət idarəçiliyinə tətbiqi üzrə ixtisaslı kadr hazırlığının həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası da potensialından və infrastrukturundan istifadə etməklə bu proseslərə töhfəsini verməyə çalışır.

Makro, mezo və mikro səviyyələrdə sadaladığımız istiqamətlərdə süni intellektin tətbiqi üzrə həyata keçirilən önəmli fəaliyyətlərlə yanaşı, önümüzdəki illərdə də strateji xarakterli fəaliyyətlər həyata keçiriləcək. Bunun üçün lazım olan siyasi iradə, strateji baxış və maddi resurslardan istifadə nümunələri Azərbaycan dövləti tərəfindən nümayiş olunmuşdur. Prezident İlham Əliyevin 27 fevral 2026-cı il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" önümüzdəki illər üçün dövlətin öz milli və yerli imkanları ilə süni intellekt modelləri yaratmaq və idarə etmək qabiliyyətini əhatə edən "suveren süni intellekt" konsepsiyasının və dövlət qurumları üçün "süni intellekt indeksi"nin önəmini vurğulayır. Bütün bu strateji trendlər və strateji hədəflər son nəticədə süni intellektin dövlət idarəçilik fəlsəfəsinə və dövlətin təməl funksiyalarına təsirləri üçün empirik tədqiqatların önəmini artıracaqdır. İnsan kapitalının və sosial kapitalın bu yeni dönəmə hazırlanmasına töhfə vermək üçün isə ali təhsil müəssisələri prosesə öz təklifləri ilə daha fəal qoşulmalıdırlar.



*Elnur ƏLİYEV,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

# Görkəmli kriminalist alim

Cinayətkarlıqla mübarizə işi tarixboyu təkcə hüquqi mexanizmlərlə deyil, həm də dərin elmi yanaşmalarla həyata keçirilib. Bu baxımdan kriminalistika sahəsi strateji bir istiqamət kimi hüquq elminin inkişafının bütün dövrlərində xüsusi yer tutub.

Azərbaycanda bu sahənin inkişafı bir çox görkəmli alimin adı ilə bağlıdır. Ölkəmizdə kriminalistika elminin biliciləri sırasında hüquq elmləri doktoru, professor Kamil Nazim oğlu Səlimovun yeri müstəsnadır. O həm fundamental elmi araşdırmaları, həm dövlət səviyyəsində tətbiq olunan ideyaları, həm də kriminalist-hüquqşünas kadrların hazırlanmasında uzunmüddətli zəhməti ilə kriminalistika və terrorçuluğa qarşı mübarizə sahəsində mühüm iz qoymuş alim-pedaqoqlarımızdandır. Kamil müəllim çox təvazökar, sadə bir insandır. Böyük vətəndaş, işıqlı bir ziyalıdır.

## Peşə taleyi

Belə peşəkarlar üçün sənət seçimdən daha çox tale işidir. Bu, ömrün uşaqlıq çağlarından başlanan və heç zaman insanı tərk etməyən sevgidir. Kamil müəllim də köhnə Bakıda, İçərişəhərin qədim qala divarları arasından başlanmış unudulmaz uşaqlıq çağlarından məhz hüquqşünas olmağa, cinayətlərin üstünü açmağa, insanları, cəmiyyəti ziyankarlardan qorumağa çalışırdı.

O, 12 aprel 1956-cı ildə Bakıda ziyalı ailəsində anadan olub. Babası Muxtar kişi İçərişəhərin nüfuzlu ağsaqqallarından idi, uzun illər Bakının neft mədənlərində usta işləmişdi. Atası Nazim Səlimov Azərbaycanın yüngül sənaye sisteminin qurucularından sayılırdı. 40 ildən çox bu sahədə müxtəlif rəhbər vəzifələrdə çalışmış, ölkənin iqtisadi inkişafındakı əhəmiyyətli nailiyyətlərinə görə dəfələrlə yüksək dövlət mükafatlarına layiq görülmüşdü. Anası Məryəm xanım evdar qadın idi, övladlarının təhsil və tərbiyəsində ailənin mənəvi dayaqlarından biri kimi onun böyük rolu vardı.

Kamil müəllim 1973-cü ildə Bakıdakı 18 nömrəli orta məktəbi bitirərək Azərbaycan Dövlət Universitetinin ( indiki Bakı Dövlət Universitetinin) Hüquq fakültəsinə daxil olmuş, 1974-1979-cu illərdə burada təhsil almışdı. Əmək fəaliyyətinə hələ tələbəlik illərində - 1974-cü ildə Azərbaycan SSR Ədliyyə Nazirliyi nəzdində fəaliyyət göstərən Məhkəmə Ekspertiza Mərkəzində laborant kimi başlamışdır. BDU-nu bitirdikdən sonra isə elmi fəaliyyəti ilə yanaşı, 1979-cu ildə təyinatla 4 nömrəli Vəkil Məsləhətxanasında fəaliyyət göstərmişdi. 1984-cü ildə Azərbaycan SSR Vəkillər Kollegiyasının sədr müavini seçilmiş, bu vəzifəni 1987-ci ilə qədər icra etmişdir.

## Böyük elmə doğru

Elmi fəaliyyətə olan marağı onu SSRİ Prokurorluğunun Cinayətkarlığın Səbəblərinin Tədqiqi və Qarşısının Alınması Tədbirlərinin İnkişafı üzrə Ümumittifaq Elmi-Tədqiqat İnstitutunun aspiranturasına gətirmiş və orada 1987-ci ildə "Tikinti materiallarının əldə edilməsi qaydalarının pozulmasına görə cinayət məsuliyyəti" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etmiş, elə həmin il BDU-nun Hüquq fakültəsinin Kriminalistika və məhkəmə ekspertizası kafedrasında müəllim kimi fəaliyyətə başlamışdır.

Daha sonra - 2000-ci ildə Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin Elmi-Tədqiqat İnstitutunda "Terrorizmin müasir problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək hüquq elmləri doktoru elmi dərəcəsini almışdır. 1995-ci ildə dosent, 2010-cu ildə isə professor elmi adına layiq görülmüşdür.

1992-ci ildən Bakı Dövlət Universitetinin Kriminalistika və məhkəmə ekspertizası kafedrasına rəhbərlik edən Kamil Səlimov bu müddət ərzində kafedranın inkişafına mühüm töhfələr vermişdir. Onun rəhbərliyi ilə tədris prosesinə yeni fənlər daxil edilmiş, xüsusilə "Əməliyyat-axtarış fəaliyyəti" kursunun tətbiqi ölkəmizdə hüquq təhsilinin keyfiyyətini əhəmiyyətli dərəcədə artırmışdır.



Kafedranın əməkdaşlıq əlaqələrini inkişaf etdirərək ixtisaslararası mütəxəssislərin hazırlanması istiqamətində əldə etdiyi nəticələr də professorun mühüm nailiyyətlərindəndir. Belə ki, ilk olaraq Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin İnformatika kafedrası ilə Kriminalistika və məhkəmə ekspertizası kafedrası arasında əməkdaşlıq başlamış, "Rəqəmsal kriminalistika" üzrə magistr proqramı hazırlanmışdır. "Rəqəmsal kriminalistika" fənninin müasir dövrümüzdəki rolunu nəzərə alaraq bakalavr təhsil pilləsi üçün də müvafiq proqram hazırlanmışdır.

Fundamental elmlər sahəsində, xüsusən molekulyar genetikada əldə olunan müasir nailiyyətləri nəzərə alaraq, kafedra BDU-nun Genetika kafedrası ilə birgə "Molekulyar kriminalistika" adlı fənlərarası tədris proqramını da tərtib etmişdir.

## Beynəlxalq terrorizmə qarşı elmi müstəvidə mübarizə

Professor Kamil Səlimovun elmi fəaliyyəti yalnız nəzəri tədqiqatlarla məhdudlaşmır. O, terrorçuluğa qarşı mübarizə sahəsində Azərbaycanda elmi məktəbin formalaşmasının əsas təşəbbüskarlarındandır. K.Səlimov terrorçuluqla bağlı araşdırmalarının nəticələrini 1988-ci ildən başlayaraq 30-dan artıq dövlətdə, o cümlədən ABŞ-də, Almaniyada, İsveçrədə, Fransada, İtaliyada və digər dövlətlərdə keçirilmiş beynəlxalq konfranslarda, simpoziumlarda, seminarlarda, digər elmi tədbirlərdə təqdim etmiş, dövlətlərin terrorçuluğa qarşı mübarizə siyasətinin təkmilləşdirilməsi istiqamətində mühüm elmi işlər görmüşdür.

O, erməni terrorizminin və uzun illər Ermənistanın terrorizmə əsaslanmış dövlət siyasətinin beynəlxalq cinayət kimi qiymətləndirilməsi və onun təşkilatçıları barədə sanksiyaların tətbiq edilməsinə dair konkret təkliflər də irəli sürmüşdür. 1999-cu ildə Moskvada çap olunmuş "Terrorizmin müasir problemləri" adlı monoqrafiyasında Qarabağda separatçıların fəaliyyətini beynəlxalq terrorizmin bir növü kimi elmi şəkildə əsaslandırmışdır. Bu monoqrafiya MDB məkanında ilk elmi tədqiqatlardan biri kimi 2000-ci ildə təkrar nəşr edilmişdir. Bu monoqrafiyada müəllif beynəlxalq hüququn təhlili əsasında ilk dəfə sübut etmişdir ki, Azərbaycanda, o cümlədən Gürcüstanda və Dnestryanı bölgədə separatçı terrorizm beynəlxalq terrorizmin bir formasıdır. Monoqrafiyada dövlət terror siyasətinin həyata keçirilməsinin xüsusiyyətləri də əks olunmuşdur.

Kamil Səlimovun erməni terrorizmi ilə bağlı Rusiyada nəşr olunan kitabları şübhəsiz ki, Moskvadakı erməni diasporunun böyük müqaviməti ilə rastlaşmışdı. Amma professor bu nəşrlərin erməni xalqına qarşı deyil, milli ideyalar adı altında suveren dövlətin ərazisini ələ keçirməyi hədəfləyən, bu məqsədlə beynəlxalq cinayətlər törədən millətçi separatçı terrorçulara və erməni rəhbərliyinin aqressiv siyasətinə qarşı yönəldildiyini əsaslandırmışdır.

Məlum olduğu kimi, hələ Sovet İttifaqının mövcud olduğu dövrdə - 1986-cı ildə ermənilər azərbaycanlılara qarşı terror aktları törətmiş, bu aktlar Ermənistan ərazisində daha da genişləndirilməklə yerli azərbaycanlı əhalinin etnik təmizlənməsi ilə müşayiət olunmuşdur. Təkcə 1987-1990-cı illərdə Ermənistanda 1500-dən çox azərbaycanlı mülki şəxs öldürülmüşdür. Keçmiş SSRİ Prokurorluğunun məlumatlarına görə, 1988-1989-cu illərdə Ermənistan SSR-də millətçi motivlərlə törədilmiş cinayətlər üzrə 675 iş açılmış, onlardan 283-ü istintaq üçün Azərbaycana göndərilmişdir.

1990-2000-ci illər ərzində isə Azərbaycan ərazisində baş vermiş 387 terror aktı nəticəsində 2 mindən çox mülki şəxs həyatını itirmişdir. Həmin dövrdə SSRİ və müttəfiq respublikalarının qanunvericiliyində terrorçuluq üçün xüsusi cinayət məsuliyyəti nəzərdə tutulmamışdı. Buna görə Azərbaycan dövləti erməni terrorçularının hərəkətlərini beynəlxalq cinayətlər kimi təqdim etməkdə ciddi çətinliklərlə üzləşirdi. Bu istiqamətdə professor Kamil Səlimovun gördüyü işlər tarixi əhəmiyyət daşıyır. Onun qlobal əhəmiyyətli elmi tədbirlərdəki ardıcıl çıxışları, təqdim etdiyi tutarlı müddəalar sayəsində bir çox beynəlxalq ekspert azərbaycanlı alimin arqumentlərini qəbul etməli olmuşdur. Bu, Azərbaycanın həyata keçirdiyi informasiya savaşında çox mühüm bir məqam idi.

## Kamil Səlimov məktəbi

Elmi-pedaqoji fəaliyyət sahəsində də Kamil Səlimov böyük uğurlara imza atmış, məşğul olduğu sahədə öz məktəbini yaratmağa nail olmuşdur. Onun rəhbərliyi ilə 2 elmlər doktoru, 17 fəlsəfə doktoru hazırlanmış, 100-ə yaxın magistr dissertasiyası müdafiə edilmişdir. Görkəmli alim hazırda da Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvüdür.

Professor K.Səlimov 8 monoqrafiyanın, 6 dərsliyin, 19 dərs vəsaitinin, 1 tədris praktiki vəsaitin, 1 metodik göstərişin, 1 metodiki vəsaitin, 137 məqalənin, 28 tezisin, 20-dən çox proqramın müəllifidir. Azərbaycanda və dünyada məruzəçi kimi çıxış etdiyi elmi konfransların sayı 56-dan çoxdur. Onun "Kriminalistika", "Məhkəmə ekspertizası", "Əməliyyat-axtarış fəaliyyətinin əsasları" kimi dərslikləri bu gün də hüquq təhsilində əsas mənbələrdən hesab olunur. Görkəmli alimin "Terrorçuluq cinayətlərinin istintaq metodikası", "Sifarişli qətllərin araşdırılması" və digər əsərləri həm nəzəri, həm də praktik baxımdan böyük əhəmiyyət daşıyır. O, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında 2007-ci ildə yaradılmış Cəzaçəkmə Müəssisələrinə İctimai Nəzarət Komitəsinin sədridir.

Professor Kamil Səlimovun fəaliyyəti dövlət və cəmiyyət tərəfindən daim yüksək qiymətləndirilmişdir. O, 2009-cu ildə "Tərəqqi" medalı ilə təltif olunmuş, eləcə də təhsil və hüquq elminin inkişafına verdiyi töhfələrə görə müxtəlif mükafatlara layiq görülmüşdür. Azərbaycanda hüquq elminin inkişafı üzrə Milli Strategiyanın və dövlət proqramının hazırlanaraq həyata keçirilməsi sahəsində göstərdiyi xidmətlərə görə fəxri fərmanla, təhsil sahəsində əldə etdiyi uğurlara görə 2018-ci ildə Təhsil Nazirliyinin "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı ilə, 2019-cu ildə BDU-nun 100 illiyi yubiley medalı ilə təltif olunmuşdur.

Professor Kamil Səlimov məhsuldar elmi-pedaqoji, ictimai fəaliyyəti ilə yanaşı, insani keyfiyyətləri, şəxsiyyət meyarları ilə də çoxlarına örnəkdir. O, çalışqanlığı, prinsipiallığı, tələbələrinə, həmkarlarına diqqət və qayğısı ilə nümunə yaradır, bütün bu keyfiyyətləri ona böyük rəğbət doğurur.

Görkəmli kriminalist alim, hüquq elmləri doktoru, professor Kamil Nazim oğlu Səlimov ömrünün 70-ci baharını yaşayır. Bu yaş yalnız onun ömrünün bir mərhələsini simvolizə etmir, eyni zamanda Azərbaycan hüquq elminə, xüsusən də kriminalistika sahəsinə verdiyi misilsiz töhfələrin təntənəli bir xülasəsidir. Kamil müəllimin bilik və təcrübəsi, terrorçuluğa qarşı mübarizədə göstərdiyi prinsipial mövqe və dövlətçiliyə bağlılığı onu həm ölkəmizdə, həm də beynəlxalq aləmdə nüfuzlu alim və hörmətli şəxsiyyət kimi tanıtdırır. Onun yaratdığı elmi məktəb, apardığı araşdırmalar və həyata keçirdiyi təşəbbüslər gələcək nəsillərə örnək olacaq, kriminalistika elminin inkişafında qızıl hərflərlə yazılmış bir irs olaraq qalacaqdır.

*Alış QASIMOV,*
*Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının müdiri, hüquq elmləri doktoru, professor*

# 7000 illik möcüzə: Nuhun duzunda gizlənən şəfa kodları

Naxçıvan duzu, sadəcə, bir qida əlavəsi deyil, bu torpağın tarixi, mədəniyyəti və iqtisadiyyatının sütunlarından biridir. "Nuhun duzu" olaraq adlandırılan bu mineral minilliklər boyu bölgənin geosiyasi əhəmiyyətini təsdiq edən əsas faktor sayılır. Arxeoloji tədqiqatlar göstərir ki, Naxçıvanda duz çıxarılması tarixi təxminən e.ə. V minilliyə qədər uzanır. Dünyanın ən qədim duz mədənlərindən biri hesab olunan "Duzdağ" hələ Daş dövründə insanların bu minerala olan ehtiyacını ödəmişdir.

1970-ci illərdə və 2000-ci illərin sonunda aparılan qazıntılar zamanı mədənlərdən Neolit və Tunc dövrlərinə aid daş baltalar, çəkiclər və gil qablar tapılmışdır. Orta əsrlərdə Naxçıvan duzu böyük İpək yolu vasitəsilə Yaxın Şərq ölkələrinə daşınmış, "ağ qızıl" kimi ticarət dövriyyəsində əsas yer tutmuşdur. Fransız səyyahı Jan Batist Tavernye XVII əsrdə Naxçıvandan keçərkən buradakı duz mədənlərinin miqyasına və keyfiyyətinə heyran qaldığını qeyd etmişdir.

Naxçıvanın duz ehtiyatları əsasən "Duzdağ" yatağında cəmləşmişdir. Bu yatağın geoloji quruluşu və duzun tərkibi onu digər mədənlərdən fərqləndirir. Naxçıvan duzu daş duz (halit) qrupuna aiddir. O, milyonlarla il əvvəl mövcud olmuş qədim dənizlərin quruması nəticəsində formalaşmışdır. Digər dəniz və ya göl duzlarından fərqli olaraq, buradakı duz tamamilə təbiidir və tərkibində ağır metallar yoxdur.

Bu gün Naxçıvan duzu həm sənaye üsulu ilə çıxarılaraq süfrələrimizə gəlir, həm də turizm və səhiyyə sahəsində Azərbaycanın vizit kartına çevrilir. Qədim mədənlərin divarlarındakı hər bir balta izi bu torpağın insanının təbiətlə minillik mübarizəsinin və harmoniyasının sübutudur.

Lakin son zamanlar Naxçıvanda duz istehsalının həcmində və strukturunda ciddi dəyişikliklər və durğunluqlar müşahidə olunur. Bu vəziyyət bir neçə iqtisadi, texniki və logistik amillə izah olunur. Qeyd edək ki, Naxçıvan duz mədənlərində uzun illər boyu köhnə, sovet dövründən qalma texnologiyalar tətbiq edilirdi. Bu metodlar həm məhsuldarlığı aşağı salır, həm də duzun saflıq dərəcəsini (yodlaşdırma və təmizləmə prosesini) müasir standartlara çatdırmağa mane olurdu. Son illərdə istehsalın müvəqqəti azalması müəssisələrin yenidən qurulması və daha müasir avadanlıqlarla təchiz edilməsi planları ilə izah olunur.

Qeyd edək ki, dünya bazarında və ölkə daxilində duza olan tələblər dəyişib. İndi istehlakçılar daha çox rafinə olunmuş (tam təmizlənmiş) və yüksək keyfiyyətlə paketlənmiş məhsula üstünlük verirlər. Naxçıvanda istehsal olunan duzun bir hissəsi daha çox sənaye və heyvandarlıq üçün nəzərdə tutulurdu. Süfrə duzu seqmentində rəqabətə davam gətirmək üçün istehsal xətlərinin tam yenilənməsi prosesi getməlidir.

## "Duzdağ"ı Bakıya "daşımaq" şəfanı öldürürmü?

Naxçıvan duz mədənləri daxilindəki mikroiqlim unikal müalicəvi xüsusiyyətlərə malikdir. Bu cəhət 1979-cu ildən fəaliyyət göstərən "Duzdağ" Fizioterapiya Mərkəzinin yaradılmasına səbəb olmuşdur. "Duzdağ"da natrium və xlor ionları ilə zəngin olan hava, tənəffüs yolları xəstəlikləri (astma, bronxit) üçün təbii dərmandır. Mağaralarda ilboyu temperatur 18-20° C arasında, rütubət isə sabit qalır.

Son zamanlar Naxçıvan duzunun istehsalındakı durğunluq bu sahədəki daha ciddi problemi gündəmə gətirmişdir. Belə ki, Naxçıvan "Duzdağ"ı parçalanaraq Bakıya aparılır və orada süni "Duzdağ" mərkəzləri yaradılır.

Naxçıvandan Bakıya gətirilən təbii duz blokları ilə süni "duz otaqları"nın yaradılması həm tibbi, həm də etik baxımdan ciddi müzakirə mövzusu yaradır.

Qeyd etmək lazımdır ki, Naxçıvandakı "Duzdağ" Fizioterapiya Mərkəzinin müalicəvi gücü təkcə duzun tərkibində deyil, bir neçə təbii amilin vəhdətindədir.



Təbii ionlaşma: Mağarada duz layları yerin dərinliklərində, yüksək təzyiq və təbii rütubət altında ionlaşır. Süni otaqlarda bu mühiti yaratmaq üçün xüsusi cihazlardan (halogeneratorlar) istifadə olunur ki, bu da təbii ionlaşmanı tam əvəz etmir.



Hava kütləsi: Mağaranın daxilindəki hava sirkulyasiyası və atmosfer təzyiqi sabitdir. Bakıda qurulan otaqlarda isə bu təzyiqi və havanın sterilliyini eyni səviyyədə saxlamaq texniki baxımdan çox çətindir.

Həcm faktoru: Mağaranın divarlarındakı duz kütləsi milyonlarla tondur, kiçik bir otağa vurulan duz panelləri isə eyni molekulyar sıxlığı təmin edə bilmir.

Ekoloji və etik tərəfi: "Duzdağ"ın "parçalanaraq" daşınması ifadəsi, əslində, bu təbii sərvətin yerində qorunması prinsipinə tam ziddir.



Əgər duz blokları mağaranın strukturuna zərər verəcək şəkildə sökülürsə, bu, gələcəkdə "Duzdağ"ın UNESCO-ya namizədlik prosesinə mənfi təsir göstərə bilər.

Naxçıvan duzunun brendindən istifadə edərək Bakıda mərkəzlər açmaq iqtisadi baxımdan gəlirli olsa da, bu, bəzən insanlarda "yerinə getməyə ehtiyac yoxdur" təəssüratı yaradır və Naxçıvanın sağlamlıq turizminə ciddi zərər vurur. Nəticə olaraq, Naxçıvan "Duzdağı"ndan qoparılan parçalarla Bakıda qurulan mərkəzlər yüngül tənəffüs yolları təmizlənməsi üçün alternativ ola bilər, lakin onlar Naxçıvandakı mağaranın yerini və klinik effektini tam verə bilməz. Çünki tibbi dildə desək, mağara "müalicə", otaq isə "terapiya və ya relaksasiya" mərkəzidir.

## "Duzdağ": parçalanan tarix, yoxsa qlobal şəfa brendi?

Naxçıvan "Duzdağı"nın UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilməsi mövzusu həm texniki, həm də prosedural məqamlarla bağlı olan çoxşaxəli bir məsələdir. UNESCO-nun Ümumdünya İrsi siyahısına düşmək üçün abidənin "İlkin Siyahı"ya (Tentative List) daxil edilməsi əsas şərtdir.

Azərbaycan 2023-cü ildə "Duzdağ mədənləri"ni UNESCO-nun İlkin Siyahısına daxil etmək üçün rəsmi müraciət hazırlamış və bu məqsədlə genişmiqyaslı tədqiqatlar aparılmışdır. Bu, əsas siyahıya gedən yolun ilk və ən vacib pilləsidir. UNESCO bir obyekti siyahıya salmaq üçün ondan "Görkəmli Universal Dəyər" (Outstanding Universal Value) tələb edir. "Duzdağ" üçün bu dəyər Arxeoloji tərəfi (E.ə. V minilliyə aid duzçıxarma texnologiyası) və Geoloji tərəfi ( Unikal duz layları) təşkil edir. Bu dəyərlərin beynəlxalq ekspertlər tərəfindən tam şəkildə sənədləşdirilməsi və digər dünya duz mədənləri (məsələn, Polşadakı Veliçka mədəni) ilə müqayisəli analizi də zəruridir.

UNESCO-nun tələblərindən biri də abidənin ətrafında ciddi mühafizə zonasının olması və gələcəkdə onun necə qorunacağına dair "İdarəetmə planı"nın təqdim edilməsidir. "Duzdağ" həm aktiv hasilat sahəsi, həm də müalicə mərkəzi olduğu üçün bu funksiyaların mədəni irsin qorunması ilə necə uzlaşacağı dəqiq işlənilməlidir.

Hər bir ölkənin hər il əsas siyahı üçün təqdim edə biləcəyi nominasiya sayı məhduddur. Azərbaycan son illərdə Xınalıq və Köç yolu, Şəki Xan sarayı kimi abidələrin salınmasına prioritet vermişdir. Növbəti mərhələlərdə "Duzdağı"n əsas namizəd olması arzuedilləndir.

"Duzdağı"n UNESCO üçün üstünlükləri onun dünyada ən qədim sənaye tipli duz mədəni kimi qəbul olunması və bu mədənin antik dövrün ticarət yollarının mərkəzində yerləşdiyi üçün qlobal mədəniyyət tarixi üçün transmilli əhəmiyyətidir. Onun UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil olması obyektin dondurulması və ya fəaliyyətinin dayandırılması demək deyil. Əksinə, abidənin UNESCO tərəfindən "yaşayan irs" kimi fəaliyyətinin dəstəklənməsidir. "Duzdağ" bu siyahıya düşərsə, müalicə mərkəzi kimi istifadə qaydalarında bəzi fundamental dəyişikliklər qaçılmaz olacaq.

UNESCO-nun əsas tələbi abidənin "autentikliyi" (əslliyi) və bütövlüyüdür. Müalicə mərkəzini genişləndirmək üçün mağara divarlarını dağıtmaq, müasir beton konstruksiyalar qurmaq və ya təbii görünüşü pozan süni havalandırma sistemləri quraşdırmaq qadağan edilə bilər. Mağaranın daxili iqlimini (mikroklimatını) qorumaq üçün eyni anda içəridə ola biləcək pasiyent və turist sayı ciddi şəkildə limitlənə bilər. İnsan nəfəsi və bədən hərarəti mağaranın rütubətini dəyişdiyi üçün bu, elmi əsaslarla tənzimlənməlidir.

Əgər "Duzdağ" siyahıya "mədəni landşaft" və ya "sənaye irsi" kimi daxil edilərsə, onun ənənəvi istifadə forması (yəni həm duz çıxarılması, həm də müalicəvi tətbiqi) irsin bir hissəsi hesab olunacaqdır. Məsələn, Polşadakı Veliçka (Wieliczka) duz mədəni həm UNESCO siyahısındadır, həm də orada aktiv şəkildə sanatoriya, hotel və yeraltı kilsə fəaliyyət göstərir. Bu, dünya praktikasında uğurlu bir nümunədir.

"Duzdağ" UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil olduqdan sonra müalicə prosesi beynəlxalq ekspertlərin nəzarəti altında olacaqdır ki, bu da mağaranın divarlarındakı qədim balta izləri və arxeoloji qatların pasiyentlərin hərəkəti nəticəsində zərər görməməsi üçün xüsusi keçid yolları (platformalar) qurulmasını zəruri edəcəkdir. Mağarada müalicə alacaq pasiyentlərin istifadə etdiyi yataqlar və tibbi avadanlıqlar mağaranın tarixi atmosferinə xələl gətirməməlidir.

UNESCO statusu Naxçıvan "Duzdağı"nı dünya miqyaslı bir brendə çevirəcəkdir. Bu məqam bura gələn xarici turistlərin və pasiyentlərin sayının kəskin artmasına təkan verməklə, fizioterapiya mərkəzinin beynəlxalq sertifikatlı, elit və qorunan bir tibbi-turizm mərkəzi modelinə keçməsini zəruri edəcək. Bu status müalicə mərkəzini istismardan qoruyacaq və daha elmi, daha sistemli idarəetməyə vadar edəcək. Abidənin ömrünü uzatmaqla müalicənin keyfiyyətini artıracaq. UNESCO statusu obyektin ekoloji təmizliyinə və təbiiliyinə verilən ən yüksək beynəlxalq zəmanətdir. Bu, xarici ölkələrdən gələn pasiyentlərin bura "sadəcə bir mağara" kimi deyil, beynəlxalq sertifikatlı müalicə ocağı kimi baxmasına səbəb olacaq.

Pasiyentlər üçün ən vacib olan amillərdən biri mağaranın mikroiqliminin qorunmasıdır. UNESCO-nun monitorinq sistemi mağaradakı havanın tərkibini, rütubətini və duz aerozollarının sıxlığını daim nəzarətdə saxlayacaq. Bu da o deməkdir ki, mağara həddindən artıq yüklənməyəcək və müalicənin keyfiyyəti hər zaman ən yüksək səviyyədə qalacaqdır.

Müalicə tək fizioloji deyil, həm də psixoloji bir prosesdir. 7000 illik tarixi olan, bəşəriyyətin ortaq irsi hesab edilən bir məkanda olmaq pasiyentlərdə daxili bir hüzur və inam yaradır ki, bu da sağalma prosesini sürətləndirən amillərdən biridir. "Duzdağ"ı, sadəcə, bir klinika deyil, "zamanın daxilində şəfa mərkəzi"dir.

*Surə SEYİD,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan*





# Vətən deyəndə...





Ölməzliyə qovuşanlar

## 31 illik həsrətin təskinliyi

**Neftçalanın Aşağı Qaramanlı kəndindəki küçələrdən biri ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş Yaşar Kərimovun adını daşıyır. Küçənin başlanğıcında kiçik məlumat lövhəsi də qoyulub. Lövhədə yazılıb: "Şəhid Yaşar Kərimov küçəsi".**

Şəhərdən fərqli olaraq kənd yerində hamı bir-birini yaxından tanıyır. Ona görə də şəhidin evini tapmaqda elə bir çətinlik çəkmədik. Həyət qapısından addımımızı içəri qoyan kimi şəhidin qardaşı Namiq və anası Şəfiqə xanım ilə qarşılaşdıq. Qısa tanışlıqdan sonra çöldə qoyulmuş masa arxasında oturduq. Şəhid Yaşar Kərimov illər əvvəl bu həyətdə böyümüş, ömür yolu buradan başlamışdı. Elə cəbhəyə də könüllü bu ocaqdan yollanmışdı.

Həmin günlərdən söz açan şəhid anası Şəfiqə Kərimova dedi ki, Birinci Qarabağ müharibəsi başlayanda oğlum könüllü cəbhəyə yollandı: "Bir müddətdən sonra Yaşarın Ağdam istiqamətində vuruşduğunu öyrəndik. Günlər ötüb keçdikcə narahatlığımız artırdı. Vəziyyət gərgin olduğuna görə oğlumdan heç bir xəbər öyrənə bilmirdik. Nigaranlığımıza son qoymaq üçün atası günlərin birində cəbhə bölgəsinə - Ağdama getdi. Həmin gündən gözümüz yollarda, qulağımız səsdə qaldı. Xoş xəbər gözləyirdik. İki gündən sonra cəbhə bölgəsindən qayıdan Yaşarın atası çox kədərli idi. Dediklərindən məlum oldu ki, nə qədər axtarıb soraqlaşsa da, uşağın nə ölüsündən, nə dirisindən bir xəbər öyrənə bilib. Bu kədərli xəbərdən çox sarsıldıq. O gündən gözümüz yollara dikili qaldı.

Gözlərinin yaşını silən Şəfiqə xanım dərindən ah çəkəndən sonra sözünə davam etdi: "Hər gün çıxıb həyət qapısının ağzında oturub oğlumun yolunu gözləyirdim. Bundan başqa əlimdən heç nə gəlmirdi. Hər avtobus, hər maşın dayananda elə zənn edirdim ki, Yaşar gəlir. Amma oğlumdan bir xəbər çıxmırdı. Balamı gözləməkdən gözümün kökü saralmışdı. 1994-cü ildə Qarabağ müharibəsi dayanandan sonra ümid etdik ki, daha müharibə qurtardı, yəqin Yaşar sağ-salamat qayıdar. Amma oğlumdan xəbər çıxmırdı. Bir çox əlaqədar təşkilatlara, rəsmi dövlət orqanlarına müraciət etsək də, balamın taleyindən heç nə öyrənə bilmədik. Amma ümidimizi də üzmürdük.



Ananın gözləri yaşarır, danışa bilmir. Səsindən, baxışlarından kədər süzülürdü. Bir az keçmiş özünə gəlib sözünə davam etdi: "Günlərin birində oğul həsrətinə dözə bilməyən həyat yoldaşım dünyasını dəyişdi. Yazıq kişi Yaşardan nigaran getdi. İkinci Qarabağ müharibəsi başlayanda inanırdıq ki, tezliklə ordumuz torpaqlarımızı işğaldan azad edəcək, itkin düşmüş övladımızdan xəbər çıxacaq. Oğlum sağ-salamat qayıdacaq, gözlərimiz yollardan çəkiləcək. Ümidlərimiz doğruldu. Azərbaycan Ordusu erməni işğalçılarını diz çökdürdü, Qarabağ işğaldan azad olundu. Amma təəssüf ki, oğlumdan yenə bir xəbər çıxmadı. Buna baxmayaraq, həyət qapısının ağzından çəkilmədim. 31 il idi ki, gözlərim oğul həsrətilə yollara dikili qalmışdı. Axır ki, uzun illərdən sonra - 2024-cü il iyul ayının 18-də Yaşarın nəşinin tapıldığı barədə xəbər eşitdik. Bütün kənd camaatının iştirakı ilə oğlumu torpağa tapşırdıq. Artıq gözüm yollardan yığılıb. İndi daha əvvəlki kimi həyat qapısının ağzında oturub yollara baxmıram. Tez-tez gedib balamın məzarını ziyarət edirəm".



Şəhid anasının kədərli söhbətini sonadək dinlədik, ağrı-acısına şərik olduq, dərdini ovutmağa çalışdıq. Həm də şəhid Yaşar Ələkbər oğlu Kərimovun ömür və döyüş yolunu vərəqlədik. Öyrəndik ki, Yaşar Kərimov 1967-ci ildə dünyaya göz açıb. Orta təhsilini doğma kəndindəki məktəbdə alıb. On səkkiz yaşına çatanda keçmiş ittifaq ordusunda xidmətə çağırılıb. Əsgəri borcunu yerinə yetirdikdən sonra doğmalarının yanına qayıdıb. Bir müddət Neftçala Yod-Brom Zavodunda işləyib. Çox keçməyib sevib-seçdiyi qızla ailə həyatı qurub. Bir oğul ovladı dünyaya gəlib, adını el-obaya yaraşdıraraq Elmir qoyub. Onun belə sevinc dolu günləri Qarabağ müharibəsinin gərgin çağlarına təsadüf edib. Azərbaycanın əbədi-əzəli torpaqlarını ələ keçirməyə çalışan erməni işğalçıları dinc insanları öldürür, evləri odlara qalayırdılar. Gündən-günə vəziyyət gərginləşir, ara qarışırdı. Bütün bu ağrı-acılara dözə bilməyən, ürəyi Vətən eşqi ilə döyünən Yaşar 1993-cü ilin iyul ayında könüllü olaraq döyüşlərə yollanır. Onların bölüklərini gərgin döyüşlər gedən Ağdam istiqamətinə aparırlar. Yaşar Kərimov 1993-cü il iyulun 23-də Şelli kəndi uğrunda gedən döyüşlərdə itkin düşür.

Qardaşı Namiq Kərimov dedi ki, qardaşı çox vətənpərvər idi: "Azyaşlı övladını, ailəsini qoyaraq Vətən torpaqlarının müdafiəsinə yollandı. Təəssüflər olsun ki, onun döyüş yolu qısa oldu. Onu tanıyanların dediklərinə görə, Yaşar Ağdamın Şelli kəndini işğal etməyə cəhd göstərən ermənilərə qarşı sonacan cəsarətlə vuruşan əsgərlərin sırasında olub. Uzun illər Yaşarın yolunu gözlədik. Qardaşımın nəşinin tapılması üçün bizdən də, oğlundan da DNT analizləri götümüşdülər. Dövlət strukturları tərəfindən davamlı araşdırmalar aparılırdı. Aparılan araşdırmalar nəticəsində axır ki, Yaşarın nəşi tapıldı. Məlum oldu ki, qardaşım 23 iyul 1993-cü ildə Şelli uğrunda gedən döyüşlərdə şəhid olub. Üstündə sənədləri olmadığına görə onu Bərdə rayonunda naməlum döyüşçü kimi dəfn ediblər. Nəhayət, 2024-cü ilin iyul ayında də DNT analizləri nəticəsində onun kimliyi və harada dəfn olunduğu müəyyənləşib".

Yaşar Kərimov Aşağı Qaramanlı kənd qəbiristanlığında Müdafiə Nazirliyinin hərbçilərinin yaylım atəşi və Dövlət himninin sədaları altında torpağa tapşırılıb. Onun tabutuna bükülmüş üçrəngli bayraq şəhidin oğlu Elmir Kərimova təqdim olunub. Şəfiqə xanımın isə gözləri yollardan yığılsa da, oğlunun məzarında qalıb.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Qazilərimiz

## Vətən savaşına könüllü getmişdi

**Vaqif Əlizadə Vətən müharibəsinə yollanan ilk könüllülərdəndir. Onunla ilk dəfə Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon şöbəsinin həyətində toplanış zamanı tanış olmuşuq.**



Burada Ermənistan silahlı birləşmələrinin Azərbaycan ərazisinə hücumunun qarşısını almağa, torpaqlarımızı işğaldan azad etməyə gedən yüzlərlə könüllü arasında qeyri-millətlərdən olan gənclər də vardı. Onlardan biri də atası azərbaycanlı, anası rus olan Vaqif Əlizadə idi. O, 1995-ci il sentyabrın 9-u Bakıda anadan olub, 60 nömrəli məktəbi bitirib. 2013-2017-ci illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində ali təhsil alıb, Geoloji kəşfiyyat fakültəsini bitirib. 2017-2018-ci illərdə Şəmkirdə "N" saylı hərbi hissədə əsgəri xidmətdə olub.

Təsadüf elə gətirdi ki, onunla bu günlər yenidən görüşdük. Müharibə onun sağlamlığından yan keçməmişdi. Vaqif deyir ki, müharibəyə Füzulidən başlamışdı: "Mən taborda baş atıcı idim. Döyüşə gəlməyimə, bu torpaqların erməni işğalından azad olunmasında iştirakıma, hətta yeri gəlsə, şəhid olacağıma belə, sevinirdim. Çünki atam Füzulidəndir, söhbətlərində bu yerlərdə ermənilərin onların ailələrinə, həmkəndlilərimizə etdikləri qətliamlar, terror hadisələri barədə o qədər yanğı ilə, intiqam hissilə danışırdı ki, indi doğma torpaqlarda vuruşmaqdan qürur duyurdum. Atamın arzusunu yerinə yetirmək, əzizlərinin intiqamını erməni quldurlarından almaq üçün qorxu hissini tamamilə unutmuşdum".

Vaqifin də tərkibində olduğu hərbi hissə Füzulidən sonra Cəbrayıl istiqamətində hərəkətə keçir. Vaqif sözünə davam edir: "Taborda Dmitri Sonçov, Denis İvanov, Timur (soyadını unutmuşam) və rusəsilli digər könüllülər vuruşurdular. Bir neçə günün ərzində Cəbrayıldakı erməni istehkamlarını, hərbi hissələrini darmadağın etdik, çoxlu hərbi texnika və silah-sursat qənimət götürdük. Məni heyran edən o idi ki, ərazilərimizi erməni silahlı quldurlarından azad etdikcə əsgərlərdə irəliyə getmək, Vətən torpağının hər qarışı uğrunda daha cəsurcasına mübarizə aparmaq həvəsi artırdı".

Cəsur döyüşçü Vaqif Əlizadə Cəbrayılın düşməndən azad edilməsindən sonra Şuşa istiqmətində gedən döyüşlərin iştirakçısı olur. Oktyabrın sonuncu günü yaxınlığına qəfil düşən mərmidən bir neçə döyüşçü yoldaşı həlak olur, Vaqif isə huşunu itirir, hər iki qulağının pərdəsi dağılır. Əsgər yoldaşları onu tibb məntəqəsinə çatdırırlar, burada ona ilkin tibbi yardım göstərilir. Lakin vəziyyəti ağır olduğundan oradan Füzuli rayonu ərazisindəki Əhmədbəyli hospitalına gətirilir. Vaqif burada bir neçə gün müalicə aldıqdan sonra Bakıdakı hərbi hospitala göndərilir. İlk günlər anlamsız olan Vaqif həkimlərin sayəsində özünə gəlir, tam müalicə olunur.

Qazi Vaqif Əlizadə Vətən müharibəsində göstərdiyi şücaətlərə görə "Cəbrayılın azad edilməsinə görə" və "Şuşanın azad edilməsinə görə" medalları ilə təltif edilir. Hazırda Bakıda aparıcı şirkətlərin birində çalışır. Qorxmaz döyüşçü işdə də məsuliyyətli və ciddidir. Həmişə üzərinə düşən işi vaxtında və keyfiyyətlə yerinə yetirməyə çalışır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

Tarix yazan oğullar

## Şəhidlik əbədi ömrün başlanğıcıdır

**Vətən sevgisi insanın ruhunda kök salan, zamanın sınaqlarından keçərək möhkəmlənən ən ali duyğulardandır. Vətən sevgisi sadəcə sözdə deyil, əməldə, fədakarlıqda, canını Vətən yolunda qurban verməkdə özünü göstərən bir hissdir.**

Uzun illər boyu Qarabağın bir hissəsinin işğal altında qalması xalqımızın yaddaşına ağrı-acılı tarix kimi yazılsa da, ümidsizlik hissi hakim ola bilmədi. Ədalətə olan inam illər keçdikcə xalqın qəlbində bir amal, məqsəd kimi böyüdü. Nəhayət, 2020-ci ildə baş verən və tariximizə qızıl hərflərlə yazılan Zəfər xalqımızın iradəsini, ordumuzun gücünü və Vətən oğullarının misilsiz qəhrəmanlığını dünyaya nümayiş etdirdi. Bu Zəfər təkcə torpaqların azadlığı deyildi, həm də milli qürurun, ləyaqətin, ədalətin bərpası idi. Məhz bu müqəddəs savaşda minlərlə igid oğul Vətən uğrunda canından keçərək adını tarixə əbədi yazdırdı. Onların hər birinin əziz xatirəsi xalqımızın qəlbində yaşayan bir qəhrəmana, azadlığımızın canlı simvoluna çevrildi. Belə qəhrəmanlardan biri də Zeynal Alim oğlu Zülfüqarlıdır.



O, 1995-ci il mayın 31-də Şirvan şəhərində dünyaya göz açıb. Vətən sevgisi ilə böyüyən, torpağa bağlılığı ilə seçilən Zeynal gənc yaşlarından hərbi qulluğa böyük maraq göstərib. Azərbaycan Ordusunda kiçik gizir kimi xidmət edərkən özünü intizamlı, cəsarətli və etibarlı döyüşçü kimi təsdiq edən Zeynal Zülfüqarlı 2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsi zamanı ön cəbhədə vuruşaraq Cəbrayıl, Füzuli və Xocavənd istiqamətlərində gedən ağır döyüşlərdə iştirak edib.

Döyüşlərin ən gərgin anlarında belə geri çəkilməyi düşünməyən, hər zaman irəli atılan Zeynal silahdaşları arasında cəsarəti və soyuqqanlılığı ilə seçilirdi. Fasiləsiz davam edən döyüşlərdə Zeynalın yalnız bir arzusu var idi - Vətəni azad görmək. Xocavənd rayonu düşmən üçün xüsusi strateji əhəmiyyət daşıyırdı. Bu ərazidə qurulan keçilməz istehkamlar, mövqe üstünlüyü və ciddi müqavimət döyüşlərin gedişini daha da çətinləşdirirdi. Bir məsələ var idi, düşmən bunu unutmuşdu - Azərbaycan Ordusunun iradəsi və döyüş ruhu bütün bu maneələrdən daha güclü idi. Səngərlərin, yüksəkliklərin və keçilməz sayılan mövqelər uğrunda gedən ağır döyüşlərdə hər bir əsgərimiz əsl qəhrəmanlıq nümunəsi göstərirdi. Ön cərgədə irəliləyən igidlərdən biri də Zeynal Zülfüqarlı idi.

O, döyüşlərin ən gərgin anlarında belə geri çəkilmək barədə düşünməyərək son ana qədər silahını yerə qoymadı. Ətrafında mərmilərin partladığı, torpağın alova büründüyü anlarda belə yalnız bir məqsəd - Vətənin azadlığı uğrunda döyüşdü. Təəssüf ki, oktyabrın 20-də Xocavənd istiqamətində gedən qanlı döyüşlər zamanı Zeynal döyüş tapşırığını yerinə yetirərkən şəhid oldu. Amma bu, təkcə bir əsgər ömrünün sonu yox, bir qəhrəmanın ömrünün başlanğıcı idi.

Döyüş yoldaşlarının xatirələrində Zeynal daim ön sırada gedən, çətin anlarda belə ruhdan düşməyən, əksinə, ətrafındakılara güc verən bir döyüşçü kimi qaldı. Hər addımında hiss olunan Vətən sevgisi, qorxunu dəf edən qətiyyəti və sona qədər mübarizə aparmaq əzmi Zeynalı fərqləndirən əsas xüsusiyyətlər idi. O, sadəcə döyüşən əsgər yox, həm də ətrafına inam və iradə aşılayan bir qəhrəman idi.

Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında göstərdiyi igidlik və şücaətə görə Prezident İlham Əliyevin sərəncamları ilə Zeynal Zülfüqarlı ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə, eləcə də III dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib.

Bu gün Zeynal Zülfüqarlı kimi qəhrəmanların adı artıq xatirələrdə, xalqın yaddaşında, azad edilmiş torpaqların hər qarışında yaşayır. Onların canı bahasına qazanılan Qələbə Azərbaycanın tarixində yeni - qürur, ləyaqət və milli birlik səhifəsi açdı. Zeynal kimi minlərlə igidin göstərdiyi şücaət bizə bir həqiqəti də xatırladır: torpaq yalnız onun uğrunda canından keçənlərin sayəsində Vətən olur. Bu gün azad səmalarda dalğalanan bayrağımız, işğaldan azad olunmuş şəhər və kəndlərimizə qayıdan həyat qəhrəman oğullarımızın bizə əmanətidir. Bu əmanəti qorumaq isə hər birimizin müqəddəs borcudur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## *Vətən Müharibəsi Qəhrəmanı:* "Mühüd Orucovla tanışlıq əsl zabitliyin nə olduğunu öyrəndiyimiz bir məktəb idi"

**"Mühüd Orucovu mən ilk dəfə Xüsusi Təyinatlı Qüvvələrdə (XTQ) xidmət etdiyimiz bölmədə tanıdım. Bu tanışlıq sadəcə eyni silahı daşıyan iki hərbçinin yolu deyildi, bu, əsl zabitliyin nə olduğunu öyrəndiyimiz bir məktəbin başlanğıcı idi.**



Mühüd zəka ilə iradənin, nizam-intizamla insanlığın nadir vəhdətini özündə birləşdirən zabit idi. O, yalnız peşəkar hərbçi deyildi, öz şəxsi heyətini tanıyan, anlayan və arxasınca aparmağı bacaran komandir idi. Tələbkar idi, amma ədalətli. Sərt idi, amma hər zaman örnək".

Bunu AZƏRTAC-a müsahibəsində Vətən Müharibəsi Qəhrəmanı, XTQ-nin ehtiyatda olan mayoru Zaur Hüseynov deyib.

O, fikirlərinə belə davam edib: "Biz xidmətə yeni gələndə "əsl zabit necə olmalıdır?" sualının cavabını nizamnamələrdən yox, Mühüdün gündəlik davranışından, qərarlarından və münasibətindən öyrənirdik. O, bizim üçün sadəcə böyük rütbəli zabit deyildi, xidmət yolumuzda bir kompas idi.

Təlimlərin maraqlı, dinamik və keyfiyyətli keçməsi üçün daim yeni ideyalar irəli sürərdi. Dediyini özü edərdi. Boş vaxtlarında idman edər, şəxsi heyəti idmana həvəsləndirərdi. Çünki o yaxşı bilirdi ki, fiziki hazırlıq zəifdirsə, döyüşdə iradə də sınar.

Mühüd Orucov Xüsusi Təyinatlı Qüvvələrin döyüş tapşırıqlarını ilk yerinə yetirən zabitlərdən biri idi. Döyüşdə özünü yox, tapşırığı düşünən komandir idi. Elə buna görə də kapitan rütbəsində tabor komandiri olmuş nadir zabitlərdən biri oldu. Bu, onun peşəkarlığının, liderliyinin və şəxsi nüfuzunun açıq göstəricisi idi.

2016-cı ilin Aprel döyüşlərində düşmənin təxribatının qarşısını almaq üçün tabor komandiri kimi Mühüd Orucov da döyüş meydanına atıldı. O, ələ keçirilmiş düşmən postunda şəxsən özü döyüşürdü. Onun heyətində Azərbaycanın Milli Qəhrəmanı Pəncəli Teymurov da vardı.

Düşmən çoxsaylı tanklar və piyada qüvvələri ilə Mühüdün müdafiə etdiyi mövqelərə hücuma keçdi. Tanklar və artilleriya ilə mövqeləri atəş altında saxladılar, piyadalarla basqın etməyə çalışdılar. Lakin Mühüd Orucov öz şəxsi heyəti ilə dəfələrlə bu hücumların qarşısını aldı. Son anda yaralı şəxsi heyətini həmin mövqelərdən uzaqlaşdırdı. Özü isə düşmənlə təkbaşına döyüşərək, son nəfəsinə qədər müqavimət göstərdi və şəhidlik zirvəsinə ucaldı.

Mühüd Orucov rütbəsi ilə yadda qalanlardan olmadı. O, xarakteri ilə xatırlanır. Vəzifə dəyişə bilər, rütbə dəyişə bilər, amma qəhrəmanlıq hər zaman dəyişməz qalır. Mühüd bunu həyatı ilə sübut etdi.

Bu gün Mühüd Orucovun adı kəşfiyyat tariximizdə səssiz, amma möhkəm iz kimi qalır. O iz vicdanla, fədakarlıqla və sədaqətlə yazılıb".

# Məktublar: problemlər, rəylər, təkliflər...



● EHTİRAM

## Vətən sevgisi ilə ürəklərə köçənlərə dərin hörmət





**Azərbaycan hərb tarixinə qızıl hərflərlə yazılan 44 günlük haqq savaşımızda Masallıdan çox sayda gənc Vətənin harayına birincilər sırasında səs verib, yağıya qarşı son damla qanına qədər döyüşüb, şəhidlik zirvəsinə ucalıb.**

Qəhrəmanlıq salnaməsi yazaraq xalqımıza şanlı qələbə yaşadan mərd igidlər rayonumuzda heç vaxt unudulmur. Rayonda kiçik də, böyük də Vətən şəhidlərinin xatirəsini əziz tutmağı, onları yad etməyi özlərinə müqəddəs borc bilirlər. Rayon icra hakimiyyətində isə bu sonsuz ehtiram örnək olası bir ənənə halını alıb. Rayon rəhbərliyi şəhid ailələrini, müharibə əlilləri və iştirakçılarını daim diqqətdə saxlayır, onların qayğılarını öyrənir, yaranan problemin qarşısını almaq üçün tədbirlər görür.

Bu günlər RİH-in başçısı Araz Əhmədov, aparatın Müharibə iştirakçıları və şəhid ailələri ilə işin təşkili sektorunun müdiri Qəşəm Hadiyev, şöbə müdirinin müavini Nahid Həsənov, ərazi nümayəndəsi, bələdiyyə sədri, şəhid ailələri və vətəndaşların iştirakı ilə rayonun Güllütəpə ərazisində şəhidlərin baş qoyduğu müqəddəs yerləri ziyarət edib, qəbirüstü abidələrin önünə tər gül dəstələri düzüblər.

Ziyarət zamanı o da vurğulanıb ki, şəhidlik ən ali zirvədir. Yalnız Vətən, torpaq yolunda canından keçənlər ona sahib olurlar. Bundan böyük şərəf və qürur yoxdur. Qərinələr ötsə belə şəhidlərin adı unudulmayacaq və daim qəlblərdə yaşayacaq. Onların şərəfli ömür yolları gələn nəsillər üçün örnək olacaq.

Şəhidlərin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə, ziyarətdə iştirak edən hər kəsə razılıqlarını bildiriblər.

**Zəfər ORUCOĞLU**

● MİNNƏTDARLIQ

## Müraciətlərimizə diqqətlə yanaşılır

**Ağstafanın Saloğlu qəsəbəsi son illər nəzərəçarpacaq dərəcədə abadlaşıb, inkişaf edib. Rayon icra hakimiyyəti başçısının qəsəbədə keçirdiyi görüşlərdə qaldırılan bütün məsələlər demək olar ki, öz həllini tapır.**

Son illər qəsəbəmizdə "Şəhidlər bulağı" inşa edilmiş, yararsız elektrik dayaqları yenisi ilə əvəz olunmuş, subartezian quyusu təmir edilmişdir. Bundan başqa, qəsəbənin əkin sahələrini suvarmaq üçün metal boru dəyişdirilmiş, qəsəbə daxilində suvarma arxlarında təmizləmə işləri aparılmış, pay torpaqlarına gedən yolda su keçidi quraşdırılmış, "Orta məhəllə" adlandırılan əraziyə içməli su xətti çəkilmişdir. Bu yaxınlarda isə qəsəbə qəbiristanlığı abadlaşdırılmışdır. Rayon rəhbərliyi ilə keçirilən növbəti görüşdə sakinlər tərəfindən qaldırılan vacib bir məsələ də həllini tapmışdır - qəsəbəyə gedən yolun təmirinə başlanılmışdır.

Hörmətli redaksiya! Görülən bütün bu işlər sakinlərimizdə yüksək ovqat yaratmışdır. Onlar bu işləri yüksək dəyərləndirir və görülən işlərdə əməyi olan hər kəsə minnətdarlıq edirlər.

**Faiq MƏMMƏDOV,**
**Ağstafa rayonunun Saloğlu qəsəbə sakini**

AZƏRBAYCAN-a cavab verirlər

## "Vətəndaşlar növbəlilik əsasında su ilə təmin olunurlar"

**"Azərbaycan" qəzetinin 27 dekabr 2025-ci il tarixli sayında dərc edilmiş Tovuz rayonu Yuxarı Öysüzlü kənd sakini Zakir Qəşəm oğlu Tağıyevin "Kəndimiz susuz qalıb" adlı müraciətinə cavab olaraq bildiririk ki, həmin ərazilərin suvarma suyuna olan tələbatı Tovuzçay su anbarından çıxan birinci və ikinci pillə nasos stansiyası vasitəsilə və Axıncaçaydan verilən təsərrüfatlararası arx vasitəsilə həyata keçirilir.**

Bildiririk ki, rayonun Yuxarı Öysüzlü kəndində ümumilikdə 795 hektar suvarılan torpaq sahəsi vardır. Həmin torpaq sahəsinin 471 hektarı Tovuzçay su anbarından verilən birinci pillə nasos stansiyası vasitəsilə, 300 hektar torpaq sahəsi Tovuzçay su anbarından verilən ikinci pillə nasos stansiyasından və 24 hektar torpaq sahəsi isə kənd ərazisində fəaliyyət göstərən bir ədəd işlək (istismara yararlı) vəziyyətdə olan subartezian quyusundan verilən suvarma suyu vasitəsilə həyata keçirilir.

Məlumat üçün bildiririk ki, rayonun Əlibəyli, Hacallı, Mülkülü, Yuxarı Öysüzlü kəndlərinə 482 ədəd dəyəri ödənilməyən küçə bulaq kompleksləri çəkilmişdir. Həmin bulaqların təminatı üçün Tovuzçay hövzəsində tikilmiş 6 subartezian quyusu, 1 nasosxana binası, 4 nasos və ümumi tutumu 1000 kubmetr olan 3 su anbarı əhalinin istifadəsinə verilmək üzrədir.

Əlavə olaraq bildiririk ki, yay aylarında havaların isti və quraq keçməsini nəzərə alaraq çay və arxlarda sululuq azaldığına görə, həmin ərazilərin suvarma və içməli su ilə təminatında müəyyən çətinliklər yaranmasına baxmayaraq, vətəndaşlar növbəlilik əsasında həm suvarma, həm də içməli su ilə təmin edilmişdir.

**Təranə BAYRAMOVA,**
**Tovuz RİH başçısının müavini**

● ÖMRÜ ŞƏRƏFLƏ YAŞAYANLAR

## Ağsaqqallıq təkcə yaşla ölçülmür

**Bəzi insanlar var ki, onların ömrü, sadəcə, yaşanmış illərin cəmi deyil, qazanılan hörmətin tarixidir. Zəhməti ilə ucalan, biliyi ilə seçilən, insanlığı ilə sevilən ziyalı Təbrik Müzəffər oğlu Quliyev də məhz belə ömür sahiblərindəndir.**



1946-cı ildə Ordubadda dünyaya göz açmış Təbrik müəllimin taleyinə elm, zəhmət və məsuliyyət yazılmışdı. Aldığı ailə tərbiyəsi, ziyalı mühiti onun gələcək həyat yolunun təməlini möhkəm etdi. Elmə olan marağı onu 1970-ci ildə Azərbaycan Neft-Kimya İnstitutunun (indiki ADNSU) Kimya fakültəsinə gətirdi. Bu, sadəcə, peşə seçimi deyil, gələcək böyük elmi fəaliyyət yolunun başlanğıcı idi.

Ali təhsilini başa vurduqdan sonra təyinatla Sumqayıtda yerləşən Kimya zavodunda əmək fəaliyyətinə laborant kimi başlayan gənc mütəxəssis qısa zamanda öz zəhməti, dəqiqliyi və peşəkarlığı ilə seçildi. 1972-1973-cü illərdə Dünya Gənclər Festivalının istehsalat göstəriciləri üzrə laureatı adını qazanması Təbrikin ilk böyük uğurlarından idi. Ardınca 1983-cü ildə Ümumittifaq Xalq Təsərrüfatı Sərgisinin bürünc medalı, 1984-cü ildə Azərbaycan SSR Dövlət Mükafatı, 1985-ci ildə "İttifaq ixtiraçısı" fəxri adı gəldi. Bu mükafatlar illərin zəhmətinə verilən dəyərin, peşəkarlığın qiyməti idi.

Təbrik müəllimin fəaliyyəti yalnız istehsalatla məhdudlaşmadı. O həm də elmi araşdırmalarla məşğul olaraq 2000-ci ildə kimya elmləri üzrə doktorluq işini uğurla başa çatdırdı. Elm və istehsalatı birləşdirə bilmək hər kəsə nəsib olmur. O isə bu iki sahəni bir-birini tamamlayan qüvvəyə çevirməyi bacardı.

Onun əməyi dövlət tərəfindən də yüksək qiymətləndirilib. 2009-cu ildə "Əməkdar mühəndis" fəxri adına layiq görülüb, 2013-cü ildə SOCAR-ın fəxri fərmanı ilə təltif olunub, 2016-cı ildə isə "Tərəqqi" medalı ilə mükafatlandırılıb. 2019-cu ildə Sumqayıt şəhərinin 70 illik yubileyi ərəfəsində Azərbaycan Prezidentinin fərdi təqaüdünə layiq görülməsi onun şəhərin sənaye və ictimai həyatındakı xidmətlərinə verilən ali qiymətdir.

2011-ci ildən etibarən təqaüdə çıxsa da, o, şəhərin ictimai işlərindən kənarda qalmır. 2022-ci ildə Sumqayıt şəhər Ağsaqqallar Şurasının sədri seçilməsi bir daha göstərdi ki, onun sözü, mövqeyi və təcrübəsi bu gün də dəyərlidir. Ağsaqqallıq, sadəcə, yaş göstəricisi deyil, müdriklik, ədalət və nüfuz deməkdir. Təbrik müəllim bu adı da ləyaqətlə daşıyır.

**İ.MƏMMƏDOVA,**
**Sumqayıt şəhər sakini**

● FOTO

## Bakı funikulyoru - bir neçə dəqiqəlik yol, 65 illik tarix













### *Şəhərin səs-küyündən yüksəkliyin sakitliyinə*

**Bakını yuxarıdan izləmək istəyən hər kəsin yolu bir nöqtədə mütləq funikulyordan keçir. Şəhərin səs-küylü küçələrindən ayrılıb sakitlik və mənzərə ilə dolu yüksəkliyə qalxmaq cəmi bir neçə dəqiqə çəkir. Bu qısa yol əslində Bakının keçmişi ilə bu gününü birləşdirən maraqlı bir hekayədir. Aşağıdan yuxarı qalxdıqca insan təkcə məsafə deyil, sanki zaman da qət edir - dəniz sahilindən başlayıb Şəhidlər xiyabanı kimi müqəddəs bir məkana doğru yüksəlir.**

Funikulyorun tikintisi XX əsrin ortalarında - sovet dövründə həyata keçirilmişdir. O dövr Bakının sürətlə böyüməsi və şəhər əhalisinin artması nəqliyyat baxımından yeni həllər tələb edirdi. Xüsusilə dağüstü əraziyə qalxmaq həm fiziki cəhətdən çətin, həm də vaxt aparan idi. Bu ehtiyacdan irəli gələrək layihə hazırlanmış və 1960-cı ildə funikulyor istifadəyə verilmişdir. Layihənin təşəbbüskarlarından biri paytaxtın inkişafında mühüm rol oynamış dövlət xadimi Əliş Ləmbəranski olmuşdur.

Funikulyor klassik kanat yolu prinsipi ilə işləyir. İlk baxışda sadə görünən bu sistem, əslində, indiki terminlə desək, olduqca ağıllı qurulub. İki vaqon bir-birinə bağlı şəkildə hərəkət edir - biri yuxarı qalxdıqca digəri aşağı enir. Bu həm enerjiyə qənaətdir, həm də sistemi təhlükəsiz edir. Təxminən 455 metr uzunluğa malik olan bu xətt üzrə hərəkət cəmi bir neçə dəqiqə çəkir. Qısa müddət ərzində sərnişinlər şəhərin aşağı hissəsindən yüksək nöqtəyə qalxaraq həm vaxt qazanır, həm də unikal mənzərə ilə qarşılaşırlar.

Funikulyorun əsas təyinatı yalnız nəqliyyatla məhdudlaşmır. O, eyni zamanda qonaqlar üçün Bakının cazibəsini artıran mühüm elementdir. Yuxarı qalxdıqca Xəzərin sahili, şəhərin mərkəzi küçələri və müasir memarlıq nümunələri panoram şəklində görünür. Bu səbəbdən funikulyor həm yerli sakinlər üçün nəqliyyat vasitəsi, həm də turistlər üçün şəhəri fərqli rakursdan kəşfetmə imkanı yaradır.

Funikulyoru xüsusi edən təkcə onun funksiyası deyil, həm də yaratdığı hissdir. Vaqon yavaş-yavaş yüksəldikcə qarşında Xəzər dənizi açılır, şəhərin küçələri kiçilir, binalar sanki maketə çevrilir. Bu, Bakını başqa bir gözlə görməkdir - daha sakit, daha geniş və daha təsirli.

Zaman keçdikcə funikulyor şəhərlə birlikdə dəyişmişdir. Bəzən fəaliyyətini dayandırmış, bəzən də yenidən qurulmuşdur. Amma hər dəfə daha müasir şəkildə geri qayıtmışdır. Xüsusilə müstəqillik dövründə şəhərin inkişafına verilən önəm bu kimi layihələrdə də özünü göstərmişdir. Ümummilli Lider Heydər Əliyevin prezidentliyi dövründə Bakının infrastrukturunun gücləndirilməsi, şəhərin simvolik məkanlarının qorunması və inkişafı prioritet istiqamətlərdən biri olmuşdur.

Bu siyasət sonrakı illərdə də davam etmişdir. Daha müasir mərhələdə, Prezident İlham Əliyev tərəfindən aparılan yenidənqurma işləri nəticəsində funikulyor tamamilə modernləşdirilmiş, yeni vaqonlar və şüşə konstruksiyalı stansiyalar istifadəyə verilmişdir. 2012-ci ildə yenidən açılan funikulyor artıq həm texniki, həm də estetik baxımdan müasir şəhər standartlarına uyğunlaşdırılmışdır.

Bu gün Bakı funikulyoru şəhərin keçmişi ilə bu gününü birləşdirən, insanlara həm rahatlıq, həm də estetik zövq bəxş edən mühüm urban elementdir. Şəhərin ən yüksək nöqtələrindən birinə qalxaraq tarixi yaddaşla təmas qurmaq, Bakının gözəlliyini seyr etmək imkanı yaradan bu sistem paytaxtın ayrılmaz hissəsinə çevrilmişdir. Funikulyor Bakının ən sadə, amma ən təsirli təcrübələrindən biridir. O, sərnişinləri nə təkcə bir yerdən digər yerə aparır, nə də, sadəcə, əyləndirir. O, şəhəri hiss etməyin başqa bir yoludur. Aşağıdan yuxarı qalxan bu qısa səyahət insana göstərir ki, bəzən ovqatı dəyişmək üçün uzun yollar qət etmək lazım deyil, sadəcə, bir neçə dəqiqəlik yüksəlmək kifayətdir.

**Nərminə ƏSGƏROVA,**
**İlham BABAYEV (foto),**
**"Azərbaycan"**

● HARAY

## Torpaq sürüşməsi üzündən kəndimiz boşalır

**Dondar Quşçu Tovuzun qədim kəndlərindəndir. Kəndin 4 min nəfərə yaxın əhalisi var. İşgüzar və zəhmətsevər kənd adamları həm də vətənpərvərdirlər. Dağlıq ərazidə yerləşdiyindən müharibə vaxtı ermənilər kəndi bir neçə dəfə top atəşinə də tutmuşdular. Lakin sakinlər öz ata-baba yurdlarını tərk etməmiş, kəndi şərəflə qorumuşdular.**



Amma bu məktubu yazmaqda məqsədimiz kənd sakinlərinin qəhrəmanlıqlarından deyil, düşdüyümüz çətin vəziyyətdən danışmaqdır. Son vaxtlar yağan aramsız yağışlar nəticəsində kəndin müxtəlif ərazilərində torpaq sürüşməsi baş vermiş və nəticədə bəzi evlərdə ciddi çatlar əmələ gəlmişdir. Hətta elə evlər var ki, onlarda yaşamaq təhlükəlidir. Belə evlərin sakinləri məcbur olub yaxınlarının, qohumlarının evlərinə sığınmışlar. Bu isə kəndimizin tədricən boşalması deməkdir. Bu barədə rayon icra hakimiyyətinə, eləcə də Fövqəladə Hallar Nazirliyinə müraciət etmişik. Hələlik heç bir tədbir görən yoxdur.

Hörmətli redaksiya! İndi çıxılmaz vəziyyətdə qalmışıq. Xahiş edirik bu işdə bizə kömək göstərib səsimizi yuxarılara çatdırasınız.

**Esmira HÜSEYNOVA,**
**Vüqar HƏSƏNOV,**
**Tovuz rayonunun Dondar Quşçu kənd sakinləri**

● EKOLOGİYA

## Yaşıllıq sağlamlıqdır

**Qusar yaşıllıqlar diyarıdır. Müxtəlif ağac növləri ilə örtülən meşələr, rayon mərkəzindəki park və xiyabanlar Qusara xüsusi gözəllik verir. Burada hər küçə, hər məhəllə, hər kənd hündür və yaraşıqlı ağaclarla əhatələnib.**





Rayonumuzda bahar girəndən müxtəlif ərazilərdə ağacəkmə aksiyaları keçirilir. Camaatımız bu tədbirlərdə yaxından iştirak edir. Aksiya çərçivəsində Qusar-Şahdağ, Qusar-Xudat, Qusar-Həzrə, Qusar-Samur və Həzrə-Sudur istiqamətləri üzrə avtomobil yollarının kənarlarında 1000 həmişəyaşıl, yerli ağac növlərindən olan 4360 ağac tingi əkilmiş, əkilən ağaclar suvarılmış, onlara zəruri aqrotexniki qulluq göstərilmişdir.

Ağacəkmə aksiyasında rayon rəhbərliyi ilə yanaşı, yerli sakinlər və hətta Qusara təşrif buyuran qonaqlar da yaxından iştirak edirlər. Hamı yaxşı bilir ki, ağacəkmə aksiyaları ətraf mühitin qorunması, yaşıllıqların genişləndirilməsi və ekoloji tarazlığın bərpasına töhfə vermək məqsədi daşıyır və belə tədbirlərdə iştirak etmək hər kəsin vətəndaşlıq borcudur.

**Sevda SULTANOVA,**
**Qusar şəhər sakini**

# "Los-Anceles-2028" üçün hazırlıq prosesinə indidən ciddi yanaşmaq vacibdir




"Aprel ayında böyüklər arasında cüdo və güləş üzrə Avropa çempionatları keçiriləcək. Bu yarışlar komandalarımızın hazırlıq səviyyəsini qiymətləndirmək baxımından mühüm əhəmiyyət daşıyır".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə deyib.

O, qarşıdakı yarışlarla bağlı gözləntilərinin yüksək olduğunu bildirib: "Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Elnur Məmmədli ilə bu məsələ ətrafında fikir mübadiləsi apardıq. Qeyd etdi ki, komanda çempionata əsas və güclü heyətlə qatılacaq. Hazırda olimpiya siklinin mühüm mərhələsidir. "Los-Anceles-2028" Yay Olimpiya Oyunlarına iki il vaxt qalıb. Bu baxımdan hazırlıq prosesinə indidən ciddi yanaşmaq vacibdir. İlk nəticələri Avropa çempionatlarında görəcəyik. Sonrakı dünya çempionatlarında isə komandaların heyətləri formalaşmağa başlayacaq".

Xatırladaq ki, Gürcüstanın paytaxtı Tbilisidə keçiriləcək Avropa çempionatı aprelin 16-dan 19-dək, Albaniyanın paytaxtı Tiranada gerçəkləşəcək güləş üzrə Avropa çempionatı isə ayın 20-dən 26-dək davam edəcək.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Uzunömürlülüyün sirri

**İnsan ömrünün nə qədərinin genlərdən, nə qədərinin isə həyat tərzindən asılı olduğu hər kəsə maraqlıdır. Ənənəvi olaraq qəbul edilən yanaşmaya görə, insan ömrünün təxminən 20 faizi genetik amillərlə müəyyən olunur, qalan hissəsi isə ətraf mühit və həyat tərzi ilə bağlıdır. Lakin son illərdə aparılan tədqiqatlar bu təsəvvürün tam dəqiq olmadığını göstərir və məsələni daha mürəkkəb müstəviyə daşıyır.**

Bu sahədə diqqət çəkən araşdırmalardan biri İsrailin Veyzman Elm İnstitutunun bioloqu Uri Alon və onun komandasına məxsusdur. Onlar insan ömrünə təsir edən faktorları daha dərindən anlamaq üçün riyazi modellərdən istifadə edərək əvvəlki yanaşmaları yenidən qiymətləndiriblər. Əvvəlki tədqiqatlar əsasən XIX əsrin sonlarında doğulmuş Skandinaviya əkizlərinin məlumatlarına əsaslanırdı. Bu məlumatlar üzərində aparılan analizlər göstərirdi ki, genetik faktorların ömür uzunluğuna təsiri nisbətən məhduddur. Lakin həmin dövrün reallıqları bu nəticələrin obyektivliyini şübhə altına alır. Çünki o illərdə infeksion xəstəliklər, qəzalar və zorakılıq kimi "xarici" ölüm səbəbləri çox yüksək idi və bu amillər insanların genetik potensialını reallaşdırmasına imkan vermirdi.

Uri Alonun komandası isə 1900-1935-ci illər arasında doğulmuş İsveç əkizlərinin məlumatlarını təhlil edərək daha fərqli nəticələr əldə edib. Onların hazırladığı modeldə xarici ölüm faktorları nəzərə alınmadıqda genetik təsirin ömür uzunluğuna təsirinin təxminən 50 faizə qədər yüksəldiyi müəyyən edilib. Bu isə o deməkdir ki, insan ömrü nə yalnız genlərdən, nə də yalnız həyat tərzindən asılıdır. Hər iki amil bir-biri ilə sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Araşdırma onu da göstərir ki, əvvəlki tədqiqatlar tamamilə yanlış deyildi, sadəcə, onlar fərqli tarixi dövrün şərtlərini əks etdirirdi. XIX əsrin sonlarında insanlar daha çox pnevmoniya və vərəm kimi xəstəliklərdən erkən yaşlarda həyatını itirirdi. Bu səbəbdən genetik faktorların təsiri həmin dövrdə daha az nəzərə çarpırdı.

Mütəxəssislər qeyd edirlər ki, müasir tibbin inkişafı bu balansı dəyişib. Bu gün eyni genetik riskə malik olan iki insan arasında ömür fərqi müalicə imkanları və həyat tərzindən asılı olaraq əhəmiyyətli dərəcədə dəyişə bilər. Məsələn, ürək-damar xəstəliklərinin müasir müalicəsi insan ömrünü xeyli uzadır. Bu isə göstərir ki, genetik meyillər mövcud olsa da, onların nəticəsi dəyişdirilə bilər. Bununla belə alimlər vurğulayırlar ki, genetik faktorlar xüsusilə həyatın sonrakı mərhələlərində daha böyük rol oynayır. 105-110 yaşına çatan insanlarda genetik təsir daha dominant olur. Lakin orta ömür uzunluğu əsasən qidalanma, fiziki aktivlik, səhiyyə xidmətlərinə çıxış və sosial-iqtisadi şərait kimi amillərlə formalaşır.



Bu kontekstdə həyat tərzinin rolu xüsusi əhəmiyyət daşıyır. Sağlam vərdişlər genetik "başlanğıc nöqtəsi"ni dəyişdirməsə də, onun üzərində ciddi təsir yarada bilər. Əksinə, siqaret, həddindən artıq spirtli içki qəbulu və qeyri-sağlam qidalanma kimi vərdişlər genetik üstünlükləri belə neytrallaşdırır. Finlandiyada aparılan genişmiqyaslı finger tədqiqatı bu amillərin birgə təsirini aydın şəkildə göstərib. Qidalanma, fiziki aktivlik, zehni fəaliyyət və ürək sağlamlığını əhatə edən ikiillik proqram iştirakçılarda idrak funksiyalarının 25 faizə qədər yaxşılaşmasına səbəb olub.

Aparılan araşdırmalar göstərir ki, uzun və sağlam həyat üçün radikal dəyişikliklərə ehtiyac yoxdur. Əsas olan kiçik, lakin davamlı vərdişlərdir. Bu baxımdan beyin sağlamlığı ilə bağlı nəticələr xüsusilə diqqət çəkir. Məlum olub ki, insan beyni həyat boyu dəyişməyə davam edir. Bu isə həyat tərzi ilə birbaşa bağlıdır. Araşdırmalara görə, beyin orta hesabla 9, 32, 66 və 83 yaşlarında mühüm "dönüş nöqtələri" yaşayır. Lakin bu mərhələlərin təsiri hər kəsdə eyni olmur. Təhsil səviyyəsi, sosial münasibətlər, fiziki aktivlik və zehni fəaliyyət beynin "kognitiv ehtiyat" yaratmasına kömək edir və onu yaşlanmanın mənfi təsirlərinə qarşı daha dayanıqlı edir. Mütəxəssislər idrak zəifləməsinin qaçılmaz olmadığını bildirirlər. Yeni bacarıqlar öyrənmək, hobbi qazanmaq beynin müxtəlif sahələrini aktiv saxlayır. Fiziki aktivlik üçün isə ağır məşqlər şərt deyil. Gündəlik gəzinti, pilləkənlərlə qalxmaq və ya qısa məşqlər belə beyin sağlamlığına müsbət təsir göstərir.

Tədqiqat nəticələrinə görə, orta yaş dövründə aktiv olan insanların demensiya riski 40-45 faiz daha aşağı olur. Bununla yanaşı, sosial əlaqələrin rolu çox vaxt yetərincə qiymətləndirilmir. Halbuki tənhalıq artıq qlobal sağlamlıq problemi kimi qəbul edilir. Sosial münasibətlər yalnız psixoloji deyil, həm də fiziki sağlamlığa təsir edir, immun sistemindən tutmuş ürək sağlamlığına qədər bir çox sahədə mühüm rol oynayır. Sağlam uzunömürlülük mövzusunda qidalanma xüsusilə ön plana çıxır. Mütəxəssislər təbii, emal olunmamış və qida maddələri ilə zəngin məhsulların daha uzun həyat üçün əsas olduğunu bildirirlər. Bu baxımdan tərəvəzlər, balıq, zeytun yağı və qatıq kimi məhsullar xüsusi əhəmiyyət daşıyır.

Brokoli, kələm və Brüssel kələmi güclü antioksidant və iltihab əleyhinə təsirə malikdir. Bu qidalar hüceyrə səviyyəsində qoruyucu rol oynayaraq xərçəng riskini azalda bilər. Eyni zamanda maqnezium və folat kimi vacib maddələrlə zəngin olduqları üçün orqanizmdə bir çox həyati prosesi dəstəkləyirlər. Tünd yaşıl yarpaqlı tərəvəzlər də ürək sağlamlığını qorumaq və bəzi xərçəng növlərinin qarşısını almaq baxımından mühüm rol oynayır. Onların tərkibindəki lif və vitaminlər ümumi sağlamlıq üçün əvəzolunmazdır.

Yağlı balıqlar, xüsusilə qızılbalıq, sardina və skumbriya yüksəkkeyfiyyətli zülal və omeqa-3 yağ turşuları ilə zəngindir. Bu maddələr ürək xəstəlikləri riskini azaldır, beyinin funksiyalarını dəstəkləyir və iltihabı azaldır. Tam taxıllar da uzunömürlülüyü dəstəkləyən əsas qida qruplarından biridir. Onlar xolesterol səviyyəsini aşağı salır, qan təzyiqini tənzimləyir və metabolik xəstəliklərin riskini azaldır. Sağlam yağlar arasında isə zeytun yağı xüsusi yer tutur. Onun tərkibindəki polifenollar və antioksidantlar ürək-damar sistemini qoruyur və iltihabın qarşısını alır.

Meyvələr arasında xüsusilə qaragilə, böyürtkən və çiyələk kimi giləmeyvələr yüksək antioksidant tərkibi ilə seçilir. Onlar hüceyrələrin yenilənməsini dəstəkləyir və qan şəkərinin stabil qalmasına kömək edir. Fermentləşdirilmiş qidalar isə bağırsaq sağlamlığı üçün vacibdir. Kimçi, kombuça və turş kələm kimi məhsullar faydalı bakteriyalarla zəngin olub immun sistemini gücləndirir. Qoz-fındıq və toxumlar isə həm zülal, həm də sağlam yağ mənbəyidir. Onlar qandakı insulini qaydasına salır və ürək sağlamlığını dəstəkləyir. Tünd şokolad isə az miqdarda qəbul edildikdə həm ürək, həm də beyin sağlamlığı üçün faydalıdır. Onun tərkibindəki flavonoidlər qan dövranını yaxşılaşdırır və idrak funksiyalarını dəstəkləyir. Mərcimək, noxud və lobya kimi paxlalı bitkilər lif və bitki mənşəli zülal baxımından zəngindir. Onlar qan şəkərini tənzimləyir və həzm sisteminin sağlamlığını qoruyur. Pomidor isə güclü antioksidant olan likopenlə zəngindir və ürək-damar xəstəliklərinin qarşısını almağa kömək edir.

Mütəxəssislərin sözlərinə görə, uzunömürlülük tək bir amilin deyil, genetik və həyat tərzi faktorlarının mürəkkəb qarşılıqlı təsirinin nəticəsidir. Elm göstərir ki, genlər müəyyən çərçivə yaratsa da, bu çərçivənin daxilində necə yaşayacağımız öz seçimlərimizdən asılıdır. Kiçik, lakin davamlı dəyişikliklər - düzgün qidalanma, aktiv həyat tərzi, sosial əlaqələr və zehni fəaliyyət daha uzun və sağlam həyatın əsasını təşkil edir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Əfsanəvi futbolçumuzun yubiley poçt markaları dövriyyəyə buraxılıb

Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) təşəbbüsü və "Azərpoçt" MMC-nin dəstəyi ilə Azərbaycanın əfsanəvi futbolçusu Anatoli Banişevskinin 80 illik yubileyi münasibətilə yeni poçt markaları dövriyyəyə buraxılıb.

AFFA-dan aldığımız məlumata görə, yeni filateliya məhsulu A. Banişevskinin zəngin idman irsini əks etdirir. Buraxılış bir poçt markasından ibarətdir. Eyni zamanda yubiley münasibətilə xüsusi poçt kartları da hazırlanıb.



Poçt blokunun tirajı 2500, poçt kartlarının tirajı isə 1000 ədəddir. Bu təşəbbüs A. Banişevskinin irsinin yaşadılması və gələcək nəsillərə çatdırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Qeyd edək ki, Anatoli Banişevski XX əsrdə Azərbaycanın ən tanınmış futbolçularından biri kimi tarixə düşüb. O, SSRİ milli komandasının heyətində 1966-cı il dünya çempionatında 4-cü yeri tutub, 1972-ci il Avropa çempionatında isə gümüş medal qazanıb. Klub səviyyəsində 1966-cı ildə "Neftçi"nin tərkibində SSRİ çempionatının bürünc mükafatçısı olub.

SSRİ millisinin heyətində 50-dən çox oyun keçirən Anatoli Banişevski 1996-cı ildə "Şöhrət" ordeni ilə təltif olunub. 2004-cü ildə isə UEFA-nın versiyasına əsasən Azərbaycanda son 50 ilin ən yaxşı futbolçusu seçilib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Hava əsasən yağmursuz olacaq

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, aprelin 10-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz mülayim cənub-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 8-10° isti, gündüz 14-17° isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunundan 760 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-9°, gündüz 17-22° isti, dağlarda gecə 1-6°, gündüz 10-15° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurun bəzi yerlərində havanın fasilələrlə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 13-18° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 10-15° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Lakin dağlıq ərazilərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-7°, dağlıq ərazilərdə 1°-dək şaxta, gündüz 10-15° isti olacağı bildirilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-9°, gündüz 13-18° isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda qərb rayonlarından başlayaraq bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 13-18° isti, dağlarda gecə 0-3°, gündüz 3-8° isti olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-9°, gündüz 17-22° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-11°, gündüz 16-21° isti, dağlarda gecə 6-8°, gündüz 10-15° isti olacağı ehtimal edilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərliyi və kollektivi iş yoldaşları Telman Məmmədova qardaşı

**XUDAVERDİ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təvəkkül Əliyev və Faiq Babayev AMEA Tarix və Etnologiya İnstitutunun şöbə müdiri Tofiq Nəcəfliyə əzizi

**MÖHÜBBƏT NƏCƏFLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3717**
**Sifariş 457**

**Qiyməti 60 qəpik**